AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT NAZİRLİYİ
MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ

ƏLİ FƏRHADOV

“AZƏRBAYCAN” QƏZETİNDƏ (1947-1949) RƏSM NÜMUNƏLƏRİ

K İ T A B - A L B O M

BAKI – 2025

Milli Azərbaycan Tarixi Muzeyinin
Elmi Şurasının qərarı ilə nəşr olunur.

Ön sözün müəllifi və elmi redaktor:
***tarix elmləri doktoru* Nərgiz Əliyeva**

Əli Fərhadov. ***"Azərbaycan" qəzetində (1947-1949) rəsm nümunələri (kitab-albom). Bakı, 2025.***

Təqdim olunan kitab-albomda Azərbaycan Demokrat Firqəsinin Bakıda nəşr olunmuş "Azərbaycan" qəzetinin (1947-1949) materialları – fotoşəkillər, karikaturalar və görkəmli şəxsiyyətlər haqqında məqalələr əsasında Cənubi Azərbaycanda "21 Azər" hərəkatı, şah rejimi əleyhinə demokratiya uğrunda xalq mübarizəsi, dövrün elmi, mədəni, ictimai-siyasi, hərbi xadimləri, fədailəri haqqında məlumat verilib. Mövzu ilə bağlı "Azərbaycan" qəzetinin 1945-1946-cı illərdə Təbrizdə nəşr olunmuş materiallarından, həmçinin digər ədəbiyyatlardan da istifadə edilmişdir. Kitab-albom mövzu ilə maraqlanan tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

MÜNDƏRİCAT

Önsöz.....5
I. İctimai-siyasi xadimlər.....7
Məhəmməd Xiyabani.....8
Tağı Ərani.....11
Seyid Cəfər Pişəvəri.....15
Firidun İbrahimi.....18
Məhəmməd Biriya.....22
Sadıq Badegan.....26
Nüsrətullah Cahanşahlı.....31
Əli Şəmidə.....33
Mir Əyyub Şəkiba.....37
Dadaş Tağızadə.....39
Əbdülhüseyn Əhmədi.....41
Nurullah Yekani.....43
Mirkazım Ələm.....45
Xəlil Azərbadegan.....47
Məhəmmədəmin Azadvətən.....49
Nüsrət Baqiri.....51
Qazı Məhəmməd.....53
Marksizm-leninizm xadimləri.....57
II. Elm və mədəniyyət xadimləri.....61
Bayraməli Abbaszadə Hammal.....62
Mirzə Əli Möcüz Şəbüstəri.....64
Mirzə Həsən Rüşdiyyə.....68
Mirrəhim Vilayi.....70
Mədinə Gülgün.....76
Aşıq Hüseyn Cavan.....78
Üzeyir Hacıbəyli.....80
Səməd Virğun.....84
III. Hərbi xadimlər, fədailər.....87
Səttarxan və Bağırxan.....88
Cəfər Kaviani.....92

Mirzə Rəbi Kəbiri.....95
Əbülqasim Əzimi.....98
Qulamrza Cavidan.....100
Qulu Sübhi Nuri.....102
Mahmud Qazi Əsədullahi.....104
Yusif Murtəzəvi.....106
Cəfər Sultani Azad.....108
Məhəmməd Agəhi.....110
Əhməd Cövdət.....112
Qulamhəsən Nasiri.....114
Məhəmmədəli Ramtin.....116
Qulamrza Dəbirniya.....118
Əjdər Baldar.....120
Həsən Zəhiri.....122
İsrafil Qadiri.....124
Yəhya Şeyxi.....126
Rəhim İmrani.....128
Şahmar Səmədi.....130
IV. Karikaturalar.....132
Nəticə.....166
Ədəbiyyat siyahısı.....169
Qeydlər.....180

ÖN SÖZ

Təqdim olunan kitab-albom Azərbaycan Demokrat Firqəsinin (ADF) 1947-1949-cu illərdə Bakıda əski əlifba ilə nəşr olunmuş "Azərbaycan" qəzetində yer almış fotoşəkillər, məqalələr və karikaturalar əsasında hazırlanmışdır. Qəzetin 1947-1949-cu il nömrələri Azərbaycan Demokrat Firqəsinin qurucusu S.C.Pişəvəridən sonrakı rəhbəri S.Badeganın (ADF-nin ikinci sədri...) ümumi rəhbərliyi altında, Əli Şəmidənin redaktorluğu ilə (İsmayılov. 21 Azər hərəkatının sərhəng...; Fərhadov, 2024, s.9) nəşr olunmuşdur.

Qəzetdə 1945-ci ildə "21 Azər" hərəkatının başlaması nəticəsində S.C.Pişəvəri tərəfindən ADF-nin və Milli Hökumətin yaradılması və şah rejiminə qarşı mübarizə təqdim və təhlil edən müxtəlif məzmunlu məqalələrlə yanaşı məşrutə qəhrəmanları - Səttarxan, Şeyx Məhəmməd Xiyabani və filosof Tağı Ərani kimi məşhur ictimai-siyasi xadimləri, ADF-nin Firidun İbrahimi, Mir Əyyub Şəkiba, Dadaş Tağızadə və s. görkəmli üzvlərini əks etdirən fotoşəkillər yer alır. Həmçinin Xalq Qoşunları naziri general Cəfər Kaviyanın rəhbərliyi altında təşkil olunmuş "Qızılbaş Xalq Qoşunu"nun ("21 Azər – 70".., 2015, s.75) görkəmli zabitləri - general Mirzə Rəbi Kəbiri, general Əbülqasim Əzimi və s. zabitləri, "21 Azər" fədailərini, güneyli şair Bayraməli Abbaszadəni, Cənubi Azərbaycanda yaradıcılığı təbliğ edilən Üzeyir Hacıbəyli kimi şəxsiyyətləri, ADF-nin qəbul etdiyi marksizm-leninizm ideologiyasının məşhur xadimlərini əks etdirən fotoşəkillər təqdim olunub. Bu fotoşəkillərlə yanaşı onların haqqında məqalələr də "Azərbaycan" qəzetində yer alıb və xronoloji qaydaya uyğun olaraq, həm

İranda işlədilən şəmsi təqvim və onun qarşılığı olan miladi tarixlə birlikdə kitab-albomda dövrün ictimai-siyasi, elmi və hərbi xadimləri haqqında məlumatlar təqdim edilib.

Həmçinin "Azərbaycan" qəzetində Azərbaycan və İran xalqlarını istismar edən, onları əsarətdə saxlayan Pəhləvi şah sülaləsinin üzvlərini, şah hökumətinin siyasətini, şaha dəstək olan beynəlxalq imperializmi tənqid və ifşa edən karikaturalar təqdim olunmuşdur. Bu karikaturaların qəzetdə verilmə qayəsi dövrün şah rejiminin yarıtmaz fəaliyyətini ifşa etmək, oxuma-yazma bilməyən şəxsləri təqdim olunan şəkillər sayəsində ictimai-siyasi baxımdan maarifləndirmək, həm də oxuculara ölkənin real durumunu satirik yolla başa salmaq idi. Kitab-albomun hazırlanmasında "Azərbaycan" qəzetinin 1947-1949-cu il materialları ilə yanaşı qəzetin 1945-1946-cı il saylarından, dövrün tarixini əks etdirən başqa qaynaqlardan, internet resurslarından və müxtəlif ədəbiyyatlardan istifadə edilmişdir. Mövzu Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələrin elmi-fond şöbəsində qorunan (SMF № 3347) və muzeyin əməkdaşı Əli Fərhadovin müəllifliyi ilə haqqında monoqrafiya nəşr edilən (Fərhadov, 2024) "Azərbaycan" qəzetinin 1947-1949-cu il materialları əsasında hazırlanmışdır.

t.e.d. Nərgiz Əliyeva

İCTİMAİ-SİYASİ XADİMLƏR

Məhəmməd Xiyabani (1880-1920)

"Azərbaycan" qəzetində görkəmli inqilabçı, ictimai-siyasi xadim Şeyx Məhəmməd Xiyabaniyə böyük yer ayrılıb, fotoşəkli və çıxışlarından nümunələr təqdim edilib (Şeyx Məhəmməd Xiyabani.., 1947, 9 dekabr, s.1). M.Xiyabani haqqında S.C.Pişəvərinin "Novruz" təxəllüsü ilə qəzetdə yazdığı silsilə məqalələr də bu baxımdan əhəmiyyətlidir (Fərhadov, 2024, s.52). Qəzetdə Səttarxan dövrünün məşrutə fədaisi və "Azadistan" muxtar hökumətinin qurucusu Şeyx Məhəmməd Xiyabaninin "Azərbaycanın görkəmli seyidlərindən biri və böyük mütəfəkkir" kimi Təbrizdə ilahiyyat elmlərini tədris etdiyi, dini elmlərdə geniş məlumat sahibi olduğu və Kərimxan məscidində imam-cümə kimi xidmət etdiyi qeyd olunur (Novruz, 1945, 1 noyabr, s.2). Həmçinin onun İran parlamentinin üzvü kimi siyasi fəaliyyəti haqqında yazılar təqdim olunub. Bu böyük şəxsiyyətin 1919-cu il müqaviləsi ilə İranın yeraltı və yerüstü zənginliklərini ingilis hökumətinə və onların İrandakı müşavirlərinə təslim edən Baş nazir Həsən Vüsuqəddövləyə qarşı mücadiləsi haqqında məlumatlar verilir. Məsələn, M.Xiyabaninin dediyi - "Mən istəyirəm ki, Milli Məclisdə xalqın xeyrinə olan qanunların qəbuluna mane olanları, öz şəxsi mənafeyi naminə bu qanunların qəbulunu ləngidənləri zor gücüylə yola gətirib, onları xalqın mənafeyini qorumağa məcbur edəm", sözləri qəzetdə verilmişdir. Lakin M.Xiyabaninin bu tələbi

şah hökuməti tərəfindən rədd edildiyi üçün o, bu hökuməti tanımadığını və rədd etdiyini Milli Məclisdə çıxış edərək bildirmişdir. M.Xiyabaninin cəsarətli mücadiləsini təqdir edən "Azərbaycan" qəzeti məşhur azərbaycanlı inqilabçı Hacı Məhəmmədəli Badamçının - "Tehrandakı demokrat başçıları təsdiq edirlər ki, M.Xiyabaninin şah hökumətinə qarşı bu mübariz çıxışını başqa heç kəsdən gözləmək olmazdı", sözlərini nümunə verir. Qəzet göstərir ki, Səttarxan hərəkatı müvəqqəti olaraq yatırılsa da, Azərbaycanda yeni bir inqilabi hərəkat başlayır. Bunın da başında fəzilətli alim, inqilabçı demokrat Şeyx Məhəmməd Xiyabani dururdu. O, İranda azadlıq hərəkatında yeni bir səhifə açdı (Həbibi, 1948, 19 iyun, s.3). "Azərbaycan" qəzeti M.Xiyabaninin başlatdığı qiyamın "Təbrizin şərəfli tarixinə təzə iftixarlar" əlavə etdiyini yazırdı (Müciri, 1948, 10 iyul, s.3). H.Vüsuqəddövlənin ingilislərlə bağladığı təslimçi müqavilənin rüsvayçılığına qarşı M.Xiyabaninin apardığı mücadilənin əhəmiyyətini qeyd edən "Azərbaycan" qəzeti göstərirdi ki, İranın tarix səhifəsinə düşmüş bu şərafətsizlik ləkəsini məhz azərbaycanlılar pozub təmizlədilər. Məhz M.Xiyabaninin qiyamı sayəsində ingilislərlə bağlanan müqavilə ləğv edildi. Əgər bu qiyam olmasaydı, şah hökuməti İranı ingilis ağalarına satıb, pullarını xərcləyəcəkdilər. Azərbaycanın fədakar inqilabçılarının mübarizəsi H.Vüsuqəddövləni hakimiyyətdən getməyə məcbur etdi (Həbibi, 1948, 31 iyul, s.1).

"Azərbaycan" qəzeti M.Xiyabaninin şah rejiminə qarşı mübarizəsinin səbəblərini onun öz ifadələrilə təqdim edib göstərirdi ki, Cənubi Azərbaycanın müxtəlif vilayətlərində şah hökuməti tərəfindən bir sıra biabırçı və rüsvayçı işlər icra edilmişdir. Bu əməliyyatlar yazıq millətin maliyyə vəziyyətini korlamışdır. Lazım olmadığı halda yüksək maaş ilə təmin edilmiş məmurlar Tehrandan gələrək buradakı yerli məmurların üzərinə əlavə yük olmuşlar. Cənubi Azərbaycanda elə bir qarətçi həngaməsi başlamışdır ki, onun mislini heç bir quldur dəstəsinin soyğunçuluğunda görmək mümkün deyildir.

M.Xiyabani deyirdi ki, bizim qiyamımızın məqsədi bu məsuliyyətsizliyə son qoymaq, oğruları, quldurları və xainləri vəzifədən uzaqlaşdırmaq, müqəssirləri cəzasına çatdırmaqdır. Bu qiyam xainlərin başına dünyanı dar edəcək (Şeyx Məhəmməd Xiyabani.., 1947, 9 dekabr, s.1).

M.Xiyabaninin qiyamının əsas hədəfi və onun şüarı xalqın azadlığı və "Azadistan" adlandırdığı Cənubi Azərbaycanın muxtariyyəti idi. M.Xiyabani öz nitq və bəyanlarında, nəşr etiyi "Təcəddüd" qəzetinin səhifələrində yazırdı ki, "biz Azərbaycanda azad, milli, və demokratik bir hökumət quracağıq. Nə vaxt Tehranda özlərini islah edib Azərbaycanı inandıracaq milli və demokratik bir hökumət qursalar, o vaxt biz onlarla həmkarlıq edərik" (Firqəmizin Mərkəzi Komitəsi..., 1948, 15 dekabr, s.3). Bu, şeyxin qiyamının əsl hədəfi və məqsədi idi. Lakin mürtəce şah hökuməti Azərbaycan xalqının İran üçün olan fədakarlığını qan dəryasında boğdu. M.Xiyabani xəyanətlə qətl edildi (Həbibi, 1948, 31 iyul, s.4).

"Hanı Xiyabani, Səttarxan hanı?" deyən "Azərbaycan" qəzeti şah rejiminin zülmü altında inləyən Azərbaycan xalqının yenidən bu görkəmli inqilabçıları arzuladığını qeyd edir və onların xatirəsini həsrətlə yad edirdi (Azəroğlu, 1948, 7 fevral, s.1).

Tağı Ərani (1902-1940)

Pəhləvilər dövründə azadlıq hərəkatının görkəmli şəxsiyyətlərindən biri olan Tağı Ərani 1281 (1902)-ci ildə Təbrizdə anadan olmuş və burada ibtidai təhsil almışdır. Lakin sonra atasının işi səbəbilə Tehrana köçdüklərindən T.Ərani də oraya getmiş, orta təhsilini Tehranda bitirmişdir. T.Ərani Tehran Universitetində oxudığı zaman tələbələr arasında öz inqilabi fikirləri və azadlıq tərəfdarı olmasıyla tanınmışdı. Universitetdə ali tibb təhsili aldıqdan sonra təhsilini davam etdirmək məqsədilə o, Berlin Universitetinə daxil olaraq orada fizika-kimya fakültəsində təhsil alır. O, burada həm oxuyur, həm də iranlı tələbələr arasında demokratik və solçu inqilabi ideyaların təbliği ilə məşğul olurdı. Bundan xəbər tutan İran hökuməti T.Əranini və onunla həmfikir olan digər iranlı tələbələri İrana qayıtmağa məcbur etmək üçün onlara göndərilən təqaüdü kəsdi. Lakin T.Ərani bu təzyiqin qarşısında geri çəkilmədi. O, mətbəələrdə çalışaraq, qəzet-jurnallarda məqalə yazaraq öz məişətini təmin edə bildi. Daha sonra isə universitetin şərqşünaslıq fakültəsində orta əsrlər İran ədəbiyyatından dərs dedi. Ömər Xəyyamın "Evklidin kitablarındakı çətin müddəaların şərhi" adlı nadir əlyazmasını ön söz və şərhlərlə nəşr etdirdi. T.Ərani öz çıxışlarında və məqalələrində fars dilinin və İran mədəniyyətinin təbliğinə geniş yer ayırırdı (Fərhadov, 2023, № 1, s.73-74).

T.Ərani 1929-cu ildə fiziki kimya üzrə doktor elmi dərəcəsini alıb Tehrana qayıtdı. O, əvvəlcə orta məktəblərdə botanika və fizikadan, sonra isə ali məktəblərdə fizika və mexanikadan dərs deyir, bir çox mühüm elmi əsərlər yazır. Həmçinin Peşə təhsili Nazirliyində təlim-tədris idarəsinin müdiri vəzifəsində çalışır.

T.Ərani Tehranın ən çox sevilən və hörmət sahibi müəllimlərindən biri idi. O, tələbələrə dərs deməklə kifayətlənmir, onları ictimai-siyasi baxımdan da maarifləndirir, İranın bərbad vəziyyətinə səbəb olan Rza şahın xalqa zidd siyasətini tənqid edirdi.

T.Ərani Tehranda "Dünya" jurnalını nəşr etdirir. Bu jurnal İranın mətbuat tarixində ictimai, fəlsəfi və elmi nöqteyi-nəzərdən misli görünməmiş bir jurnal idi. T.Əraninin öz ifadəsilə desək, "Dünya" jurnalı "oksigensiz məhbəsin (türmə-Ə.F.) fəzasında əsən səhərin təmiz nəsimi (meh-Ə.F.)" idi (Fərhadov, 2024, s.35). "Dünya" jurnalı İran gənclərinin fikrində demokratik inqilab yaratdı. Bu gənclər T.Əraninin və jurnalın ətrafında toplanıb şah rejimi əleyhinə öz müxalifətçi, solçu cəmiyyətlərini yaratdılar. Bunu görən mürtəce şah hökuməti T.Əranini 52 nəfər həmfikir yoldaşlarıyla birlikdə Tehranda mühakimə edib kommunist ittihamı ilə həbs etdilər.

T.Ərani zindanda oldığı zaman belə öz rəhbərlik rolunu unutmadı. O, tək adamlıq kamerada olsa da, dərman kağızlarında yoldaşlarına məktub göndərir və yazırdı ki, şah rejimi quduzlaşıbdır. Tarix bir sel kimi öz yolu üzərində olan bütün pis və murdar şeyləri yuyub aparacaqdır. Siz bu selin kənarında qalan çör-çöpdən olmayın. Möhkəm dayanın, son qalibiyyət bizimlədir! Nəhayət T.Əraniyə qondarma məhkəmə keçirildi. O, həmin məhkəmədə şah rejimini ifşa edib, qondarma məhkəmənin bütün cinayət və xəyanətlərini açıb ortaya qoydu. O, sübut etdi ki, şah hökuməti Qərb imperializminin əlində oyuncaqdır. Qorxu və əyilmək bilməyən bu böyük demokrat alim ölkədə hökm sürən diktatura idarəçiliyini, hərbi polis rejimini tənqid edərək, gələcəkdə zəhmətkeş xalqın hökmən

qalib gələcəyini mətanət və şücaətlə izah etdi. O, özünü yox, xalqını müdafiə edirdi. "Bu qurdlu ağac çürüyəcək, bəlkə də artıq çürümüşdür; həqiqi günahkarları cəzalandırmayan bütün məhkəmə və icra sistemi günahkardır" (Fərhadov, 2023, s.76-77) deyən T.Əraninin məntiqli sözləri qarşısında məhkəmə heyəti aciz qalmışdı, buna görə də T.Əranini yoluxucu virusla xəstələndirib öldürdülər.

"Azərbaycan" qəzeti yazırdı ki, İranda elə bir ziyalı tapılmaz ki, Azərbaycanın qəhrəman alimi və mübariz oğlu Dr. T.Əraninin elmi, fəlsəfi əsərləri ilə tanış olmasın (Müciri, 1948, 21 iyul, s.3). "Xalqın mənafeyini müdafiə edən qanun müqəddəsdir" (Azadlıq yolunun..., 1988, s.23) deyən T.Ərani təbii ki, Rza şah diktaturasına tabe ola bilməzdi, buna görə də öz elmi, inqilabi fikirləri ilə şah rejiminə qarşı mübarizə edirdi. T. Ərani cəlladlar əlində məhv olsa da, onun davamçıları Ərani ideyalarının işığı altında sosial-demokrat təmayüllü Tudə Partiyasını qurub şah rejiminə qarşı mübarizəyə davam etdilər. Onun yetişdirdiyi tələbələr həmin arzuların carçısı və davamçısı oldular. Hürriyyətçi iranlılar, xüsusilə azərbaycanlılar Təbrizin yetişdirdiyi bu böyük alimin, bu mərd inqilabçının xatirəsini həmişə əziz tuturlar (Cahanşahlı, 1948, 7 fevral, s.1, 3). "Azərbaycan Demokrat Firqəsini T.Ərani yolunun davamçısı sayan (Xalqımızın.., 1949, s.1, 4) "Azərbaycan" qəzetində mühacir şair B.Azəroğlunun "Doktor Ərani" şeiri təqdim olunmuşdur. Şair T.Əraninin həsrətilə belə yazırdı:

"Qədrini bilmədi hər nadan sənin
Məskənin oldusa daş zindan sənin
Ərani! Ayrıdır öz "Dünya"n sənin
Mərkəzi könüllər otağındadır" (Azəroğlu, 1948, 7 fevral, s.3).

Azərbaycan xalqının görkəmli alimi, inqilabçı filosof T.Ə-rani şəhid edilsə də, onun mütərəqqi ideyaları ADF-lilərin həyat düsturuna çevrildi. Onun xatirəsi Azərbaycan xalqının yaddaşından silinməyəcək və onun arzu və əməlləri həmfikir-lərinin ürəyində əbədi yaşayacaqdır.

Tağı Ərani:
"Yaşasın Azərbaycan demokrat cavanları! Azadlıq və sülh uğrunda mübarizə!
Sülh və demokratiya uğrunda mübarizə bütün dünya cavanlarının müştərək hədəfidir".
(Azərbaycan, 1948, 24 noyabr, s.1).

Seyid Cəfər Pişəvəri (1893-1947)

"Azərbaycan" qəzetinin 1947-1949-cu il nömrələrində S.C.Pişəvəri haqqında bir sıra məlumatlar, o cümlədən, onun çıxışları yer alsa da, fotoşəkli təqdim edilməmişdir. Qəzetin 1945-1946-cı il saylarında onun bir sıra fotoşəkilləri vardır. Göstərilən fotoşəkildən sonra S.C.Pişəvəri aşağıdakı məlumat ilə təqdim edilmişdir: "Azərbaycan Milli Hökumətinin Baş vəziri və Azərbaycan xalqının sevgili rəhbəri cənab ağayi Seyid Cəfər Pişəvəri" (Azərbaycan, 1945, 20 dekabr, s.1).

Cənubi Azərbaycanın ən güclü milli ideoloqu S.C. Pişəvəri (1893-1947) olmuşdur. O, İranın və Cənubi Azərbaycanın ən çətin vaxtlarında demokratik mübarizəyə rəhbərlik etmişdir. "Azərbaycan" qəzeti yazırdı ki, beynəlxalq imperializmin və onun əlaltısı olan şah hökumətinin sayəsində İranın istiqlalı məhv olmuşdur. Bu səbəbdən xalq öz başına çarə etmək, bu uçurumdan çıxış yolu axtarırdı. Bu yol - özü özgələrə nökər olub, lakin Azərbaycana ağalıq etmək istəyən bir ovuc fars şovinistinin əsarət zəncirindən qurtulmaq yolu, milli muxtariyyət yolu idi. Azərbaycan xalqını mütəşəkkil bir surətdə bu yola sövq etmək üçün qüdrətli bir siyasi firqəyə zəruri ehtiyac var idi. Bu ehtiyacı düşünən Azərbaycan xalqı 3 sentyabr 1945-ci il tarixində Azərbaycanın namuslu oğlu, ömrünü xalqının azadlığına həsr etmiş S.C.Pişəvərinin başçılığı ilə əvvəlcə ADF-ni,

sonra isə Milli Məclisə seçkilər yolu ilə də 12 dekabr (21 Azər) tarixində Milli Hökuməti yaratdı. ADF Azərbaycan xalqının, xüsusilə zəhmətkeşlər təbəqəsinin amal və arzularını özünə hədəf seçdiyi üçün yüz minlərlə ziyalı, kəndli və fəhlə onun ətrafına toplaşdı (Firqəmizin Mərkəzi Komitəsi sədri..., 1948, 15 dekabr, s.4).

"Azərbaycan" qəzeti göstərirdi ki, S.C.Pişəvəri ADF-nin və Milli Hökumətin rəhbəri olmaqla yanaşı qəzetin Təbrizdə çıxdığı bütün müddətdə ona rəhbərlik etmişdi. S.C.Pişəvəri qəzetə rəhbərlik və nəzarət etməklə yanaşı demək olar ki onun əsas məqalələrini özü yazırdı. Qəzetdə onun öz ad-soyadı ilə yanaşı "P", "C", "Novruz", "Səməndər" kimi gizli imzaları ilə də məqalələri nəşr olunmuşdur (Fərhadov, 2024, s.52). S. C.Pişəvəri qeyd edirdi ki, mən "Azərbaycan" qəzetində yazdığım məqalələrə görə siyasi məqalə yazanların cərgəsinə daxil olmuşam; əgər məndən soruşsalar ki, milli hərəkatımız dövründə gördüyün hansı işlə daha çox fəxr edirsən? Mən deyərəm ki, "Azərbaycan" qəzetində yazdığım məqalələrlə daha çox iftixar edirəm". Doğrudan da "Azərbaycan" qəzetində yazılan məqalələr milli, demokratik mübarizə tariximizin ən parlaq hadisələrini özlərində əks etdirir.Təbrizdəki nəşr müddətində qəzetin bütün baş məqalələrinin əsas mövzusunu da S.C.Pişəvəri özü təyin edirdi (Xoşginabi, 1948, 15 sentyabr, s.3). "Azərbaycan" qəzetində, o cümlədən öz siyasi fəaliyyətində milliliyə, ana dilinin saflığına xüsusi əhəmiyyət verən S.C.Pişəvəri deyirdi ki, öz ana dilini danan xaindir (İbrahimi, 2018, s.27). Məhz S.C.Pişəvərinin rəhbərlik etdiyi ADF-nin milli siyasəti nəticəsində 1945-1946-cı illərdə Cənubi Azərbaycan mətbuatı özünün ən yüksək zirvəsinə qalxmışdı (Azərbaycan dövri mətbuatı.., 1993, s.45). Təsadüfi deyil ki, "Azərbaycan" qəzetinin inqilabi maarifçi məzmunundan qorxuya düşən şah hökuməti qəzetin İran vilayətlərində, o cümlədən Tehranda yayılmasına maneələr törədirdi ("Azərbaycan" qəzeti.., 2022, s.297).

Bir illik mübarizəyə baxmayaraq 1946-cı ilin 13 dekabrında şah ordusu Cənubi Azərbaycanı zəbt edib ADF hakimiyyətinə son qoydu. S.C.Pişəvəri və bir çox silahdaşı, ADF-li fəalların bir qismi Sovet Azərbaycanına mühacirət etdilər. Cənubi Azərbaycanda atası Rza şah Pəhləvinin qatı irançılıq siyasətini davam etdirən Məhəmmədrza şahın sayəsində milli mətbuatın inkişafına, ana dilində qəzet-jurnal, kitab nəşrinə son qoyuldu. Şimali Azərbaycana pənah aparan ADF xadimləri və partiyanın "Azərbaycan" qəzeti mühacirətdə fəaliyyət göstərməyə başladı (Azərbaycan dövri mətbuatı.., 1993, s.46). S.C.Pişəvəri isə milli hərəkatın şah rejimi tərəfindən süqutu zamanı İran hökumətilə neft müqaviləsi bağladığı üçün ADF-yə yardımdan imtina edən Stalin hökumətini tənqid və ittiham etdiyi üçün şübhəli bir maşın qəzasında öldürüldü. Bununla da Cənubi Azərbaycanda demokratik xalq hərəkatının süqutunda beynəlxalq imperializm dəstəkli şah rejimi ilə bağladığı sərfəli neft müqaviləsinə aldanan sovet hökuməti öz əsl simasını göstərdi (Fərhadov, 2024, s.15, 61, 65, 68).

Firidun İbrahimi (1918-1947)

Azərbaycan xalqının sevimli və qəhrəman oğlu Firidun Qəni oğlu İbrahimi 1297 (1918)-ci ildə Astara şəhərində ziyalı ailəsində anadan olmuş, Astarada ibtidai təhsil, Ənzəlidə və Təbrizdəki Firdövsi məktəbində orta təhsil almışdır. F.İbrahiminin atası şah hökumətinə müxalif olduğu üçün uzun illər həbs və sürgündə qalmışdır. F.İbrahimi Tehran Universitetində hüquq fakultəsində təhsil aldığı zaman fərdi şəkildə dərs deməklə və mətbuatda məqalələr yazmaqla özünün gündəlik məişətini təmin edirdi. Bu dövrdə o, Tudə Partiyasının fəal üzvlərindən biri olur və Tehranda nəşr olunan "Rəhbər", "Ajir" ("Həyəcan"), "Mərdom" ("Xalq"), "İran-e ma" ("Bizim İran") və başqa mühüm qəzetlərdə siyasi məqalələr yazır. Bir müddət sonra F.İbrahimi Təbrizə gedib "Xavər-e nou" ("Yeni Şərq") qəzetinin nəşrinə başlayır və qəzetdə ictimai-siyasi məqalələr yazır. O, ADF-nin şah rejimi əleyhinə milli, demokratik mübarizəsində öz qələmi ilə iştirak edərək "Azərbaycan" qəzetində bir çox elmi, ictimai-siyasi məqalələr yazmışdır (Xoşginabi, 1948, 14 yanvar, s.1).

F.İbrahiminin "Azərbaycan danışır. İftixarlı tariximizdən bir neçə səhifə" adlı milli tariximizi təsvir və təhlil edən silsilə məqalələri çox əhəmiyyətlidir. Bu məqalələr "Azərbaycan" qəzetinin 1945-ci il, 42-60-cı saylarında dərc olunmuşdur (İbrahimi, 2018, s.8). Müəllif bu əsərində qeyd edirdi ki, mənim

məqsədim öz şərəfli millətimin parlaq mədəniyyəti, tarixi və demokratik hüququnu müdafiə etməklə bərabər, onun milli, tarixi qürurunu, əcdadlarımın qəhrəmanlığını ortaya qoymaqdır. O, yazırdı ki, öz hüquqi məqam və mövqeyini əldə etmək üçün qiyam edən Azərbaycan xalqının həqiqi mahiyyətini azad dünyaya bildirmək istəyir. Bəşəriyyətin mədəniyyəti tarixində Azərbaycanın nə kimi bir məqama malik olduğunu və əsrlər boyu qəsbkar və qəddar dövlətlərin əsarəti altında qalmalarını və yenidən öz azadlığı və hüququnu əldə etmək uğrunda qiyam etməsini göstərmək istəyir. F.İbrahimi yazırdı ki, Azərbaycan odlar ölkəsidir. Bu əziz torpağın hər qarışında iftixarlı babalarımızın unudulmaz yadigarı qalır. Onun keçmişdəki əzəmətli qalalarının qalıqları, o müqəddəs atəşlərin əsərləri bizim böyük atalarımızın pak ruhunu və sarsılmaz imanını göstərir (Xoşginabi, 1948, 14 yanvar, s.3).

Bu dövrdə şah hökumətinin qəzetləri Azərbaycan haqqında uydurma məqalələr yazırdılar. Buna görə də F.İbrahiminin bu məqalələri xalqımızın maariflənməsi üçün böyük əhəmiyyətə malik idi. O, bütün ictimai-siyasi hadisələri elmi nöqteyi-nəzərdən təhlil edirdi. F.İbrahimi "Azərbaycan" qəzetinin redaksiya heyətinə yaxından kömək edir, öz məqalələri ilə qəzetdə yaxından iştirak edirdi. O, xalqın və ADF hökumətinin dərin etimadını qazandığı üçün Baş prokuror vəzifəsinə təyin edilmişdi və milli qanunların icrasına nəzarət edib cinayətkarların öz layiqli cəzasına çatması üçün çalışırdı (Xoşginabi, 1948, 14 yanvar, s.3).

F.İbrahimi 1946-cı ildə ADF hökumətinin mətbuat nümayəndəsi sifətilə Parisdə təşkil olunmuş Sülh konfransında iştirak etmişdi (Azadlıq yolunun.., 1962, s.16). O, Parisdən qayıtdıqdan sonra Paris konfransı haqqındakı təəssüratlarını və öz ideyalarını "Azərbaycan" qəzetində yazmışdı. Tehranın məşhur qəzetlərindən olan "İran-e ma" bu məqalələri tərcümə edib fars dilində nəşr etmişdi.

Şah ordusu ADF hökumətini məğlub edib Təbrizi zəbt etdikdən sonra da F.İbrahimi könüllü təslim olmadı. O, ADF-nin iqamətgahında öz tərəfdarları ilə bir müddət silahlı müqavimət göstərsə də, son nəticədə həbs edildi. O, həbsdə olduğu zaman da öz mərdliyini itirmədi. Xarici müxbirlərin – "Siz Azərbaycanın Baş prokuroru vəzifəsində olduğunuz zaman nə işlər görübsünüz və nə üçün xalq sizi öldürmək istəyir?", sualına F.İbrahimi belə cavab vermişdi: "Biz illər boyu məhkəmələrdə baxılmamış qalan dosyalara baxıb səbəbsiz və günahsız olaraq zindanlarda çürüməkdə olan insanları azad etdik. Bizi öldürmək istəyənlər şah hökumətinin quldur dəstələrdir. Biz xalq dedikdə zəhmətkeş və kəndli kütlələrini düşünürük" (Xoşginabi, 1948, 14 yanvar, s.3). O, suallara cavab verərkən Azərbaycan və İran xalqlarının hüquqlarını tapdalayan şah hökumətinin mahiyyətini ifşa edir, öz məhkəməsində xalqın mənafeyini elmi və məntiqi dəlillərlə müdafiə edirdi. F.İbrahimi edam edilsə də, onun məhkəmədəki çıxışları Azərbaycanın və İranın azadlıq tarixində parlaq səhifələr açdı.

F.İbrahimi ADF üzvlərinin, xalqımızın və bütün İran ziyalılarının, zəhmətkeşlərin son dərəcədə sevdiyi bir inqilabçı və yazıçı idi. O, iradəli alim, yüksək əxlaqlı bir şəxsiyyət idi. "Azərbaycan" qəzeti yazırdı ki, F.İbrahimini öldürsələr də, xalqımız onu unutmayacaqdır. Xalqımız F.İbrahiminin müqəddəs ideyalarını həyata keçirib azadlıq bayrağını şəhid olan qəhrəmanlarımızın qəbirləri üstündə yüksəldəcək və səadət qapısını məzlum xalqların üzərinə açacaqdır. Firidunlardan ilham alaraq azadlıq uğrunda mübarizə aparıb xoşbəxt bir gələcəyi təmin etmək üçün elm və biliklə silahlanacağıq, onların göstərdiyi qəhrəmanlıqlar bizim üçün mübarizə yoludur (Xoşginabi, 1948, 14 yanvar, s.1, 3).

Ömrü boyu vətəninin müdafiəsində duran F.İbrahimi özünün "Hamı vətən keşiyində!" adlı məqaləsində yazırdı ki, xalqda olan həyəcan, xalqımızın azad həyata, milli hərəkatımıza

və bu inqilabın sayəsində əldə edilmiş yüzlərcə parlaq nailiyyətlərə olan əlaqəsi onun ADF rəhbərliyinə olan etimadını göstərir. O, qeyd edirdi ki, hər qarışında yüzlərcə müqəddəs xatirələrimiz olan vətənimiz heç vaxt şah hökumətinin müstəmləkəsi, əsarəti altında qalmayacaqdır. F.İbrahiminin bu idealı və müqəddəs amalı xalqımızın ürəyində yaşayır. Bu ideal xalqımızın arzusunun ifadəsidir (Xoşginabi, 1948, 15 sentyabr, s.3).

Məhəmməd Biriya (1914-1985)

"Azərbaycan" qəzetinin 1947-1949-cu il nömrələrində ADF hökuməti dövründə Maarif naziri olan M.Biriya haqqında heç bir məlumat və ya şəkil yoxdur. Bunun səbəbi onun mühacirət dövründə stalinizmi tənqid etdiyinə görə sovet hökuməti tərəfindən repressiyalara məruz qalması olmuşdur. Təqdim etdiyimiz şəkil (Ağayi Məhəmməd Biriya, 1945, 29 noyabr, s.1) və bir sıra məlumatlar "Azərbaycan" qəzetinin 1945-1946-cı il nömrələrindən və s. ədəbiyyatdan götürülmüşdür.

M.Biriya görkəmli şair, demokrat ziyalı idi. O, 1941-1945-ci illərdə Cənubi Azərbaycanda nəşr olunan "Azərbaycan", "Vətən yolunda", "Ədəbiyyat səhifəsi", "Yumruq", "Xavəre-no" ("Yeni Günəş") və diygər qəzetlərdə şeirləri və kiçik pyesləri ilə çıxış etmiş və böyük şöhrət qazanmışdır. O, "Vətənim" şeirində vətənpərvərliyi təbliğ edib belə yazırdı:

"Sənin uğrunda döyüşlərdə boyansam qanıma,
Ölərəm şan və şərafətlə, inan, "uf" demərəm" (Əliyev, 2020, s.102).

M.Biriya "Mən ağlaram, gülər o" adlı şeirində Cənubi Azərbaycan ilə Şimali Azərbaycanı müqayisə edirdi. O, "Mən ağlaram, gülər o" deyərək ikiyə bölünmüş xalqın bir yanda sevinc, digər yanda kədər içində yaşadığını belə bildirirdi:

"İkimiz də bir hörmətli ananın,
Qucağında mən ağlaram, gülər o" (Biriya, 1945, 23 oktyabr, s.2).

M.Biriya 1941-ci ildən Cənubi Azərbaycanda yaranan "Azadlıq" klubları, "Azərbaycan Cəmiyyəti" və "Azərbaycan Həmkarlar İttifaqı"nda rəhbər vəzifələrdə olmuş və milli azadlıq uğrunda mübarizə etmişdir. O, Milli Məclisə nümayəndə seçilmiş, Maarif naziri kimi Cənubi Azərbaycanda milli-mədəni inqilabda yaxından iştirak etmiş, məktəblərdə təlim-tərbiyə işlərini Azərbaycan dilində qurmaq üçün hazırlıq görülməsinə göstəriş vermişdi. Qısa müddətdə məktəblər üçün Azərbaycan dilində dərsliklər hazırlanıb çap edilmişdi. Vətən qarşısında xidmətlərinə görə o, "Səttarxan" ordeni ilə təltif edilmişdi (Çeşmazər. Məşəqqətli.., s.1). "Azərbaycan" qəzetində o, "xalqımızın əziz və sevimli şairi" adlandırılmışdı (Ağayi Məhəmməd Biriya, 1945, 29 noyabr, s.1).

Azərbaycan xalqının Pəhləvi zülmünə qarşı mübarizəsinin səbəblərini izah edən M.Biriya deyirdi ki, əgər bir ölkədə zülm və təzyiq həddən aşıb və bir millətin hüququ bir qrup quldur və mürtəcenin təpikləri altında tapdalanırsa, o zaman millət bu qanunsuzluğa və haqsızlığa dözməz və öz hüquqi haqqını almaq və istibdad zəncirini əbədlik qırmaq üçün qiyam və inqilab edər. O, istibdada və faşizmə qarşı mübarizə aparmış sovet xalqını nümunə kimi təqdim edirdi ("Azərbaycan" qəzeti.., 2022, s.527, 528).

"21 Azər" hərəkatının süqutu ərəfəsində "Geymişəm əynimə sərbaz kimi çoxdan kəfəni" (Biriya, 1325 (1946), 16 azər (7 dekabr), s.8) deyən M.Biriya xalqı bir nəfər kimi mübarizliyə çağırmışdı. Təbrizin süqutu ərəfəsində o, bir müddət S. C.Pişəvərinin əvəzinə Təbrizdə ADF-yə müvəqqəti rəhbərlik etmiş (Balayev. Cənubi Azərbaycanda.., s.316), lakin həbs və ya qətl ediləcəyini hiss edib Sovet Azərbaycanına köçməyə və mühacirət həyatı yaşamağa məcbur olmuşdur.

"Kommunist" qəzetində şair C.Xəndan tərəfindən M.Biriyanın yaradıcılığı təbliğ edilir, şairin bütün varlığı ilə xalqına bağlı olduğu, onu azadlıq uğrunda mübarizədə alovlu şeirləri ilə birliyə səslədiyi qeyd edilirdi (Xəndan, 1947, 24 dekabr, s.3; Əliyev, 2020, s.110). M.Biriya –

"Ruhumuz ruzi-əzəldə mütləqa azad ikən,
Bağlanıb zənciri-zülmə, daima fəryad edər",

deyərək, Pəhləvi zülmündən xilas yolu axtarırdı. O, "Qızıl Moskva" şeirində Cənubi Azərbaycanın qurtuluşunu sovet hökumətində gördüyünü dilə gətirmiş (Xəndan, 1947, 24 dekabr, s.3), "Ədalətin eşqinə!" şeirində sovet ordusunu mədh etmişdi:

"Ellər ona hörmət qılır dünyada,
Göstərdiyi şücaətin eşqinə!" (Biriya, 1945, 22 iyun, s.2).

Lakin M.Biriya ümidlə gəldiyi Sovet Azərbaycanında repressiyaya məcbur qaldı. S.C.Pişəvərinin şübhəli ölümündən sonra M.Biriya sovet hökumətinə etimadını itirir və sovet ideologiyasına qarşı çıxışlar edir. O, hələ "21 Azər" hərəkatı dövründə Maarif naziri ikən dini ibadətlə məşğul olduğu üçün təzyiqlərə məruz qalmış, işdən çıxarılmaqla təhdid edilmişdi (Balayev. Cənubi Azərbaycanda.., s.318). M.Biriyanın mühacirətdən sonrakı həyatında dini-millətçi mövqeyi, Təbrizə geri qayıtmaq istəməsi, Sovet hökumətinə ünvanladığı məktublarda kiril əlifbasından imtina edib əski əlifbaya dönməyi tələb etməsi, erməniləri türklərin düşməni adlandırıb onları Azərbaycandan çıxartmağı, sərhədləri açmağı, sürgünə məhkum olunmuş bütün müsəlmanları vətənlərinə qaytarmağı və s. tələb etməsi M.Biriyanın uzun illər həbs həyatı yaşamasına səbəb oldu (Azərbaycan Respublikası.., s.1; Balayev. Cənublu şair.., s.59-60). Sovet Azərbaycanında təqiblərə məruz qalan

şair mollalıq etməyə məcbur qaldı, ancaq Pəhləvilərin süqutundan sonra, ahıl yaşlarında Təbrizə qayıda bildi. Lakin orada da İran əleyhinə fəaliyyətdə, kommunist olmaq ittihamı ilə günahlandırılıb 1985-ci ildə işgəncə ilə öldürüldü (Çeşmazər. Məşəqqətli.., s.10). Şairin məzar daşında onun Nəsimi tərzində yazdığı aşağıdakı beytləri həkk olunub:

"Vurma əl türbətimə, türbəti-Adəm də mənəm,
Nə o dünya, nə bu dünya, iki aləm də mənəm.
Arama qəbrimi, axtarma mənim başdaşımı
Rəsmdə Həzrəti Nuh, isimdə Xatəm də mənəm" (Turan. Təbrizin..; Fərhadov, 2024, s.188).
M.Biriya "Azərbaycan himni" mahnısının müəllifi olmuşdur ("Azərbaycan" qəzeti.., 2022, s.559).

Görkəmli ictimai-siyasi xadim, vətənpərvər maarifçi və şair olan M.Biriyanın həyat və yaradıcılığının öyrənilməsi, tədqiqi və təbliği həm Cənubi Azərbaycanda şah rejiminə qarşı milli inqilabi hərəkatın, həm də Şimali Azərbaycanda stalinizmə qarşı xalqımızın mübarizə tarixi baxımından mühüm əhəmiyyətə malikdir və daim yaddaşlarda yaşadılmalıdır.

Sadıq Badegan (1899-1981)

"Azərbaycan" qəzetinin 1947-1949-cu il saylarında görkəmli ictimai-siyasi xadim, təbrizli Sadiq Badeganın məqalələri yer alsa da, onun fotoşəkli əks olunmamışdır. Təqdim olunan şəkil və bəzi məlumatlar qəzetin 2 dekabr 1945-ci il nömrəsindən götürülmüşdür. O, qəzetdə ADF-nin mübariz və fədakar mücahidi və təşkilatçı rəhbərlərindən biri, öz ömrünü azadlıq yolunda mübarizə işinə sərf edən şəxs olaraq təqdim edilmişdir (Təbriz kandidlərindən, 1945, 2 dekabr, s.1; "Azərbaycan"qəzeti..., 2022, s.657). ADF yaranmadan öncə S.Badegan Tudə Partiyasının rəhbərlərindən biri olub Ardaşes Ovanesyandan sonra partiyanın Təbriz (Azərbaycan) Komitəsinin sədri kimi fəaliyyət göstərmişdir (Fərhadov, 2024, s.46). O, öz milli mövqeyinə görə bu dövrdə "Azərbaycan İranın ayrılmaz parçasıdır" şüarı ilə hərəkət edən bəzi Tudəçilərin, xüsusilə erməni əsilli Ardaşes Ovanesyanın tənqidinə məruz qalmışdı (Pişəvəri, 2005, s.53). S.Badegan daha sonra S.C.Pişəvərinin ADF işləri üzrə müavini olmuş, Təbriz şəhərindən Milli Məclisə deputat seçilmişdir ("Azərbaycan".., 2022, s.730). O, vətən və ADF qarşısındakı xidmətlərinə görə S.C.Pişəvəri tərəfindən "Səttarxan" medalı ilə təltif edilmişdir (İbrahimi, 2018, s.32). O, S.C.Pişəvərinin ölümündən sonra 1947-1951-ci illərdə ADF-nin ikinci sədri olmuşdur (ADF-nin ikinci sədri...; Fərhadov, 2024, s.9).

"Azərbaycan" qəzetində S.Badeganın milli mübarizə tariximizin şərəfli səhifəsi olan məşrutə, Xiyabani və "21 Azər" hərəkatlarından bəhs edən və "21 Azər"in üç illik yubileyinə həsr olunmuş məruzəsi böyük maraq doğurur. S.Badegan bu məruzəsində deyirdi ki, Azərbaycan xalqının milli azadlığı uğrunda apardığı mübarizə tarixi çox qədim və çox parlaqdır. Biz 1285 (1906)-cı ildə, yəni 42 il əvvəl məşrutə inqilabından bu günə qədər Azərbaycan xalqının mübarizə tarixini vərəqləsək, hər səhifəsində böyük qəhrəmanlıqlara, fədakarlıqlara, igidliyə, şücaətə, heyrətamiz səbir və mətinliyə rast gələrik. O, göstərirdi ki, məşrutə inqilabında inqilabın əsas ağırlığı azərbaycanlıların üzərinə düşmüşdü. İranın istiqlalı, azadlığı və məşrutə naminə meydana gələn bu inqilabda azərbaycanlılar elə bir fədakarlıq olmadı ki, etməsinlər. Məhəmmədəli şah (dövrün Qacar hökmdarı-Ə.F.) Tehranda Məclisi-Şurayi-Millini (parlament-Ə.F.) bombardman edib dağıtdıqdan sonra İranın məşrutə sistemini məhv etdi. Lakin Azərbaycanın qeyrətli xalqı tam üç il, arası kəsilmədən mübarizə etdi. Bu mübarizədə Təbriz şəhəri 11 ay şah ordusunun mühasirəsində qalıb bütün yaşayış vasitələrindən məhrum olsa da, qəhrəman təbrizlilər öz mübarizələrini davam etdirdilər. Müasir silahlar ilə silahlanmış, İranın bütün bölgələrindən yığılmış yüz minə yaxın olan şah ordusu Azərbaycan xalqının fədakarlığı və onun iman adlanan silahı müqabilində davam gətirməyib darmadağın oldular. Azərbaycan xalqı qurban verdiyi on minlərcə rəşadətli oğullarının qanı bahasına məşrutəni İranda yenidən bərpa edərək bütün İran xalqlarını özünə minnətdar etdi. Lakin xəmiri azərbaycanlı qanıyla yoğrulan həmin məşrutə hökumətinə, Azərbaycan xalqına xəyanət etdilər. S.Badegan öz məruzəsində deyirdi ki, məşrutə uğrunda can verən Azərbaycan mücahidlərinin qanı qurumamış, Azərbaycanın qəhrəman oğlu, xalq sərkərdəsi, məşrutə hökumətinin əslində banisi olan Səttarxanı hiylə yoluyla Tehrana qonaq dəvət edərək orada öldürdülər (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.1, 3).

S.Badegan öz məruzəsində Səttarxandan sonra Şeyx Məhəmməd Xiyabaninin azadlıq bayrağını qaldırdığını deyir və göstərirdi ki, 1298 (1919)-cu ildə Azərbaycan xalqının qəhrəman oğlu Şeyx Məhəmməd Xiyabani ailəlikcə Azərbaycan xalqının düşməni olan Əhməd Qəvamın qardaşı Həsən Vüsuqəddövlə tərəfindən ingilis imperializmi ilə bağlanan müstəmləkəçi müqavilənin əleyhinə üsyan başlatdı. Üsyanın əsas hədəfi və onun şüarı Azərbaycan xalqının demokratik azadlığı və milli muxtariyyəti idi. M.Xiyabani öz nitq və bəyanlarında, "Təcəddüd" qəzetinin səhifələrində bu arzularını açıq şəkildə bəyan edirdi. Bu, Şeyxin qiyamının əsl hədəfi və məqsədi idi. Lakin xain, mürtəce və satqın şah hökuməti Azərbaycan valisi Mehdiqulu xan Hidayət Müxbirüssəltənənin əli ilə Xiyabani hərəkatını və M.Xiyabanini məhv etdi. Bu qiyamdan sonra Azərbaycan xalqı yenə qətl və qarətlərə məruz qaldı, yenə yüzlərlə azərbaycanlı həbs və sürgünlərə göndərildi. S.Badegan qeyd edirdi ki, Xiyabani hərəkatının süqutundan sonra daha ağır faciələr baş verdi. Rza şah hərbi çevriliş yolu ilə hakimiyyətə gəlib faşist bir rejim qurdu. O, Azərbaycan əyalətini xırda ostanlara böldü, bütün milli hüquqları, demokratik azadlıqları yox edib, hürriyyətçiləri məhv edib hətta məktəblərdə Azərbaycan dilində danışmağı qadağan etdi. Rza şahın ölkədən qovulması ilə bu faciələrə müvəqqəti olaraq son qoyulsa da, onun oğlu Məhəmmədrza şah tərəfindən yenə davam etdirildi. Nəhayət "21 Azər" hərəkatı ilə 1945-ci ildə Azərbaycan xalqı S.C.Pişəvərinin və ADF-nin rəhbərliyi ilə öz Milli Məclisini, Milli Hökumətini qurub demokratik, milli azadlığını əldə edə bildi. Ana dilində məktəblər, mətbəələr, universitet açıldı, yollar, xəstəxanalar tikildi, iqtisadiyyat, milli mədəniyyət inkişaf etdi, əxlaqsızlığa, rüşvətxorluğa, millətə zülm edilməsinə son qoyuldu (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.3, 4).

S.Badegan milli hərəkatın liderlərindən biri kimi deyirdi ki, bu hərəkatda azərbaycanlılar öz həyatlarını istədikləri

kimi qurmağa layiq olduqlarını sübut etdilər. Mürtəce şah hökuməti azərbaycanlıları xalq, millət yox, ancaq Azərbaycan əhalisi adlandırır. Amma biz sübut etdik ki, bir millətik. Dilimiz, ədəbiyyatımız, mədəniyyətimiz, adət-ənənələrimiz vardır. İndi Azərbaycan xalqı gərək gələcək nəslin göz bəbəyi olan azadlığı möhkəm saxlasın (Fərhadov, 2024, s.48). O, öz çıxışlarında ADF-nin yaradılmasının dövrün tarixi zərurəti olduğu, bu yolda S.C.Pişəvərinin öncül rolunu qeyd edir və göstərirdi ki, Azərbaycan xalqını mütəşəkkil bir surətdə mübarizəyə qaldırmaq üçün qüdrətli bir siyasi partiyaya ehtiyac var idi. Bu ehtiyacı düşünən Azərbaycan xalqı S.C.Pişəvərinin başçılığı ilə ADF-ni yaratdı. ADF Azərbaycan xalqının, xüsusən zəhmətkeşlərin arzularını yerinə yetirməyə çalışdığı üçün onun nüfuzu ən qısa müddətdə ölkənin hər yerinə yayıldı (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.4). S.Badegan göstərirdi ki, "21 Azər" günü Azərbaycan xalqı illərdən bəri bağlı olduğu əsarət zəncirini öz gücü və qüdrətiylə qırdı, öz Milli Məclisini, Milli Hökumətini təşkil edib öz müqəddəratını öz əlinə aldı (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.1).

S.Badegan ADF-nin milli bir firqə olmaqla yanaşı zəhmətkeşlərin partiyası olduğunu da vurğulayır və deyirdi ki, ADF hökuməti yüz minlərlə kəndlilərə əvəzsiz olaraq torpaq verdi, indiyə kimi torpağı olmadığı üçün ziraət aləti olmayan minlərlə yoxsul kəndlini öküz, toxum və sair lazım olan vasitə ilə təmin etdi (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.4). Lakin ADF hökumətinin süqutundan sonra hökumət məmurları, iri mülkədar və kəndxudalar yenidən zəhmətkeş kəndliləri soyub istismar etməyə başladılar. S.Badegan Cənubi Azərbaycanı zəbt etməyə çalışan şah rejimindən xalqın qorxmadığını deyir, Hz. Əlidən – "Həyat qılıncların kölgəsindədir" sitatını gətirərək, azadlıq yolunda ölümə hazır olduqlarını göstərirdi (ADF-nin ikinci sədri...). Onun "Azərbaycan" qəzetindəki yazılarında ADF xadimi Qulu Sübhi Nuri kimi "21 Azər" fədailərinin acı taleyi haqqında məlumat verilir və göstərilirdi ki,

onlar öldürülsələr də xalqımızın şanlı tarixində əbədi yaşayacaqlar (Badegan, 1948, 11 dekabr, s.3).

Cəmi iki il davam edən bu azadlıq hərəkatına şah rejimi tərəfindən son qoyuldu, əldə edilən nailiyyətlər məhv edildi. S.Badegan inanırdı ki, Azərbaycan xalqı, ümumiyyətlə bütün məzlum xalqlar öz amal və arzularına - azadlığa doğru irəliləyirlər, bu müqəddəs mübarizələrində yeni qələbələr əldə edəcəklər, öz azad və demokratik hökumətlərini quracaqlar, bu, şübhəsizdir (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.1, 3).

S.Badegan şah rejiminə qarşı mübarizədə xalqlar dostluğu ideyasına üstünlük verir, milliliklə yanaşı beynəlmiləlçiliyə, marksizm-leninizm ideyalarına da inanırdı. İran xalqlarının və onlara dəstək olan sovet xalqının həmrəyliyini təbliğ edən S.Badegan deyirdi ki, "Yaşasın Azərbaycan, kürd və fars xalqlarının azadlıq mübarizəsi; yaşasın böyük sovet xalqı və ona rəhbərlik edən Sovet İttifaqı Kommunist Partiyası!" (Firqəmizin Mərkəzi.., 1948, 18 dekabr, s.3). Bu ifadələr S.C.Pişəvəridən sonra ADF-də marksist-leninist mövqeyin daha da gücləndiyini göstərir (Fərhadov, 2024, s.87).

S.Badegan Tudə və ADF-də rəhbər vəzifələrdə olan görkəmli inqilabçı, ictimai-siyasi xadim olmaqla yanaşı elmi fəaliyyətlə də məşğul olmuş, tarixçi alim kimi Azərbaycan tarixinin tədqiq və təbliğində öz mühüm töhfəsini vermişdir.

Nüsrətullah Cahanşahlı (1913-2012)

Dövrün görkəmli ictimai-siyasi xadimlərindən biri də Nüsrətullah Cahanşahlıdır. "Azərbaycan" qəzetində onun bir sıra məqalələri təqdim edilsə də, fotoşəkli verilməmişdir. Təqdim olunan fotoşəkil internet resurslarından götürülmüşdür (https://nedayeshahrvandonline.ir…). ADF-nin görkəmli siyasi xadimlərindən olan N.Cahanşahlı əslən zəncanlı olub Tehranda ali tibb təhsili almışdır. O, məşhur kommunist filosof, pedaqoq T.Əraninin vasitəsilə marksizm ideyalarının təsirinə düşmüş, bu səbəbdən "53-lər" adlanan kommunistlər qrupunun üzvü kimi həbs həyatı yaşamışdır. Rza şahın hakimiyyətdən qovulmasından sonra həbsdən azad olub cərrah kimi çalışmış, Tudə Partiyasının Zəncan komitəsinə rəhbərlik etmişdir. ADF-nin qurulmasından sonra firqənin rəhbər şəxslərindən olmuş, Milli Hökumətin qələbə çalması üçün Zəncan fədailərinə, firqənin bölgə komitəsinə rəhbərlik etmişdir (Çingizoğlu, 2008, s.279). O, ADF hökuməti dövründə millət vəkili və Baş Nazir S.C.Pişəvərinin müavini seçilmiş (Çeşmazər. Azərbaycan.., s.71), Təbrizdə açılan Azərbaycan Universitetinin rektoru olmuşdur. N.Cahanşahlı "21 Azər" hərəkatının süqutundan sonra Sovet Azərbaycanına mühacirət etmiş, ADF-nin Mərkəzi Komitəsində təbliğatçı olmuş, Moskvada Ali Partiya Məktəbində təhsil almışdır (Fərhadov, 2024, s.129).

N.Cahanşahlı öz çıxış və yazılarında iranlı zəhmətkeşlərin, ziyalıların, xüsusilə hürriyyətçi azərbaycanlıların cənubda Pəhləvi zülmünə məruz qaldığını, ölkəni aclıq və yoxsulluğun bürüdüyünü göstərir, güneyliləri Tudə Partiyası ilə birlikdə diktatura əleyhinə mübarizəyə, Cənubi Azərbaycanın demokratik azadlığı uğrunda mücadiləyə çağırırdı (Azərbaycan Demokrat Cavanlar.., 1948, 24 noyabr, s.4). "Azərbaycan" qəzetində onun ADF-nin rəhbər xadimlərindən biri kimi məruzələri, çıxışları, T.Ərani mövzusunda yazıları yer alır (Cahanşahlı, 1948, 7 fevral, s.3; Azərbaycan Demokrat Cavanlar.., 1948, 24 noyabr, s.1, 3-4). 1970-ci illərdə Berlinə köçən N.Cahanşahlı "Biz və yadlar" adlı xatirə kitabını yazmış, gəncliyində sovet ideologiyasına aldandığını, keçmişdəki siyasi fəaliyyətindən peşman olduğunu demişdir. O, Cənubi Azərbaycanın İrandan ayrılmasına qarşı olduğunu, İranın demokratikləşməsi halında ölkədəki milli problemlərin, ana dilində təhsil məsələsinin həll ediləcəyinə inandığını bildirmişdir (Fərhadov, 2024, s.129-130).

N.Cahanşahlının "Azərbaycan" qəzetində yer alan məqalələri, məruzələri, kitabları ADF-nin rəhbərliyi ilə Cənubi Azərbaycanda və ümumiyyətlə bütün İranda demokratik hərəkatın tədqiqi və təbliği baxımından mühüm əhəmiyyət daşıyır və bu istiqamətdəki araşdırmalar davam etdirilməlidir.

Əli Şəmidə (1915-1967)

Dövrün görkəmli ictimai-siyasi xadimlərindən biri də Əli Şəmidədir. "Azərbaycan" qəzetində onun bir sıra məqalələri təqdim edilsə də, fotoşəkli verilməmişdir. Təqdim olunan fotoşəkil internet resurslarından götürülmüşdür (https://nedayeshahrvandonline.ir…). "Azərbaycan" qəzetinin 1947-1949-cu ildəki nömrələrinin redaktoru olan Əli Şəmidə Ənzəli şəhərində anadan olmuşdur. O, İran Kommunist Partiyasının, daha sonra Tudə Partiyasının üzvü və İcraiyyə Komitəsinin katibi olmuşdur. O, inqilabi fəaliyyətinə görə dəfələrlə məhbus həyatı yaşamışdır. Ə.Şəmidə "21 Azər" hərəkatı dövründə Miyanə və Zəncandakı fədai dəstələrinin başçılarından biri kimi şah rejiminə qarşı mübarizə aparmış ("21 Azər – 70".., 2015, s.11, 23, 52), polkovnik hərbi rütbəsini almış, ADF-nin Miyanə Vilayəti Komitəsinin I katibi və partiyanın Mərkəzi Komitəsinin şöbə müdirinin müavini vəzifələrində çalışmışdır. O, Sovet Azərbaycanına mühacirətdən sonra Bakıda, ADF-nin orqanı olan "Azərbaycan" qəzetinin redaktoru olmuşdur (Fərhadov, 2023, s.139; Farhadov, 2023, p.38; İsmayılov. 21 Azər hərəkatının sərhəng...).

Ə.Şəmidə qəzetin redaktoru olmaqla yanaşı, bir sıra dəyərli məqalələrin də müəllifidir. Onun "İranda mətbuat azadlığı yoxdur" adlı məqaləsində ölkədə həqiqi azad mətbuatın olmadığını, olanların əksəriyyətinin isə hökumətə satıldığını

göstərmişdir. Ə.Şəmidə yazırdı ki, bu gün İranda 150-yə qədər qəzet çap olunur. Hazırda İranda şah hökuməti ABŞ dollarına satıldığı kimi bir çox qəzet redaktorları da pula satılıb. Onlar hər gün ağıllarına gələn cəfəngiyyatı yazıb bunu mətbuat azadlığı kimi qələmə verirlər. Halbuki həqiqət və ədalətin olmadığı, lakin pul və şiddətin hökm sürdüyü bir ölkədə həqiqi mənada azadlıq, xüsusilə mətbuat azadlığı ola bilməz" (Şəmidə, 1948, 28 aprel, s.4). Ə.Şəmidə vaxtı ilə alman faşistlərinə məddahlıq edən "Ettelaat" ("Xəbərlər"), "Guşəş" ("Cəhd"), "Mehri-İran" ("İran günəşi"), "Sitarə" ("Ulduz"), "Səba" ("Meh") kimi qəzetlərin müstəbid Pəhləvi hökumətinə, amerikan, ingilis imperializminə xidmət etdiyini göstərirdi (Şəmidə, 1948, 28 aprel, s.4).

Ə.Şəmidənin yazılarında o dövr İranında əsas ictimai problemlərindən biri olan tiryək aludəçiliyi geniş tənqid edilib. Müəllif tiryəkin xalqı məhvə apardığını, onun hökumət və imperialistlər tərəfindən xalqı istismar etmək üçün silah kimi istifadə edildiyini, geniş yayıldığını göstərirdi. Ə.Şəmidə tiryək aludəçiliyinin dövlət məmurları arasında daha çox yayıldığını qeyd edib yazırdı ki, Rza şah zamanında İranda tiryək aludəçiliyi geniş yayılmışdı. Rza şah hökuməti tiryək əkməyi təşviq edirdi və şah özü də tiryək çəkirdi (Şəmidə, 1948, 28 aprel, s.4). O dövrdə BMT-nin Səhiyyə Komissiyasının məlumatlarında İranda tiryək aludəçiliyinin sərbəst və geniş yayıldığı göstərilir. "Azərbaycan" qəzeti yazırdı ki, İran dövlətinin bu əməli tiryəkin başqa ölkələrə qaçaqmalçılıq yolu ilə daşınmasına, qonşu və sair dövlətlərdə tiryəkin yayılmasına səbəb olmuşdur (Ciddi, 1949, 29 yanvar, s.1).

Ə.Şəmidə İranda din və məzhəbdən siyasi alət kimi istifadə edənləri və onlara bilib-bilmədən tabe olanları qınayırdı. O, "Məzhəbi təbliğatdır, ya siyasi fəaliyyət!" adlı məqaləsində xalqların azadlıq mübarizəsinə dindən silah kimi istifadə edib mane olanları tənqid edirdi. Ə.Şəmidə göstərirdi ki, imperialistlər və onların xidmətçiləri xalqların milli və dini təəssüblərindən istifadə edib ədavət və düşmənçilik yaradır, xalqların

müstəqil və dinc həyat qurmalarına maneəçilik törədirlər. Habelə məzhəbçilik təbliğatı aparıb mürtəce fikirləri ilə xalqların məfkurəsini zəhərləyir, kütlələri azadlıq mübarizəsindən çəkindirmək istəyirlər (Şəmidə, 1949, 22 yanvar, s.4). Ə.Şəmidə xarici imperialist dövlətlərin istismar etdikləri xalqları zəiflətmək üçün işğalçı ordudan və ya mütəxəssislərdən, o cümlədən, mürtəce din xadimlərindən istifadə etdiyini yazır, İranda fəaliyyət göstərən xarici missionerlərin imperialistlərin agenti olduğunu göstərirdi (Şəmidə, 1949, 22 yanvar, s.4).

Ə.Şəmidə Məhəmmədrza şahın Vatikanda Roma Papası ilə görüşdüyünü, medal aldığını, 1948-ci ildə Vatikan konfransında İranda xristianlığın təbliği üçün qərarlar alındığını, Papanın nümayəndələrinin Tehrana gələrək şahla görüşdüyünü, nəticədə Urmiyada, Təbrizdə, Həmədanda, Tehranda və İranın müxtəlif bölgələrində xristian missionerlərinin sayının artdığı yazırdı. Müəllif qeyd edirdi ki, onların qurduğu kilsə və məktəblərdə missionerlərin sayı müəllim və həkimlərin sayından artıqdır, xalqın şüurunu zəhərləməklə məşğuldurlar. Bu məktəb və kilsələrdə yetişənlər ABŞ və ingilis imperialistlərinin xidmətçisinə çevrilib, onların xeyrinə təbliğat və casusluq edirlər. Onlar İranın istiqlalı əleyhinə çalışıb öz dini kitab və çıxışlarında imperialistləri mədh edirlər (Şəmidə, 1949, 22 yanvar, s.4). Ə.Şəmidə xristian missionerlərinin əsasən Cənubi Azərbaycanda SSRİ əleyhinə fəaliyyət göstərdiyini, eyni zamanda İranı imperialistlərin müstəmləkəsinə çevirməyə çalışdıqlarını göstərirdi. Ə.Şəmidənin yazılarında Tudə Partiyasının fəaliyyəti əks olunub, bu partiyanın o dövrdə yeganə qanuni xalq partiyası olduğu bildirilir. Müəllif "Pəriş" təxəllüsü ilə "Hizbi-Tudeyi-İran nə kimi şəraitdə mübarizə aparır?" adlı məqaləsində yazırdı ki, Tudə Partiyasının daxili irtica və xarici imperialistlər əleyhinə apardığı mübarizə çox ağır şəraitdə keçir. Tudə yeganə hürriyyətçi partiyadır ki, irtica əleyhinə açıq mübarizə aparır. Bu mübarizədə o, böyük çətinliklərə rast gəlir, iki cəbhədə, yəni həm daxildə şah rejimi ilə, həm də xarici imperialistlər əleyhinə

mübarizə aparmağa məcbur olur (Pəriş, 1948, 25 dekabr, s.1). Ə.Şəmidə ABŞ-ın istəyi ilə Pəhləvi hakimiyyətinin Tudə Partiyasını məhv etməyə çalışdığını göstərir və məqalədə partiyanın Baş katibi Rza Radmaneşin fikirlərinə yer verilir. Məqalədə İran hökumət dairələrinin qeyri-qanuni hərəkətlərinə dair R.Radmaneşin verdiyi nümunələr təqdim edilib və göstərilir ki, işçilər qanunsuz surətdə işdən çıxarılır və ya sürgün edilirlər. Müəssisə və idarələrdə tərəqqipərvər şəxslər təqib olunur, tələbələr siyasi hüquqlardan məhrum edilir, mətbuat azadlığı boğulur (Pəriş, 1948, 25 dekabr, s.3).

Ə.Şəmidənin həyatı və yaradıcılığı Qərb imperializminin dəstəklədiyi şah rejimi ilə mübarizəyə və Azərbaycan xalqının azadlığına, milli və demokratik baxımdan maariflənməsinə həsr olunmuşdur. Ə.Şəmidənin əsərləri mühüm ictimai-siyasi əhəmiyyətə malikdir. "Azərbaycan" qəzetinin fəal yazarlarından olan Ə.Şəmidə Sovet Azərbaycanına mühacirət etdikdən sonra da bir çox elmi əsərlər yazmışdır. Onun "Lenin və İran", "Azadlıq qəhrəmanı Heydər Əmioğlu", "İranda fəhlə və həmkarlar hərəkatı: 1941-1946" adlı əsərləri Bakıda nəşr olunmuşdur (Fərhadov, 2024, s.16, 110-113). O, bu əsərlərində Cənubi Azərbaycanda və İranda demokratik hərəkatı, zəhmətkeşlərin mübarizəsini geniş işıqlandırmışdır. Ə.Şəmidənin əsərlərinin tədqiqi şah rejiminə, Pəhləvi şovinizminə və mürtəce din xadimlərinə qarşı mübarizə aparan demokratların, fədailərin, işçi sinfinin mübarizəsinin və ADF-nin şanlı tarixinin öyrənilməsi baxımından əhəmiyyətlidir və daim təbliğ edilməlidir.

Mir Əyyub Şəkiba (1903-1946)

1282 (1903)-cü ildə Astarada anadan olan Mir Əyyub Şəkiba həmin şəhərdə Sadiqiyyə mədrəsəsindən məzun olmuş, orada müəllimliklə məşğul olmuşdur. M.Ə.Şəkiba İranda hökm sürən fəlakətlərin səbəbini şah rejiminin ictimai-siyasi ədalətsizliklərində görür və ona qarşı mübarizə aparırdı. O, məşhur inqilabçı Heydər Əmioğlu və digər inqilbçı yoldaşları ilə birlikdə Mirzə Kiçik xanın şah rejimi əleyhinə Gilan hərəkatında iştirak etmişdi (İsmayılov. Azadlıq fədaisi..).

Gilan hərəkatı məğlub olduqdan sonra H.Əmioğlu daxili əksinqilabçılar tərəfindən öldürüldü. M.Ə.Şəkiba və yoldaşları Rza şah diktaturasına qarşı gizli mübarizəyə başladılar. Lakin M.Ə.Şəkiba tutulub əvvəlcə İranın cənubuna sürgün edildi, sonra Tehranda Qəsri-Qacar zindanına salındı və on bir il orada həbs həyatı yaşadı. Daha sonra İsfahanın Gülpayigan mahalına sürgün edildi.

M.Ə.Şəkiba həbs və sürgündə olarkən öz mübarizəsini davam etdirdi və məhbus yoldaşları ilə birlikdə şah rejiminə etiraz əlaməti olaraq aclıq elan etdi. Öz ömrünü inqilabi işə həsr edən M.Ə.Şəkibanın həyatı məhbus yoldaşları üçün bir qəhrəmanlıq nümunəsi idi.

1941-ci ildə sovet və ingilis ordularının İrana müdaxiləsi nəticəsində hitlerpərəst Rza şah diktaturasına son qoyuldu və İran xalqı azad nəfəs aldı. M.Ə.Şəkiba da digər siyasi məhbuslar

kimi azad edildi. M.Ə.Şəkiba əvvəlcə Tudə Partiyasına, sonra isə ADF-yə üzv oldu. O, ADF-nin I konqresinə və partiyanın Mərkəzi Komitəsinə üzv seçilmişdi. ADF hökuməti dövründə M.Ə.Şəkiba mübariz maarifçi kimi Urmiya Maarif İdarəsinə sədr təyin edilmişdi. O, bu zaman yeni təhsil kurslarının açılmasında, əhalinin savadlanmasında mühüm rol oynadı (“21 Azər – 70”.., 2015, s.179).

Şah ordusu Urmiyanı zəbt etdiyi zaman M.Ə.Şəkiba tutulub şəhid edildi. O, digər qəhrəman ADF-lilər kimi ömrünü xalq və azadlıq yolunda fəda etdi və onun adı xalqımızın mübarizə tarixinə qızıl hərflərlə əbədi olaraq həkk olundu.

“Azərbaycan” qəzeti yazırdı ki, M.Ə.Şəkiba indi bizim sıralarımızda olmasa da, onun azadlıq yolunda çəkdiyi zəhmətlər, etdiyi xidmətlər unudulmayacaq və onun adı hürriyyətçi xalqımızın qəlbində əbədi olaraq yaşayacaqdır (Rəhmani, 1948, 25 sentyabr, s.4). M.Ə.Şəkibanın simasında biz Azərbaycanın ən yaxşı oğullarının, mübariz ziyalılarının dəyərli xüsusiyyətlərini görürük.

Dadaş Tağızadə (1902-1947)

Dadaş Tağızadə 1281 (1902)-ci ildə Marağa ətrafında kəndli ailəsində anadan olmuş, Azərbaycan xalqının azadlığı və vətənin xilası uğrunda müstəbid hökumətə və mürtəce şəxslərə qarşı daim mübarizə aparmışdır. O, kənddə yaşadığı dövrlərdə ağaların, mülkədarların yoxsul kəndlilərə etdiyi zülmü gözü ilə görmüş və bu haqsızlığa qarşı ürəyində qəzəb yaranmışdı. D.Tağızadə xalqı bu fəlakət girdabından xilas etmək üçün hürriyyətçilərə qoşulmuşdu.

O, İranda gizli fəaliyyət göstərən işçilər ittifaqına qoşularaq Mazandaranda, Tehranda, Ənzəlidə fəhlələrin ictimai-siyasi birlik şüurunu artırmağa, onları siyasi mübarizəyə qaldırmağa çalışırdı. D.Tağızadə bu fəaliyyətinə görə 1311 (1932)-ci ildə həbs edilmiş və 7 il Tehranda, Qəsri-Qacar zindanında həbsdə qalmışdı. O, qorxmaz bir inqilabçı olduğuna görə zindanda da öz mübarizəsini davam etdirmiş, şah diktaturasına, zindandakı ağır şəraitə, polis zülmünə qarşı yoldaşları ilə birlikdə aclıq elan etmişdi. Lakin qəddar şah məmurları onların bu haqlı etirazına qandal və şallaqla, qaranlıq kameralarda saxlamaqla cavab verirdilər. D.Tağızadəni nə zindan, nə də şallaq cəzası qorxutmadı, mübarizəsindən geri çəkilmədi. Həbsdən sonra da onu 1318 (1939)-cu ildə Kürdüstan əyalətinin Bicar mahalına sürgün etdilər.

1320 (1941)-ci ildə sovet-ingilis orduları İrana daxil olduğu zaman həbsdən azad olan digər siyasi məhbuslar kimi D.Tağızadə də sürgündən xilas oldu və Tehrana gəldi. O, Tehranda öz mübariz yoldaşları ilə birgə, başda Süleyman Möhsün İsgəndəri olmaqla Tudə Partiyasının yaradılmasında iştirak etdi. Sonra isə Təbrizə gələrək Tudə Partiyasının Azərbaycan əyalət Komitəsinin və partiyanın Marağa vilayət Komitəsinin yaradılmasında rol oynadı.

Jandarmların və ağaların törətdiyi cinayətlərə qarşı mübarizə etmələri üçün o, kəndliləri Tudə partiyasının ətrafında toplayır, partiyanın tapşırıqlarını yerinə yetirirdi. D.Tağızadə Tudə Partiyasının Tehranda keçirilən I konfransına və partiyanın Azərbaycan əyalət konfransına nümayəndə seçilmişdi. Tudənin Azərbaycan Komitəsi ADF-yə birləşdiyi zaman D.Tağızaənin rəhbərlik etdiyi Marağa vilayət Komitəsi də firqəyə qoşuldu. O, bir müddət ADF-nin Təbriz Komitəsində şöbə sədri olaraq çalışdı.

D.Tağızadə zəhmətkeşlərin dostu olub gecə və gündüz onların rifahı üçün çalışırdı. Xalq tərəfindən etimad göstərilən D.Tağızadə ADF hökuməti dövründə Azərbaycan Milli Məclisinə millət vəkili seçilmişdi.

"Azərbaycan" qəzeti yazırdı ki, D.Tağızadə ömürünün son anına qədər firqəyə sadiq qaldı. Şah ordusu Cənubi Azərbaycana hücum etdiyi zaman öldürülən digər ADF-lilər kimi D. Tağızadəni də Marağada tutub şəhid etdilər (Vilayi, 1948, 26 may, s.4). O, şəhid edilərkən belə demişdir: "Mən Azərbaycan xalqının azadlığı uğrunda can verirəm. Cinayətkarlar xalq məhkəməsində cavab verəcəklər!" (Azadlıq yolunun.., 1962, s.XXVI). Vətənimizin və xalqımızın azadlığı uğrunda şəhid olmuş mübariz yoldaşlarımızın sırasında D.Tağızadənin adı hər zaman əbədi yaşayacaqdır.

Əbdülhüseyn Əhmədi (?-1946/7)

Əbdülhüseyn Şeyx Əhməd oğlu Əhmədi Maku şəhərində ruhani ailəsində anadan olmuşdur. Ə.Əhmədinin atası və əmisi məşrutə inqilabında iştirak etdiklərinə görə edam edilmişdilər. Əbdülhüseynin atası Şeyx Əhməd son nəfəsinə qədər azadlıq uğrunda, istibdad əleyhinə mübarizə aparmışdı. O, həbs edilərkən belə demişdi: Şeyx Əhməd ölər, amma azadlıq ölməz! Əbdülhüseynin taleyi də hürriyyətçi atasının taleyi kimi oldu.

Ə.Əhmədi Rza şah diktaturasına qarşı illər boyu mübarizə apardı. O, atası kimi qorxmaz və cəsur olub xalq yolunda qanını əsirgəmədi. İrticaya qarşı barışmaz olan Əbdülhüseyn 1311 (1932)-ci ildə Təbrizdə həbs edildi. Daha sonra Tehrana aparılan Əbdülhüseyn Qəsri-Qacar zindanında 9 il ağır həbs həyatı yaşadı, lakin şah rejiminə təslim olmadı. 1941-ci ildə Rza şah hakimiyyətdən qovulduqdan sonra Ə.Əhmədi də digər siyasi məhbuslar kimi azad oldu. O, üzvü olduğu Tudə Partiyasının tapşırığı ilə Təbrizə gələrək Həmkarlar İttifaqında işçilərin şah rejiminə qarşı mübarizəsini səfərbər etdi. Ə.Əhmədi 1944-cü ildə Tudə Partiyasının Maku Komitəsinin sədri seçildi. O, Tudə Partiyasının Azərbaycan əyaləti konfransının, ADF-nin I konqresinin və ADF hökuməti dövründə Azərbaycan Milli Məclisinin Makudan üzvü seçilmişdi. Ə.Əhmədi ADF Xoy Komitəsinin sədri olmuş, Xoyda milli maarifçiliyin inkişafında böyük rol oynamışdır.

Şah ordusu Cənubi Azərbaycana hücum etdiyində Ə.Əhmədi də həbs edildi və Xoy Polis İdarəsində tikə-tikə doğrandı. "Azərbaycan" qəzetində göstərilirdi ki, o, ölüm anında belə demişdi: Mənim atam da məşrutəçi idi. Onu da sizin kimi xainlər öldürdü, lakin təslim olmadı. Mən də son nəfəsimdə atamın sözlərini təkrar edirəm. Şeyx Əhməd ölər, Əbdülhüseyn ölər, lakin azadlıq ölməz! Xalqımızın hürriyyətçi övladları bizlərin qəbrini ziyarət edəcək və sizləri nifrətlə yad edəcəklər, intiqamımızı alacaqlar! (Pənahi, 1948, 18 sentyabr, s.4).

Azərbaycan xalqının azadlığı uğrunda son nəfəsinə qədər mübarizə aparan və düşmənə təslim olmayan Ə.Əhmədinin əziz xatirəsini xalqımız heç vaxt unutmayacaqdır.

Nurullah Yekani (1887-1946/7)

Azərbaycan hürriyyətçiləri içərisində öz cəsarət və mərdliyi ilə məşhur olan qocaman inqilabçı Nurullah Yekani 1266 (1887)-ci ildə Mərəndin Yekant mahalında anadan olmuşdur. N.Yekani İranda məşrutə inqilabı başladığı zaman Heydər Əmioğlu və digər hürriyyətçilərlə birlikdə mücahidlər sırasında öz iftixarlı yerini tutmuşdu. N. Yekani məşrutə dövrünün ən mübariz şəxslərindən biri olub Səttarxanın sadiq silahdaşlarından biri idi. O, mübariz bir şəxs kimi Təbrizdə Şeyx Məhəmməd Xiyabaninin və Lahutinin qiyamlarında sonuna qədər iştirak etdi və həbs edildi. Bir müddət həbsdə qaldıqdan sonra öz kəndindən çıxmamaq şərtilə həbsdən azad edildi.

N.Yekani kənddə qaldığı zamanlarda xalqın azadlığı və maariflənməsi yolunda çalışdı. O, kənddə məktəb açılmasında, Zünuz çayının ətrafında sədd, bənd salınmasında iştirak etdi, kəndlilərin həyat və məişətini yaxşılaşdırmağa kömək etdi. N.Yekani bir inqilabçı kimi xalq arasında azadlığı təbliğ edir, hökumətin təzyiq və təqiblərindən qorxmurdu.

II Dünya müharibəsi dövründə Tudə Partiyası İranda fəaliyyətə başladıqda o, Mərənd, Xoy və Salmasda Tudənin yerli təşkilatlarının formalaşmasında fəal iştirak etdi. O, bu sahədə xalqın düşməni olan şah hökumətinin polis, jandarma və s. silahlı qüvvələri ilə, mülkədarlarla mübarizədə bir çox

fədakarlıqlar göstərdi. Tudə Partiyasının Azərbaycan əyaləti konfransının açılışını da N.Yekani etmişdi (Sərkari, 1948, 22 may, s.3).

N.Yekani "21 Azər" hərəkatının təşkilatçılarından biri idi (Azadlıq yolunun.., 1962, s.3). ADF fəaliyyətə başladığı zaman o, firqənin Xoy vilayət Komitəsinin sədri seçilmişdi. O, Xoy şəhərinin su ilə təmin edilməsi üçün Xoşbulaq çayından su çəkdirmiş, şəhərdə lampa zavodu, məktəb və yetim uşaqlar üçün tərbiyə evi açdırmışdı.

ADF hökuməti dövründə N.Yekani Azərbaycan Milli Məclisinə millət vəkili, daha sonra isə Daxili işlər nazirinin müavini, Urmiyanın polis rəisi seçilmişdi. Şah ordusunun Urmiyanı zəbt etməsindən sonra N.Yekani tutulub şəhid edildi.

"Azərbaycan" qəzeti yazırdı ki, N.Yekaninin mübarizə yolu Azərbaycan gəncləri üçün daim bir məktəb olaraq qalacaqdır! (Sərkari, 1948, 22 may, s.3). Bu qocaman mübariz, şahpərəstlərin barışmaz düşməni son anına qədər xalqına sadiq qaldı. O, bir inqilabçı kimi heç vaxt unudulmayacaq, xalqının qəlbində əbədi yaşayacaqdır.

Mirkazım Ələm (1899-1946)

Mirkazım Ələm 1278 (1899)-cu ildə Mərəndin Yuxarı Dizəc kəndində əkinçi ailəsində anadan olmuşdur. Atası Mirələsgər əkinçiliklə öz ailəsini təmin edirdi. Kənd həyatı ilə yaxından tanış olan Mirkazım şah hökumətinin məmurlarının, feodalların zülm və təzyiqlərinə məruz qalan kəndlilərin ağır vəziyyətinə şahid olmuşdu.

Bu dözülməz vəziyyətə özü də məruz qalan Mirkazımın siyasi şüuru və mübarizə əzmi artmışdı. O, azadlıq dərsini Mərənd mahalının kənd həyatından almışdı. Rza şah məmurlarının təzyiqi, həbs həyatı, sürgünlər onu mübarizədən çəkindirmədi. Mərəndin müstəbid hakimi, polis rəisi və digər irtica nümayəndələri ona daim təzyiq edib hətta evini dağıtmışdılar. Lakin M.Ələmi mübarizə yolundan çəkindirə bilmədilər.

Nəhayət Rza şahın diktatorluğuna son qoyuldu. Hürriyyətçilər Tudə Partiyasının ətrafında toplaşdılar. M.Ələm Tudənin Mərənd və Culfa vilayət Komitələrinin təşkilində yaxından iştirak etdi. Zəhmətkeşlərin və ziyalıların etimadını qazanan M.Ələm Tudənin Mərənddəki yerli komitəsinin sədr müavini seçilmişdi.

Səmimi, savadlı və yüksək əxlaqlı bir şəxs olan M.Ələm öz təsirli nitqləri ilə Mərənd əhalisinin hörmətini qazanmış, Mərənd, Culfa və Ələmdar fədailərinin rəhbəri olmuşdu.

Şahın jandarm dəstələrinin Cənubi Azərbaycandan qovulmasında və ADF-nin qələbəsində M.Ələmin və onun fədai dəstəsinin mühüm hərbi xidməti olmuşdu. Öz fədailəri ilə birlikdə ön cəbhədə döyüşən M.Ələmə döyüş yoldaşları böyük hörmət göstərirdilər.

M.Ələm xalq və ADF qarşısındakı xidmətlərinə görə Miyandoabın hakimi təyin edilmişdi. O, şəhərin abadlaşdırılması, fədailərin vəziyyətinin və kürd əhali ilə əlaqələrin yaxşılaşdırılması, ADF-nin siyasət və qərarlarının icrası üçün daim çalışırdı.

Milli hərəkatdan qorxuya düşən şah hökuməti ABŞ imperializminin dəstəyilə Cənubi Azərbaycanı zəbt etdikdən sonra M.Ələm də digər bir çox ADF-lilər kimi Mərənddə qətl edildi. "Azərbaycan" qəzeti yazırdı ki, o, son nəfəsində də düşmənə baş əyməyərək "Yaşasın azadlıq!" dedi və öz həyatını azadlıq yolunda qurban verdi. Azərbaycanın fədakar oğlunu şəhid etdilər. (İsmixani, 1948, 28 iyul, s.4). Xalqımız bu qəhrəman oğlunu unutmayacaq və onun mübarizə yolu daim gənclərə nümunə olacaqdır!

Xəlil Azərbadegan (?-1947)

Urmiyalı Xəlil Azərbadegan Azərbaycanın ən namuslu, şərəfli, hürriyyətçi və mərd oğullarından biri idi. O, böyük tarix, qədim dil, geniş torpaq və mədəniyyətə malik olan Cənubi Azərbaycanın xilasının ancaq xalqın mübarizəsi nəticəsində mümkün ola biləcəyini düşünürdü. Onun fikrincə Cənubi Azərbaycanı xarici imperialistlərin xidmətçisi olan mürtəce şah hökumətinin əsarətindən qurtarmaq vəzifəsi Babəklərin, Cavanşirlərin, Səttarxanların həqiqi varisləri olan fədakar övladlarının üzərinə düşür.

X.Azərbadegan bütün millətlərin milli azadlıq hüququna hörmət etməklə bərabər Azərbaycan xalqının da nə vaxtsa tam azad olacağına inanırdı. Buna görə də o, Rza şahın diktatorluğuna qarşı yoldaşları ilə birlikdə gizli mübarizə aparırdı. Rza şah hakimiyyətdən qovulduqdan sonra X.Azərbadegan Cənubi Azərbaycanda baş vermiş azadlıq hərəkatına qoşuldu. O, əvvəlcə "Qanuni Demokratik Azərbaycan" təşkilatında çalışdı. X.Azərbadegan Tudə Partiyasının Birinci əyalət konfransında əyalət komitəsinin üzvü və Təbriz şəhər komitəsinin birinci katibi seçildi. X.Azərbadegan millətin həqiqi rəhbəri və doğma firqəsi olan ADF-yə ilk daxil olan şəxslərdən biri oldu. X.Azərbadeganın firqə içərisində olan fəaliyyəti, firqə intizamına riayət etməsi, əvvəlcə Tudə Partiyasında, sonra isə ADF-nin ən ağır günlərində ən çətin və mühüm vəzifələri fədakarlıqla yerinə yetirməsi firqə üzvləri tərəfindən təqdir edilirdi. O, "Azərbaycan" qəzetində də bir sıra məqalələr yazmışdı.

X.Azərbadegan öz varlığını firqəyə həsr etmiş və ona tam bağlanmışdı. Firqənin qərar və əmrlərinin onun tərəfindən icrası insanları heyrətə salırdı. ADF hökuməti tərəfindən verilən əmrlər X.Azərbadegan üçün öz canı bahasına da olsa bir qanun idi.

X.Azərbadegan ADF hökuməti tərəfindən əvvəlcə Marağanın, sonra isə Ərdəbil mahalının fərmandarı (hakim-Ə.F.) təyin olunmuşdu. Onun hakimliyi dövründə əhalinin təhlükəsizliyi və asayişin layiqincə qorunması əsas vəzifə idi. Ərdəbil mahalının mürəkkəb vəziyyətinə, şah hökumətinin mürtəce bəy və xanların vasitəsilə yaratdığı çətinliklərə baxmayaraq, X.Azərbadegan öz istedadlı fəaliyyəti və firqənin yardımı ilə asayişi qorumağa müvəffəq olmuş, kəndlərdə məktəblər açmış, çay üzərində böyük körpülər salmış, Ərdəbil şəhərində ictimai müəssisələr qurmuş, teatr binası tikdirməyə başlamışdı (Azərbadeganı tanıyın, 1948, 10 mart, s.3). Firqə və xalq qarşısındakı fəaliyyətlərinə görə o, Milli Məclisə üzv seçilmişdi (Azadlıq yolunun.., 1962, s.7; Əlizadə, 2017, s.122).

X.Azərbadegan yüksək əxlaqa, möhkəm iradəyə və əqidəyə, misilsiz cəsarət və şücaətə malik olan intizamlı bir şəxs idi. Onda əsl azərbaycanlılara məxsus bir mərdlik var idi, sözünün ağası və firqənin sadiq əskəri idi. O, Azərbaycanın ən qeyrətli oğullarından biri idi. X.Azərbadegan xalqının azadlığı, şərəfi uğrunda 1947-ci ildə Ərdəbildə şah rejimi tərəfindən şəhid edildi (Əlizadə, 2017, s.122-123). O, şəhid edilərkən belə demişdi: "Mən azadlıq yolunda öldürülürəm. Son qələbə haqq və azadlıqdadır. Yaşasın azad İran" (Azadlıq yolunun mübarizləri.., 1962, s.XXIII). "Azərbaycan" qəzeti yazırdı ki, xalqımız öz gələcək mübarizələri üçün minlərlə Azərbadeganlar yetişdirəcəkdir (Azərbadeganı tanıyın, 1948, 10 mart, s.3). Xalqın başını uca tutsa da, onun ölümü X.Azərbadeganı sevənlərin qəlbinə dağ çəkdi. Onun şəhidliyi Azərbaycanın minlərlə gəncinə ilham verən unudulmaz bir əməldir.

Məhəmmədəmin Azadvətən (1905-1947)

Məhəmmədəmin Azadvətən Urmiyanın Nazlıçay mahalında orta səviyyəli bir ailədə anadan olmuşdur. O, cavan ikən inqilabçılara qoşulur və zəhmətkeş təbəqənin mənafeyi uğrunda mübarizəyə başlayır. M.Azadvətən Rza şahın məmurlarının mənfur siyasətini əhali içərisində ifşa edirdi. O, xalqı şah hökumətinin və mülkədarların qanunsuz və ədalətsiz hərəkətlərinə qarşı mübarizəyə çağırır və ruhlandırırdı. Buna görə də 1312 (1933)-cü ildə Urmiyada həbs edilib ömürlük olaraq Zəncana sürgün olunmuşdu.

Zəncanda M.Azadvətənin ictimai-siyasi fəaliyyətinin qarşısını almaq məqsədilə onu nəzarət altına alıb bələdiyyədə süpürgəçi kimi işləməyə məcbur etmişdilər.

M.Azadvətən xalqın gücünü dərk edir, gələcəyə ümid və inamla baxırdı. M.Azadvətən deyirdi ki, bir gün biz süpürgəçilər və başqaları bu şəhərə zülm edən zalım dövlət məmurlarını yox edəcəyik.

M.Azadvətən Zəncanda səkkiz il sürgündə qaldığı dövrdə yerli əhalinin hörmətini qazanmış və onları öz tərəfinə cəlb etmişdi. O, zəhmətkeşlərin qayğısına qalır, onlara imkan dairəsində kömək edir və onlar ilə sıx əlaqə saxlayırdı. Buna görə də əhalinin çox hissəsi M.Azadvətəni sevir və onun sözlərinə inanırdılar. 1940-cı ilin payızında o, həbs edildi, dörd ay Zəncanda saxlandıqdan sonra Tehranın Qəsri-Qacar zindanına göndərildi.

Rza şahın hakimiyyətdən qovulmasından sonra M.Azadvətən də başqa məhbuslar kimi azad olub Zəncana qayıtdı. Tudə Partiyasının Mərkəzi Komitəsinin icazəsi ilə Zəncanda, sonra isə Urmiyada partiyanın vilayət komitəsini təşkil etdi və bu sahədəki uğurlarına görə dəfələrlə Tudə Partyasının rəhbərliyindən təqdirnamələr aldı. O, 1943-cü ildə partiyanın Urmiya təşkilatının sədri seçilmişdi. 1324 (1945)-ci ildə Tudənin Azərbaycan təşkilatları ADF-yə birləşəndən sonra o, ADF-nin Urmiya vilayət Komitəsinin sədri olmuşdu.

"21 Azər" hərəkatı başladığı zaman M.Azadvətən Urmiyada olan İran silahlı qüvvələrinin qovulmasında ciddi fəaliyyət göstərdi. Daha sonra ADF-nin təşkil etdiyi seçkilərdə iştirak edib Milli Məclisə millət vəkili seçildi və firqənin ona verdiyi vəzifələri layiqincə yerinə yetirdi (P.Ə., 1948, 24 aprel, s.3).

1946-cı ildə şah ordusu Cənubi Azərbaycanı zəbt etdikdən sonra M.Azadvətən həbs edildi. Şah məmurları onu özlərilə əməkdaşlığa dəvət etdikləri zaman M.Azadvətən belə demişdi: "Cəlladlar! Çinar ağacı sınar, lakin əyilməz!" (Azadlıq yolunun.., 1962, s.27); "Şəhidlərin qanı ilə suvarılan azadlıq ağacı gələcəkdə daha çox bar verəcəkdir" ("21 Azər – 70".., 2015, s.171). "Azərbaycan" qəzeti yazırdı ki, onun oğlunu özündən qabaq öldürsələr də M.Azadvətənin iradəsini sarsıdıb diz çökdürə bilmədilər (P.Ə., 1948, 24 aprel, s.3). Urmiyada qətl edilən M.Azadvətən şərəflə yaşadığı kimi azadlıq yolunda da şərəflə öldü. Xalqımız ADF-nin fədakar oğlu şəhid M.Azadvətənin xatirəsini heç vaxt unutmayacaqdır!

Nüsrət Baqiri (1904-1946)

Nüsrət Baqiri Cənubi Azərbaycanda, Qaraçəmən mahalının Qızılca kəndində 1283 (1904)-ci ildə sadə bir kəndli ailəsində anadan olmuşdur. O, Tibb Universitetini bitirdikdən sonra uzun müddət Təbrizdə yaşadı. O, Təbrizin Kərimxan meydanı yanında tibb məntəqəsi açaraq yoxsulları pulsuz müalicə edirdi. Təbriz polisi N.Baqirini heç bir günahı olmadan tutub 20 gün həbsdə saxlamış, lakin onun əleyhinə bir dəlil tapa bilmədiklərindən azad etməyə məcbur olmuşdu. Rza şah qovulduqdan sonra N.Baqiri azadlıq təşkilatlarına, o cümlədən Həmkarlar İttifaqına üzv olub irtica əleyhinə açıq şəkildə mübarizə aparmağa başladı (Vilayi, 1949, 1 yanvar, s.3). N.Baqirinin tibb məntəqəsi şah rejiminə və faşizmə müxalif olanların toplantı yerinə çevrilmişdi (Azadlıq yolunun..., 1962, s.124-125).

ADF təşkil olunduqda N.Baqiri firqəyə üzv olub firqənin Müəssislər Məclisinə seçildi. O, milli hərəkatda fəal iştirak etdiyinə görə ADF hökuməti tərəfindən "21 Azər" medalı ilə təltif edilmişdi. N.Baqiri xalq içində böyük hörmət qazandığına görə ADF Təbriz Komitəsinin şöbə sədri seçilmişdi. O, firqəyə sadiq adam olub təşkilatın bütün əmrlərini qeydsiz-şərtsiz yerinə yetirirdi (Vilayi, 1949, 1 yanvar, s.3).

Şah ordusu Cənubi Azərbaycanı zəbt etdiyi zaman N.Baqirini Təbrizdə işgəncə ilə öldürüb küçələrdə sürüdülər və evini qarət etdilər. N.Baqiri öldürülərkən belə demişdi: məhv

olsun zülm və istismar, yaşasın azadlıq və səadət! (Azadlıq yolunun..., 1962, s.126; İsmayılov. 21 Azər hərəkatından...). "Azərbaycan" qəzeti yazırdı ki, xalqımızın azadlığı və istiqlalı uğrunda şəhid olmuş digər qəhrəman yoldaşlarımız kimi N.Baqirinin də əziz xatirəsi əbədi olaraq millətimizin qəlbində yaşayacaqdır (Vilayi, 1949, 1 yanvar, s.3). Onun ADF-yə və xalqımıza olan xidmətlərini millətimiz heç vaxt unutmayacaq və daim qəlbində yaşadacaqdır.

Qazı Məhəmməd (1900-1947)

"Azərbaycan" qəzetində "21 Azər" hərəkatı ilə yanaşı kürd xalqının azərbaycanlılarla birlikdə şah rejiminə qarşı mübarizəsi və kürd demokratlarının rəhbəri Qazı Məhəmmədə də geniş yer verilib və o, "kürd xalqının şəhid lideri" adlandırılır (Kürdüstan, 1947, 13 dekabr, s.2). Qəzetdə 1945-ci ildə şah rejimi ilə mübarizə üçün görkəmli ictimai-siyasi və dini xadim Qazı Məhəmməd tərəfindən yaradılan Kürdüstan Demokrat Firqəsi (KDF) və KDF hökuməti haqqında məlumatlar verilir. Qazı Məhəmmədin şah hökumətinin aldadıcı vədlərinə baxmayaraq ADF hökuməti ilə ittifaq içində şah rejiminə qarşı mübarizə apardığı, kürd xalqına demokratik azadlıqlar bəxş etdiyi qəzetdə göstərilirdi (Kürd millətinin.., 1949, 26 yanvar, s.1, 4).

Qazı Məhəmməd 1279 (1900)-cu ildə Cənubi Azərbaycanın Məhabad şəhərində anadan olmuş, məşrutə inqilabı zamanı şah rejiminə qarşı üsyanlara şahid olmuşdu. İxtisasca fəqih (islam hüquqçusu) olan Qazı Məhəmməd 1926-1930-cu illərdə Məhabadda maarif idarəsinin rəhbəri olmuş, 1930-cu ildə atası Qazı Əlinin vəfatından sonra şəriət məhkəməsinin hakimi seçilmişdi. Lakin rəsmi idarələrdə kürd dilində danışdığına görə və şah hökumətinə müxalif olduğu üçün Qazı Məhəmmədi vəzifədən çıxartmışdılar. Rza şahın hakimiyyətdən qovulmasından sonra Qazı Məhəmməd siyasi fəaliyyətə başladı. O, 1943-cü ildə Kürd xalqının oyanışı firqəsinə üzv

seçildi (Azadlıq yolunun.., 1969, s.7-8).

Qazı Məhəmməd dünya tarixini və mədəniyyətini, bir neçə Qərb və Şərq dillərini yaxından bilən şəxs idi. O, qeyri-müsəlmanların hüquqlarını daim müdafiə etmiş, onlar tərəfindən sevilən bir şəxsiyyət idi. Qazı Məhəmməd 1945-ci ilin 16 avqustunda yaradılmış Kürdüstan Demokrat Firqəsinin, 1946-cı ilin 22 yanvarında Məhabad şəhərində elan edilmiş Kürdüstan muxtariyyətinin rəhbəri olmuşdur. KDF-nin yaradılmasında və dəstəklənməsində 1945-ci ilin sentyabrında Bakıda Qazı Məhəmmədlə görüşən M.Bağırovun xüsusi rolu olmuşdur. Bu görüşdə M.Bağırov öncə Kürdüstanın Cənubi Azərbaycan daxilində muxtariyyət olmasını təklif etmiş, lakin Qazı Məhəmmədin etirazı səbəbilə Kürdüstan Demokratik Firqəsinin (KDF) və onun rəhbərliyində İran daxilində ayrıca Kürdüstan muxtariyyətinin qurulmasına razılıq vermişdi. S.C.Pişəvərinin rəhbərlik etdiyi ADF hökuməti də qurulacaq Kürdüstan muxtariyyətinin Cənubi Azərbaycan daxilində olmasını arzu etsə də, kürdlər buna razı olmamışdı. Onlar hətta Azərbaycanın Urmiya, Xoy, Maku vilayətlərinə torpaq iddiasını irəli sürürdülər. Lakin hər iki hökumət bir müddət sonra Pəhləvilərə qarşı müttəfiq olmanın zərurətini anlamış, qarşılıqlı torpaq iddialarından imtina etmişdilər (Fərhadov, 2024, s.97).

KDF-nin proqramında Kürdüstanın İran daxilində muxtariyyəti təsbit edilmişdi. Beləliklə, Kürdüstan muxtariyyətinin qurulması ilə Cənubi Azərbaycanda kürd separatizmi qələbə çaldı, kürdlər mərkəzi Sənəndəc olan İran Kürdüstanı əyalətindən əlavə Cənubi Azərbaycan ərazisində yeni kürd dövlət qurumunun qurulmasına müvəffəq oldular. İran hökuməti Qazı Məhəmmədə Kürdüstan muxtariyyətini ləğv edib onu İran Kürdüstanı əyalətinə birləşdirməsini və bu əyalətə vali olmasını təklif etsə də, bu təklif KDF-nin rəhbərliyi tərəfindən qəbul edilməmişdi. ADF və KDF hökumətləri Pəhləvi şah rejiminə qarşı birlikdə hərəkət etməyə məcbur olmuşdular. 1946-cı il aprelin 23-də Təbriz şəhərində hər iki muxtar hökumət

arasında siyasi, iqtisadi, mədəni, hərbi əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə bağlanmışdı. S.C.Pişəvəri yazırdı ki, kürdlər Azərbaycanın bir ailə üzvüdür. Bizimlə onların arasında nifaq ola bilməz ("Azərbaycan".., 2022, s.588).

23 Aprel müqaviləsi ilə Kürdüstanda azərbaycanlıların, Cənubi Azərbaycanda isə kürdlərin hüquqlarının qorunacağı təsbit edilmişdi. Qazı Məhəmməd şah ordusunun Cənubi Azərbaycana və Məhabada hücumu zamanı sovetlərin onları müdafiə etməməsindən narazı qalmışdı. O, 1946-cı ilin dekabrında Kürdüstan muxtariyyətinin süqutu zamanı xaricə qaçmağı rədd etmiş və belə demişdi: "Xalqıma bir söz verdim. Yaxşı və pis gündə xalqımın yanında olacağam". Şah ordusunun Məhabadı zəbt etməsindən sonra Qazı Məhəmməd edam edildi. Qazı Məhəmməd son nəfəsində – "Gedin şaha və ağalarınıza deyin ki, kürd xalqının azadlıq mübarizəsini məhv edə bilməyəcəksiniz. Qazı Məhəmmədi öldürsəniz də, minlərlə Qazı Məhəmmədlər bu torpaqdan baş qaldıracaq. Yaşasın azad Kürdüstan!" deyərək şəhid oldu (Azadlıq yolunun.., 1969, s.11-12; Fərhadov, 2024, s.98-99). Qərb imperializminin dəstəklədiyi şah hökuməti Cənubi Azərbaycandakı və İran Kürdüstanındakı azadlıq hərəkatının bütün İrana yayılmasından qorxduqları üçün onu qan içində boğdular.

"Azərbaycan" qəzetində vurğulanırdı ki, S.C.Pişəvərinin və Qazı Məhəmmədin mübariz tələbələri olan demokratlar öz şəhid liderlərinin məramını möhkəmləndirəcək və mütləq qalib gələcəklər. Müstəbid şah rejiminin və onların əlaltısı olan kürd feodallarının rəhbərliyi altındakı İran Kürdüstanında bol təbii sərvətlərə baxmayaraq aclıq və yoxsulluğun geniş yayılması qəzetdə tənqid edilirdi. Həmçinin göstərilirdi ki, şah hökumətinin jandarm və digər silahlı qüvvələri Kürdistanda ancaq adam öldirmək və ev dağıtmaqla məşğuldurlar. Hətta kürd xalqının şəhid rəhbəri Qazı Məhəmmədin qəbri üstə fatihə oxuyanları da qətl edirlər. "Azərbaycan" qəzetində göstərilirdi ki, kürd və Azərbaycan xalqlarının sarsılmaz dostluğu

və birgə mübarizələri nəticəsində bu xalqlar şah rejiminin əsarətindən xilas ola biləcəklər (“21 Azər”in 3-cü ildönümü.., 1948, 18 dekabr, s.3).

Qazı Məhəmmədin rəhbərlik etdiyi KDF kürd xalqının şah rejiminə qarşı mübarizəsində böyük rol oynamış, ADF rəhbərliyindəki azərbaycanlıların haqq işinə dəstək olmuşdular. Lakin KDF-nin separatçılıq siyasəti Cənubi Azərbaycanın Urmiyaətrafı bəzi bölgələrinin kürdləşməsinə və o dövrdə Cənubi Azərbaycandan ayrılmasına səbəb olmuşdu.

Marksizm-leninizm xadimləri:
K.Marks, F.Engels, V.Lenin, İ.Stalin

“Azərbaycan” qəzetində marksizm-leninizm ideologiyasının əsas xadimləri olan K.Marks, F.Engels, V.Lenin, İ.Stalinin fotoşəkilləri, onlara həsr olunmuş məqalələr əsas yerlərdən birini tutur. Qəzetdə K.Marksın müəllifi olduğu “Kommunist Partiyasının manifesti” əsəri haqqında geniş məlumatlar, sitatlar verilir və göstərilirdi ki, “Qoy hakim siniflər kommunist inqilabı qarşısında darmadağın olsunlar. Proletarlar bu inqilabda öz zəncirlərindən başqa heç bir şey itirməyəcəklər. Qazancları isə bütün dünya olacaqdır. “Bütün ölkələrin proletarları, birləşin!”; “Kommunist manifesti”nin müzəffər amalı, marksizm-leninizmin böyük işi bütün dünyada qalib gələcəkdir (Nəbioğlu, 1948, 3 mart, s.3-4).

“Azərbaycan” qəzeti bolşeviklərin lideri Leninin Rusiyadakı fəhlə-kəndli hərəkatında və bolşevik inqilabındakı roluna, onun dünya xalqlarına, o cümlədən Azərbaycan xalqına bəxş etdiyi “azadlığa” böyük əhəmiyyət verirdi. Qəzetdə Lenin “dünya zəhmətkeşlərinin həqiqi atası, Şərq xalqlarının səmimi

və xeyirxah dostu" adlandırılırdı (Dünya zəhmətkeşlərinin.., 1948, 24 yanvar, s.1). "Azərbaycan" qəzetində Lenindən sitat gətirərək göstərilirdi ki, 1905-ci il inqilabı Asiya xalqlarını qəflət yuxusundan oyatdı, onları azadlıq və demokratiya uğrunda mübarizəyə qaldırdı. Lenin ölsə də, leninizm yaşayır və qalib gəlir. Azərbaycan xalqı dahi Leninin ideyalarından istifadə edərək öz azadlığı və istiqlalı uğrunda imperializmə və onların əlaltıları olan mürtəcelərə qarşı yorulmadan mübarizə aparır. Millətimizin milli azadlıq hərəkatı dünyanın sülhsevər xalqlarının öz azadlıq və istiqlalı uğrunda apardıqları mübarizə hərəkatının ayrılmaz bir hissəsidir (Leninizm yaşayır.., 1949, 22 yanvar, s.1).

"Azərbaycan" qəzetində Oktyabr inqilabına xüsusi yer ayrılıb və göstərilirdi ki, Oktyabr inqilabı öz azadlıqları uğrunda mübarizə aparan xalqlar üçün yeganə ilham mənbəyidir. Bu inqilab məzlum Şərq xalqlarının zəhmətkeş kütlələrini yuxudan oyatdı və çar hakimiyyətinin müstəmləkəçilik siyasətini məhv etdi. Qəzetdə Lenindən sonra hakimiyyətə gələn sovet lideri Stalin də mədh edilir və Leninlə birlikdə Oktyabr inqilabının banisi, dünya xalqlarının sevimli atası, Bolşeviklər firqəsinin müəllimi və dahi adlandırılırdı (Böyük Oktyabr.., 1948, 6 noyabr, s.1, 4). Qəzetin bu mövqeyi onun sovet hökumətinin və Kommunist Partiyasının ciddi nəzarəti və tabeçiliyi altında olan ADF-nin orqanı olmasından və Bakıda çap edilməsindən qaynaqlanırdı. Təəccüblü deyil ki, stalinizm dövründə Azərbaycan xalqına qarşı ən qəddar repressiya siyasətini icra edən M.C.Bağırov qəzetdə "Azərbaycan xalqının sevimli rəhbəri" adlandırılır (Qətnamə, 1948, 27 noyabr, s.3), onun çıxışları qəzetdə verilirdi ((Tarixin.., 1948, 22 sentyabr, s.1, 3).

"Azərbaycan" qəzetində görkəmli kommunist dövlət xadimi, Sovet Azərbaycanının ilk rəhbəri N.Nərimanovun adı çəkilməsə də, 1918-ci ilin aprel ayında Bakıda hakimiyyəti ələ keçirən bolşevik liderlərin - 26 Bakı Komissarının fotoşəkilləri və haqlarında məlumatlar təqdim edilir. "Azərbaycan"

qəzetində 1918-ci ildə Bakıda 26 Bakı komissarının rəhbərliyi altında bolşevizmin qələbəsinin Leninin və Stalinin rəhbərliyi altında baş verdiyi vurğulanır və Stalinin bu sitatı təqdim olunurdu: "Oktyabr ayının ilk günlərindən sovet hakimiyyətinə tərəfdar olan və daim mübarizə aparan Bakı proletariatı Zaqafqaziya proletariatını daim sayıq saxlayır, ona qüvvətli təsir göstərir və parlaq bir məşəl kimi sosializm yolunu işıqlandırırdı" (Tarixin.., 1948, 22 sentyabr, s.1).

"Lenin və Stalinin sadiq şagirdləri" adlandırılan 26 Bakı komissarı – "beynəlxalq imperializmə qarşı mübarizə aparan Bakı proletariatının və Zaqafqaziya zəhmətkeşlərinin rəhbəri, sovet zəhmətkeşləri üçün canlı nümunə" sayılırdı. Qəzetdə - "onlar öldürülsələr də, adları heç bir zaman yaddan çıxmayacaq" deyilirdi. Dövrün Sovet Azərbaycanının rəhbəri M.C.Bağırovun məruzəsini təqdim edən "Azərbaycan" qəzeti ondan sitat gətirərək milli istiqlal uğrunda mübarizə aparan Müsavat Partiyasını "xain" adlandırır və daşnaklarla ittifaq içində müsəlmanlara qarı soyqırım törədən 26 Bakı Komissarı haqqında isə - "Onlar inqilabi mübarizə tarixinə unudulmaz qəhrəmanlıq səhifələri yazdılar və Zaqafqaziya xalqlarının qardaşlığını və dostluğunu təcəssüm etdirirlər" deyilirdi (Tarixin.., 1948, 22 sentyabr, s.1).

"Azərbaycan" qəzetində Lenin və Stalinin göstərişlərinə əsasən və bilavasitə onların köməyi ilə 26 Bakı komissarının rəhbərlik etdiyi Bakı Xalq Komissarları Sovetinin həyata keçirdiyi sosialist tədbirlər, neft sənayesinin, Xəzər ticarət donanmasının, bankların milliləşdirilməsi, bəy və xan torpaqlarının müsadirə edilib zəhmətkeş kəndlilərə paylanması haqqında qanunların verilməsi haqqında məlumat verilirdi. Həmçinin göstərilirdi ki, müəssisələrdə 8 saatlıq iş günü təyin olunmuş, fəhlə və kəndli uşaqları üçün məktəblər açılmışdı. Qəzetdə o zaman özü də çox böyük çətinliklər çəkən gənc Sovet Rusiyasının Bakı proletariatına hərbi-siyasi yardım etdiyi, Bakı proletariatının isə rus xalqına və sovet ordusuna qardaşcasına öz

minnətdarlığını bildirərək Rusiyaya 80 milyon puddan artıq neft məhsulları göndərdiyi göstərilirdi. Qəzetdə 1918-ci ilin yazında Bakı ilə yanaşı Şamaxı, Quba, Lənkəran, Salyan və Hacıqəbulda, habelə Dağıstanın Dərbənd və Petrovsk (indiki Mahaçqala) şəhərlərində sovet hakimiyyətinin qurulduğu qeyd edilirdi (Tarixin.., 1948, 22 sentyabr, s.1, 3). Lakin təəssüf ki, qəzetdə bolşeviklərin daşnaklarla hərbi-siyasi ittifaq qurub Azərbaycanda müsəlmanlara qarşı soyqırım törətmələri və Azərbaycanın müstəqilliyinə qarşı olmaları göstərilmirdi. Bu da təbii ki, ADF-nin və onun orqanı olan "Azərbaycan" qəzetinin bolşevik təmayüllü olmasından və sovetlərin nəzarəti altında çap olunmasından qaynaqlanırdı.

ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİ

Bayraməli Abbaszadə
Hammal (1869-1926)

Cənubi Azərbaycanın məşrutəçi ziyalılarından biri də görkəmli inqilabçı şair Bayraməli Abbaszadədir. Azərbaycan ədəbiyyatı tarixində "Hammal" təxəllüsü ilə tanınmış B.Abbaszadə doğrudan da bir müddət hambal kimi çalışmışdır. O, 1869-cu ildə Sərab mahalının Günni kəndində yoxsul bir ailədə anadan olmuşdur. Kənd məktəbində bir müddət oxuyan B.Abbaszadə yoxsulluq səbəbilə məktəbi atıb muzdur işçi kimi çalışmağa məcbur olmuşdu.

Təbrizdə Məhəmmədəli şah əleyhinə məşrutə (konstitusiya-Ə.F.) hərəkatı başladığı zaman o, silah götürüb Səttarxanın fədai dəstəsinə qoşulmuşdu. Onun ədəbiyyatla ilk tanışlığı da bu zaman başladı. Öz inqilabi yazıları ilə məşrutə hərəkatına dəstək olan "Molla Nəsrəddin" jurnalı B.Abbaszadənin diqqətini cəlb etmiş və o, M.Ə.Sabirin şeirlərindən təsirlənmişdi. Zalım xan və mülkədarların zülmündən bezən B.Abbaszadə ilk şeirlərini məşrutə düşmənlərinin ifşasına həsr etmişdi.

İranda məşrutə əleyhinə mürtəce gücləndiyi zaman B.Abbaszadə ailəsini götürüb Qafqaza köçməyə məcbur olur, Bakıda hamballıqla məşğul olub ailəsini təmin edir. M.Ə.Sabir ilə görüşən B.Abbaszadənin şeirləri "Molla Nəsrəddin"də çap edilmişdi. Azərbaycanın inqilabi şairləri arasında siyasi satirik şeirin ustadlarından biri olan B.Abbaszasdə "Gülzar"

və "Hammal" təxəllüsləri ilə kəskin satirik şeirlər yazmışdır. Onun cəhalət, xurafat və mövhumata qarşı dərin məzmunlu və kəskin dil ilə yazılmış şeirləri vardır. B.Abbaszadə 1926-cı ildə Bakıda vəfat etmişdir. "Azərbaycan" qəzetində şairə və onun yaradıcılığına həsr olunmuş yazılar və onun "Yazın baş daşıma" şeiri təqdim edilmişdir:

"Heyf ola ömrümü bərbad elədim xanlar ilə
Ülfət etdim nə yaman elmsiz insanlar ilə
Günümü başa yetirdim acı qəlyanlar ilə
Bəy ilə molla və xan qatdı soyuq su aşıma
Töküb İranın o xanzadələri kül başıma" (Bayraməli.., 1948, 3 aprel, s.3).

B.Abbaszadənin əsərləri məşrutə dövrünün satirik ədəbiyyatını, şairin Şimali Azərbaycanla əlaqələrini, Sabir yaradıcılığının Cənubi Azərbaycan ədəbiyyatına təsirini öyrənmək, tədqiq və təbliğ etmək baxımından əhəmiyyətlidir.

Mirzə Əli Möcüz Şəbüstəri (1873-1934)

"Azərbaycan" qəzetində təbliğ edilən güneyli şairlərdən biri də şəbüstərli Mirzə Əli Möcüzdür. O, 1873-cü ildə Təbrizin Şəbüstər qəsəbəsində anadan olmuşdur. M.Ə.Möcüz Molla Əli adında ruhanidən dini təhsil almış, atasının vəfatından sonra İstanbula köçüb orada kitab satmaqla məşğul olmuşdur. O, 16 il İstanbulda yaşadıqdan sonra 30 yaşlarında öz doğma yurdu olan Şəbüstərə qayıtmışdır.

Şair öz əli ilə yazdığı tərcümeyi-halında deyir ki, mən vətənə qayıtdıqdan sonra vətənin pis halını gördüm və növhə (ağı-Ə.F.) deməyə başladım, lakin mənim bu növhələrim çoxlarının xoşuna gəlmədi. O, qeyd edir ki, mən qorxmadım, yazdım, əsasən öz ana dilimdə yazdım ki, xalqımı maarifləndirə bilim. M.Ə.Möcüz xalqın acı fəryadını, çılpaq və dərmansız, yoxsul, ac, ağır bir fəlakət ilə irticanın zülmü altında əzildiyini görür, onun ah-nalələrini hiss edirdi. O, bu səbəbdən sərvət içərisində qərq olmuş xanların, bəylərin xalqı zorla qarət etməsini öz şeirlərində ifşa edir, təzyiqlərə baxmayaraq xalqın düşmənləri ilə kəskin və şiddətli mübarizə aparırdı. O, "nə əmn (təhlükəsizlik-Ə.F.) var, nə ticarət, nə şə`r (şəriət-Ə.F.), nə qanun" (Tahir, 1945, 24 oktyabr, s.2; "Azərbaycan"..., 2022, s.290-291) deyərək ölkədə qanunun şah yox, şahın qanun olduğunu göstərirdi.

M.Ə.Möcüz xalq arasında kök salmış cəhaləti, avamlığı, zülm və sitəmi və mürtəce əməlləri, məmurların rüşvətxorluğunu, yoxsulların, işsizlərin bir tikə çörək dalınca xarici ölkələrə getməyə məcbur qalmasını öz satirik şeirlərində tənqid edərək belə yazırdı:

"Yəqin bilin ki, qədəm basmaz özgə torpağa
Vətəndə xoş keçə gər ruzigarı insanın" (Tahir, 1945, 24 oktyabr, s.2; "Azərbaycan"..., 2022, s.290-291).

"Azərbaycan" qəzetində göstərilirdi ki, M.Ə.Möcüz öz şeirləri ilə müsəlman Şərqində, o cümlədən İranda imperialist siyasəti icra edən dövlətləri və onların xidmətçisi olan şah hökumətini, xalqa zidd siyasət aparan dövlət məmurlarını ifşa edirdi. Bu şeirlər ilk növbədə ingilis müstəmləkəçiləri haqqındadır. Şərq xalqlarını əsarət altında saxlayan Qərb imperializmi xalq arasında mövhumat və xurafatı yayır, dini iğtişaşlar salır, bir tayfanın vasitəsilə digər tayfa və qəbilələrin müqəddəs məbəd və yerlərini təhqir edib düşmənçiliyi artırırdı. "Azərbaycan" qəzetində qeyd edilirdi ki, I Dünya müharibəsindən sonra Ərəbistanda vəhhabilərin törətdiyi qan-qırğınlar, fitnələr, məzhəb savaşları ingilis agentlərinin və əlaltılarının əliylə təşkil edilmişdi. M.Ə.Möcüz bu haqda belə yazırdı:

"Ah u vah ey ümməti-xeyrül-bəşər
Gəldi Tehrandan bu gün bir bəd xəbər
Ki, edib vəhhabiani bi-iman
Rövzeyi-peyğəmbəri bombardman.
...
Lənət eylər ingilisə xas u am
İngilisin rəngidir bu, vəssəlam.
Söylər hər kəs küçədə və bazarda
"İngilis barmağı var bu karda".
O, edir təhrik vəhhabiləri,
Hikməti var bu işin, ey həmşəri" (Həbibi, 1947, 9 dekabr, s.3).

M.Ə.Möcüz şeirlərində xalqı aciz olmamağa, Qərb imperializminə qarşı fəal mübarizəyə, ingilis mallarını boykot etməyə çağırırdı. Şair təkcə ingilislərin müstəmləkəçilik siyasətini ifşa etməklə kifayətlənmir, eyni zamanda bu siyasətin

İrandakı məddahlarını da rüsvay edirdi. O, 1918-1920-ci illərdə şah hökumətinin ingilislərin xeyrinə bağladığı müstəmləkəçilik müqaviləsinin zərərlərini, İranda baş verən siyasi fırıldaqların səbəblərini göstərərək yazırdı:

"Aman, ingilis əlindən aman
Yeridir su altından hər gün saman
Onun öhdəsindən gələmməz cahan
Xuda, ingilisi özün vur yerə
Nə məzhəb daşır, nə mürvət, nə din
....
Gəhi bihəya qəsdi-İran edir,
Yıxır Darülşuranı (parlament-Ə.F.) viran edir,
Vüsuqu, Qəvvamı yenə xan edir,
Odur düşmən can, malınıza" (Həbibi, 1947, 9 dekabr, s.3).

Qəzet göstərirdi ki, siyasi və ictimai hadisələrə düzgün qiymət verən, onun səbəblərini doğru göstərən M.Ə.Möcüz Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri olaraq milli ədəbiyyat tariximizdə daim yaşayacaqdır. Təsadüfi deyil ki, M.Ə.Sabir tərzində yazdığı şeirlərilə xalqı oyadan, onu mübarizliyə səsləyən M.Ə.Möcüzün şeirlərinin çap edilməsi Pəhləvilər dövründə qadağan edilmişdi. Çünki bu şeirlərdə xurafat və mövhumata, şah rejiminə qarşı mübarizə, inqilabi demokratik ideyalar təbliğ edilirdi.

"İstəsən qeydi-əsarətdən xilas olmaq əgər
Qoy qədəm Musa kimi dəryayi-cümhuriyyətə" (Heyət, 1998, s.295)

- deyən şair monarxiya rejimini tənqid edərək cümhuriyyətçiliyi, xalq hakimiyyətini təbliğ edirdi. Rəsmi qadağalara, şairin saray ruhaniləri tərəfindən kafir elan edilməsinə (Heyət, 1998, s.292) baxmayaraq, Cənubi Azərbaycan əhalisi xalqın acı həyatını və bunun günahkarlarını öz şeirlərində göstərən M.Ə.

Möcüzü sevir, onun əsərlərinin əlyazmalarını yayır və təbliğ edirdi (Həbibi, 1948, 9 iyun, s.4).

M.Ə.Möcüzün şeirləri Sovet Azərbaycanında da sevilir və oxunurdu. Dövrün "Kommunist" qəzetində M.Ə.Möcüzün həyat və fəaliyyəti təbliğ edilir və göstərilirdi ki, M.Ə.Möcüz hər şeydən əvvəl vətənpərvər bir şairdir. O, vətəni Azərbaycanı və doğma ana dilini sonsuz məhəbbətlə sevirdi. Qəzetdə onun şeirlərindən nümunələr verilirdi:

"Nə yatıbsan, ayıl, ey milləti-biçarə, ayıl,
Satır axır vətəni düşmənə əyani-vətən" (Əliyev, 2020, s.111).

"Kommunist" qəzetində Cəfər Xəndanın M.Ə.Möcüzün vəfatının 20 illiyi ilə əlaqədar yazdığı "Cənubi Azərbaycanın xalq şairi" adlı məqaləsində şairin yaradıcılığından və üzləşdiyi təzyiq və təqiblərdən danışılırdı. C.Xəndan yazırdı ki, yoxsul bir ailədə anadan olmuş M.Ə.Möcüz öz dövrünün eybəcərliklərini, xalqın düçar olduğu məhrumiyyətləri və yalnız inqilab yolu ilə azadlıq və istiqlala qovuşmağın mümkünlüyünü var səsi ilə bəyan edirdi. Onun satiraları ilan oynadan, fala baxan, cadugərlik edən "xırda" adamlardan tutmuş Qərb imperialistlərinə, şah hökuməti və məmurlarına qədər bütün müstəbid, mürtəce qüvvələri amansız surətdə ifşa edirdi. Şair belə deyirdi:

"Əbəs yerə əl açıb göydən istədik imdad,
Bizi bu qədər bəlayə düçar edən odur!
Əlac yoxdur bizə şeyxdən, nə də şahdan,
Vəkildən üz əlini, çünki mülkədar odur!" (Əliyev, 2020, s.112; Fərhadov, 2024, s.165).

M.Ə.Möcüz bu gün də öz şeirlərilə yaşayır, xalqa yol göstərir və onun əsərlərinin öyrənilməsi, mürtəce və müstəbid şahların xalqa zidd siyasətini, Qərb imperializminin müstəmləkəçilik fəaliyyətini ifşa etmək baxımından müstəsna əhəmiyyətə malikdir.

Mirzə Həsən Rüşdiyyə (1851-1944)

"Azərbaycan" qəzetinin 1947-1949-cu il saylarında böyük maarifçi Mirzə Həsən Rüşdiyyə haqqında müəyyən məlumatlar verilsə də, onun fotoşəkli yer almır. Təqdim olunan şəkil qəzetin 24 oktyabr 1945-ci il sayından götürülmüşdür.

M.H.Rüşdiyyə Təbrizdə anadan olmuş, ibtidai və orta təhsilini də orada aldıqdan sonra Beyrutda Darülmüəllimində (Pedaqoji İnstitut-Ə.F.) ali təhsil almış, İrəvanda pedaqoji işlə məşğul olmuşdu. XX əsrin əvvəllərində Təbriz məşrutə inqilabının beşiyi idi. Bu dövrdə Mirzə Həsən Rüşdiyyə məşrutə hərəkatında iştirak etmişdi (Heyət, 1998, s.289). Təbriz həm də İranın mədəni mərkəzlərindən biri idi. Onun tətbiq etdiyi qabaqcıl təlim üsulu – üsuli-cədid metodu bu dövrdə İranda geniş yayılmışdı. M.Tərbiyət "Danişməndani-Azərbaycan" ("Azərbaycan alimləri") əsərində yazırdı ki, M.H.Rüşdiyyə M.F.Axundzadə kimi əlifba islahatından ilham alaraq, Cənubi Azərbaycanda sövti üsulla (səs, fonetika ilə) olan ilk dərslikləri ("Vətən dili", "Ana dili") yazmışdır (Tərbiyət, 1967, s.31; Məmmədli, 2009, s.19). O, 1893-cü ildə Təbrizdə açdığı "Mədrəseyi-Rüşdiyyə"də Azərbaycan türkcəsində yazdığı "Vətən dili" dərsliyi (1894-cü il) ilə dərs keçmişdi (Məmmədli. Qocaman müəllim...). Bu kitab 1905-ci ildə Təbrizdə nəşr edilmişdir ("Azərbaycan" qəzeti.., 2022, s.391; Beregian, 1988, p.47).

M.H.Rüşdiyyə öz məktəblərində Azərbaycan türkcəsini də tədris etmişdir (Cənubi Azərbaycan, 1987, s.418). "Vətən dili" kitabı 1917-1918-ci ilə qədər Qafqazın və Türküstanın məktəblərində ibtidai sinif vəsaiti kimi tədris olunmuşdur (Sərdariniya, 2014, s.109).

"Azərbaycan" qəzetində göstərilirdi ki, S.C.Pişəvəri bu əsəri "Azərbaycan maarifi tarixində misilsiz bir əsər", M.H.Rüşdiyyəni isə "böyük xalq və maarif xadimi" adlandırmışdır (Azərbaycanın böyük xalq.., 1324 (1945), 2 mehr (24 sentyabr), s.1; Pişəvəri, 2016, s.128, 295-296). Qəzet qeyd edirdi ki, İranda "üsuli-cədid" ilə, yəni yeni üsulla tədris edən məktəblərin tarixi yazılarsa, mütləq təbrizli M.H.Rüşdiyyənin adı birinci qeyd edilməlidir. Çünki Avropa üsulunda birinci məktəbi Təbrizdə M.H.Rüşdiyyə açmışdır (Həbibi, 1948, 26 may, s.4). Təəssüf ki, Qacarlar dövründə zəif də olsa davam edən bu milli mədəni inkişaf Pəhləvilər dövründə zorla dayandırıldı (Fərhadov, 2024, s.161). Buna baxmayaraq, M.H.Rüşdiyyənin milli tədrisat və pedaqogika sahəsində atdığı ilk addımlar Cənubi Azərbaycanda ana dilinin öyrənilməsi və təbliği sahəsində mühüm rol oynamışdır. Bu elmi-mədəni fəaliyyətin təsirlərini 1945-1946-cı illərdə ADF hökumətinin milli təhsil siyasətində görürük.

Mirrəhim Vilayi (1916-1976)

"Azərbaycan" qəzetinin 1947-1949-cu il saylarında təbrizli publisist Mirrəhim Vilayinin bəzi məqalələri təqdim edilsə də, fotoşəkli verilməmişdir. Təqdim edilən şəkil qəzetin 30 noyabr 1945-ci il sayından götürülmüşdür (Mərənd kandidlərindən, 1945, 30 noyabr, s.1). İnqilabçı bir ruha sahib olan M.Vilayi öncə Tudə Partiyasının, daha sonra ADF-nin üzvü və "Azərbaycan" qəzetinin redaktoru olmuş, "21 Azər" hərəkatı dövründə Milli Məclisin üzvü və katibi, ADF-nin Təbriz Komitəsinin sədr müavini seçilmişdir ("21 Azər – 70"., 2015, s.63). "21 Azər" medalı və "Səttarxan" ordeni ilə təltif edilən mütəfəkkir ADF hökumətinin süqutundan sonra Bakıya mühacirət etmişdi. O, Bakı Ali Partiya Məktəbində təhsil almış, 1949-1953-cü illərdə ADF-nin "Azərbaycan" qəzetinin redaktoru olmuş, daha sonralar AMEA-da baş elmi işçi olmuş, "Azərbaycan Milli Hökumətinin dövründə mətbuat" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (İsmayılov. Azadlıq yolunun..).

Şah rejiminə qarşı demokratik ideyaları müdafiə edən M. Vilayi "Şahpərəstlik heç bir fəlsəfə və riyazi formul üzərində qurulmamışdır" adlı məqaləsində iqtidar yönümlü İran mətbuatının "Azərbaycan xalqının şahpərəstliyi" haqqındakı fikirlərini tənqid etmişdir. M.Vilayi şahı bütləşdirən məddah

İran mətbuatına heç kimin inanmadığını bildirir və yazırdı ki, şah orta əsrlərdən qalma bir skeletdir. Artıq bu gün dünya xalqları şahlıq və diktatorluq üsuluna nifrət edirlər. O, köhnəlmişdir və çürüyüb aradan getməlidir (Vilayəti, 1948, 17 mart, s.4). M.Vilayi iqtidar yönümlü "Sitarə" qəzetinin şahpərəstliyi təbliğ edən fikirlərini tənqid edərək Azərbaycan xalqını şah rejiminə qarşı, demokratiya və xalq hakimiyyəti uğrunda mübarizəyə səsləyirdi (Vilayəti, 1948, 17 mart, s.1, 4).

M.Vilayinin "Azərbaycan Demokrat Firqəsi Məramnaməsinin təhlili" başlıqlı silsilə yazılarında ADF-nin proqramı geniş şərh edilib. 1906-cı ildə Müzəffərəddin şah Qacar tərəfindən təsdiq edilmiş məşrutə haqlarından, xüsusilə özünü idarəetmə haqqından bəhs edən M.Vilayi yazırdı ki, konstitusiya bütün İran xalqları kimi Azərbaycan xalqına əyalət əncüməni qurmaq ixtiyarını vermişdir. Bu haqqın ləğv edilə bilməyəcəyini, lakin Rza şahın bu qanunsuzluğu etdiyini göstərən M.Vilayi "21 Azər" hərəkatının bu hüquqsuzluğa qarşı mübarizə apardığını bildirmişdi (Vilayi, 1948, 21 yanvar, s.1). İran daxilindəki qeyri-farsların muxtariyyət hüququnu müdafiə edən və bunun yolunu əncümənlərin yaradılmasında görən M.Vilayi yazırdı ki, bir millətin muxtariyyəti o millətin öz-özünün sahibi olması deməkdir, yəni o millət öz milli siyasətilə öz tarixini, siyasi həyatını, mədəniyyətini və iqtisadiyyatını mühafizə edib tərəqqi edə bilər. Əncümən vasitəsilə İran xalqları öz muxtariyyətini yarada bilərlər. İranda yaşayan millətlərin öz vilayətlərində əncümənlər qurmaqla özünü idarə etməsi, öz milli dilində məktəb, maarif, mədəniyyət yaratması, dövlət təşkilatlarını özlərinin idarə etməsi muxtariyyətin zəruri şərtlərindəndir (Vilayi, 1948, 21 yanvar, s.4).

M.Vilayi göstərirdi ki, ADF-nin rəhbərliyi ilə Cənubi Azərbaycanda yaradılmış muxtar hökumət beş milyonluq xalqa mürtəce şah hökuməti tərəfindən qadağan olunmuş ana dilini, milli mədəniyyətini inkişaf etdirmək üçün imkan yaratdı. ADF hökuməti xalqımız üçün öz ana dilində məktəblər açıb

qəzet, kitab və s. nəşr etdi (Vilayi, 1948, 21 yanvar, s.4). M. Vilayi ADF hökumətinin etnik, şovinist siyasət güdmədiyini, ölkədə yaşayan bütün xalqlara öz milli-mədəni hüquqlarını, mətbuat azadlığını verdiyini qeyd edir və yazırdı ki, "Milli Hökumət Azərbaycanda yaşayan kiçik millətlərin hüquqlarına, dil və adət-ənənələrinə hörmət etməklə, dil və mətbuat azadlığı verməklə onlarla Azərbaycan xalqı ilə bərabər hüquqda və qardaşcasına rəftar etdi" (Vilayəti, 1948, 21 yanvar, s.4).

M.Vilayi "İran xalqları arasında ziddiyyət salan fitnəkarlar" adlı məqaləsində ölkədəki müxtəlif xalqları bir-birinə düşmən edən beynəlxalq imperializmi tənqid edir, onların bu vasitə ilə müxtəlif xalqları özlərindən asılı saldıqlarını göstərirdi (Vilayi, 1948, 10 yanvar, s.1). M.Vilayi Qərb imperializminin xalqların azadlıq mübarizəsini məhz onlar arasında təfriqə yaratmaqla, qardaş qırğını törətməklə məğlub etməyə çalışdığını göstərir və bildirirdi ki, Pəhləvilərin İrandakı müxtəlif xalqları zorla farslaşdırmağa çalışması imperializm siyasətinin tərkib hissəsidir və bu yolla qeyri-farsları İrana düşmən edib ölkəni zəiflətməyi qarşısına məqsəd qoymuşdur (Vilayi, 1948, 10 yanvar, s.4).

M.Vilayi Pəhləvilərin şovinizm siyasətinə qarşı çıxaraq İranda yaşayan müxtəlif xalqların milli haqlarının qorunması və onların dostluğu ideyasını vurğulamış, ADF-nin məhz bu yolla İranda demokratiya və azadlığa nail olmaq istədiyini, vahid bir xalqlar ailəsi qurmaq arzusunu göstərmişdir (Vilayi, 1948, 10 yanvar, s.4). "21 Azər" hərəkatının əhəmiyyətini qeyd edən M.Vilayi "Azadlıq uğrunda şəhid olmuş qəhrəmanımızın xatirəsi əbədi yaşayacaqdır!" adlı məqaləsində göstərirdi ki, "21 Azər" hərəkatı şah hökumətinin zülm və əsarətinə, törətdiyi cinayətlərə son qoydu. Azərbaycan xalqı bu demokratik hərəkatın vasitəsi ilə ictimai, mədəni və mütərəqqi yollar ilə irəliləyərək öz müqəddəratını həll etməyə nail oldu (Vilayi, 1947, 13 dekabr, s.1). Lakin şah hökumətinin "21 Azər" hərəkatını xaincəsinə məğlub etdiyi, hətta Cənubi

Azərbaycanı zəbt edən şah ordusu hərbçilərinin ayaqları altında ADF fəallarının qurban kəsilməsi müəllif tərəfindən ürək ağrısı ilə nəql edilmişdir. M.Vilayi göstərirdi ki, şəhid olmuş qəhrəman oğullarımızın xatirəsi bütün Azərbaycan xalqının və İran hürriyyətçilərinin qəlbində əbədi olaraq yaşayacaqdır (Vilayi, 1947, 13 dekabr, s.1).

M.Vilayinin yazılarında "21 Azər" hərəkatının görkəmli xadimləri – Baş prokuror F.İbrahimi, həkim N.Baqiri kimi görkəmli şəhid ziyalıların həyatı və mübarizə tarixi işıqlandırılmış və oxuculara çatdırılmışdır. M.Vilayi yazırdı ki, bu fədailər şəhadətləri ilə öz qəhrəmanlığını sübut etdilər (Vilayi, 1947, 13 dekabr, s.1) və əbədi olaraq millətimizin qəlbində yaşayacaqlar (Vilayi, 1949, 1 yanvar, s.3). M.Vilayi məqaləsində göstərirdi ki, F.İbrahimi öz xalqının milli demokratik hərəkatını qəhrəmancasına müdafiə etmiş və son nəfəsində də düşmənə təslim olmayıb, Azərbaycan oğullarını öz hərarətli sözləriylə mübarizəyə çağırmışdır. F.İbrahimi həbsdə olduğu müddətdə də şah rejiminə mənən təslim olmamış, onu həbs edənlərin xalqın təmsilçisi yox, "quldur" olduqlarını, zəhmətkeşləri təmsil etmədiyini göstərmişdir. O, dar ağacında - "mübarizəmiz davam edəcəkdir", demişdir (Vilayi, 1947, 13 dekabr, s.1).

M.Vilayinin məqalələrində Azərbaycan mədəniyyət tarixinin müxtəlif məsələləri, Şah İsmayılın Səfəvi bayrağı altında vahid dövlət qurma təşəbbüsü, Səfəvi dövlətini, Təbriz şəhərini elm, mədəniyyət, iqtisadi, ticari inkişaf mərkəzinə çevirməsi, Osmanlı dövlətinin Azərbaycana işğalçılıq yürüşləri əks olunub (Vilayi, 1948, 9 iyun, s.3). Həmçinin Sovet Azərbaycanında xalqlar dostluğu mövzusu (Vilayi, 1948, 4 avqust, s.1, 4), Sovet Azərbaycanı mədəniyyətinin müxtəlif məsələləri, xüsusilə Ü.Hacıbəylinin həyat və yaradıcılığının araşdırılması M.Vilayinin publisistikasında əsas yerlərdən birini tutur (Vilayi, 1948, 27 noyabr, s.4).

M.Vilayinin yazılarında Pəhləvi hakimiyyətinin hərbi siyasəti tənqid edilir. Müəllif göstərirdi ki, Qərb imperializminin təsiri altında olan şah qoşunu İran istiqlalını, məmləkəti mühafizə etmək üçün təşkil olunmamışdır. Bu qoşun Pəhləvi diktatorluğunu və hakim təbəqənin mənafeyini qorumaqdan ötrü yaradılmışdır (Vilayi, 1948, 29 dekabr, s.1). Müəllifə görə xalq ilə hakim təbəqə, xalq ilə ordu arasında barışmaz ziddiyyət vardır və bu ordu xalq əleyhinə, azadlıq əleyhinə hakimiyyətin əlində bir silahdır. M.Vilayi yazırdı ki, şah ordusundakı zabitlərin sinələrindəki medallar İranın məzlum xalqlarının inqilabi hərəkatını yatırmaq və silahsız kütlələri öldürüb qarət etmək nəticəsində qazanılmışdır (Vilayi, 1948, 29 dekabr, s.1).

M.Vilayi göstərirdi ki, İran ordusunun Cənubi Azərbaycanı zəbt etdiyi 1946-cı ilin 13 dekabr (21 Azər) gününü "Zəfər bayramı" elan edən Məhəmmədrza şahın işğalçılıq arzusuna bir gün son qoyulacaq və Azərbaycan xalqı öz azadlıq və istiqlalı uğrunda mübarizəsində qalib gələcəkdir (Vilayi, 1948, 29 dekabr, s.1). M.Vilayi "Fədailərimiz mübarizə cəbhəsində" adlı məqaləsində yazırdı ki, iki ildən artıqdır ki, mürtəcelər və imperialistlər ölkəmizdə ağalıq edir, hər cür cinayət törətməkdən əl çəkmirlər. İrticanın tökdüyü qanlar və xalqımıza etdikləri zülm, işgəncə cəzasız qalmayacaqdır. Xalqımızın mübarizəsi davam edəcəkdir (Vilayi, 1949, 2 fevral, s.3).

M.Vilayinin "Azərbaycan" qəzetində yer alan hekayələri də maraqlıdır. Onun "Tehranda" adlı hekayəsində oğlu demokrat olduğu üçün öldürülən və kimsəsiz qalan azərbaycanlı qoca kişinin qış aylarında iş axtarması nəql edilir və qocanın diliylə belə deyilir: "Mən necə bədbəxtəm. Dünyada öz sərvət və nemətilə məşhur olan əziz vətənim Azərbaycanı yadların təzyiqi ilə tərk edib, indi qürbətdə bir tikə çörək üçün iş deyədeyə qapı-qapı gəzirəm, onu da tapa bilmirəm" (Vilayi, 1949, 15 yanvar, s.3).

ADF hakimiyyəti dövründə Milli Məclisin katibi olmuş M.Vilayinin "Cənubi Azərbaycanda milli azadlıq uğrunda demokratik mətbuatın mübarizəsi (1945-1946-cı illər)" və "Milli Hökumətin siyasi, iqtisadi və mədəni reformlarının yerinə yetirilməsində demokratik mətbuatın mübarizəsi" adlı əsərləri, "Azərbaycan" qəzetindəki müxtəlif məqalələri dövrün hadisələrinin canlı şahidi olmuş bir ziyalının mövqeyini əks etdirməsi baxımından çox qiymətlidir. M.Vilayi İranda demokratikləşmənin məhz "xilaskar" sovet ordusunun İrana müdaxiləsindən və faşizm üzərində qələbəsindən sonra gücləndiyini xüsusi qeyd edir (Vilayi. Cənubi Azərbaycanda.., s.2). O, ADF-nin qələbəsindən sonra Azərbaycan dilinin dövlət dili olması haqqında Milli Hökumətin verdiyi qərarın və Təbrizdə "darülfünun" (universitet-Ə.F.) açılmasının əhəmiyyətini xüsusi vurğulayır (Vilayi. Milli Hökumətin.., s.2).

M.Vilayinin əsərləri dövrün ictimai-siyasi, sosial-iqtisadi mənzərəsini təsvir etmək baxımından çox təsirlidir. Onun əsərlərinin təhlili şah rejiminə, Pəhləvi şovinizminə qarşı mübarizədə ADF-nin və milli, demokratik mətbuatın rolunu öyrənmək, orta əsrlər mədəniyyətimizin və Şimali Azərbaycan ziyalılarının cənubda təbliği baxımından əvəzsizdir və öz yeni tədqiqatçılarını gözləyir (Fərhadov, 2024, s.117-125).

Mədinə Gülgün (1926-1991)

"Azərbaycan" qəzetinin 1947-1949-cu il nömrələrində əslən Ərdəbildən olan Mədinə Gülgünün şeirləri təqdim olunsa da, fotoşəkli yer almır. Təqdim olunan şəkil qəzetin 1945-ci il sayından götürülmüşdür (Təbrizdə şairlər məclisinin böyük ədəbi gecəsi, Azərbaycan, 1945, 18 noyabr, s.2; "Azərbaycan" qəzeti.., 2022, s.529). M.Gülgün 1926-cı ildə Bakıda anadan olub, daha sonra ailəsi ilə birlikdə Ərdəbildə və Təbrizdə yaşamışdır. ADF-yə üzv olan şair Milli Hökumət dövründə "Yazıçılar və Şairlər Cəmiyyəti"nin üzvü olmuş, şeirləri dərs kitablarında nəşr edilmişdir. M.Gülgün "Azərbaycan" qəzetinin müxbiri olmuş, milli azadlıq hərəkatına verdiyi töhfələrə görə "21 Azər" medalı ilə təltif edilmişdir. O, ADF hökumətinin süqutu ərəfəsində yazdığı "Cəbhədəki qardaşlarıma!" şeiri ilə fədailəri xalqın azadlığı uğrunda mübarizliyə səsləmişdi (Gülgün, 1325 (1946), 16 azər (7 dekabr), s.7).

Təbrizin şah ordusu tərəfindən zəbti ərəfəsində M.Gülgün Bakıya gəlmiş, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda dil-ədəbiyyat fakültəsində təhsil almışdır. O, Azərbaycan Yazıçılar İttifaqının və SSRİ Yazıçılar İttifaqının üzvü olmuş, bir çox şeir kitabı Bakıda çap edilmişdir. M.Gülgün mühacir şair Balaş Azəroğlunun həyat yoldaşı olmuşdur (Kafkasiyalı, 2002, s.424-425; Cənubi Azərbaycan ədəbiyyatı.., 1988, s.258-259). M.Gülgünün "Anama" (Gülgün, 1947, 16 dekabr, s.3),

"O gün yaxınlaşır" (Gülgün, 1948, 23 iyun, s.3), "Mənimdir!" (Gülgün, 1948, 25 avqust, s.3) və s. şeirləri "Azərbaycan" qəzetində yer alır. Şair "Yenə güləcəkdir üzünə həyat" adlı şeirində milli azadlıq ümidini, qələbə əzmini təbliğ edərək belə yazırdı:

"Adın dilimizdə bir şüar kimi,
Qırarıq qolundan zəncirləri biz.
Yaşarıq qoynunda bəxtiyar kimi,
Sənlə sevinir, gülür xəlqimiz,
Qırarıq qolundan zəncirləri biz" (Gülgün, 1949, 12 yanvar, s.3; Fərhadov, 2024, s.172-173).

M.Gülgünün şeirlərində Təbriz həsrəti, milli mübarizə, azadlığa ümid, ictimai-siyasi, milli maarifçilik təbliğ edilir və gənc nəslin milli, demokratik ruhda böyüməsi və müstəbid, mürtəce rejimlərə qarşı mübariz yetişməsi üçün böyük əhəmiyyətə malikdir.

Aşıq Hüseyn Cavan (1916-1985)

"Azərbaycan" qəzetinin 1947-1949-cu il saylarında Aşıq Hüseyn Cavanın (1916-1985) şeirləri yer alsa da, şəkli təqdim edilməmişdir. "Sən də dön rizvana (cənnət-Ə.F.), Vətən!" deyən şairin şəkli qəzetin 19 noyabr 1945-ci il sayından götürülmüşdür (Ağayi Aşıq.., 1945, 19 noyabr, s.3). Əslən Cənubi Azərbaycandan olan aşıq kiçik yaşlarından Şimali Azərbaycana köçmüş, Ağkilsədə Aşıq Ələsgərin qardaşı oğlu Musadan səkkiz il aşıqlıq sənətini öyrənmişdir.

1938-ci ildə Cənubi Azərbaycana dönən aşığın Təbriz qəzetlərində şeirləri nəşr edilmişdir. Aşıq Hüseyn ADF hökuməti dövründə Aşıqlar Ansamblının rəhbəri olmuşdur. Hökumət tərəfindən aşığa "Sənətkar Xalq artisti" adı və "21 Azər" medalı verilmişdir. ADF hökumətinin süqutundan sonra aşıq Bakıya köçmüş, burada yaradıcılıq fəaliyyəti ilə məşğul olmuşdur. Azərbaycan Yazıçılar İttifaqının üzvü olan aşığın Bakıda kitabları nəşr olunmuş, ona Azərbaycanın "Əməkdar Mədəniyyət işçisi" adı verilmişdir (Kafkasiyalı, 2002, s.213-214; Cənubi Azərbaycan ədəbiyyatı.., s.157-158). "Azərbaycan" qəzetində Aşıq Hüseyn Cavanın "Təbrizim" (Cavan, 1948, 29 may, s.3), "Firqəmiz" (Cavan, 1948, 29 dekabr, s.3), "Günəşə doğru" (Cavan, 1949, 5 fevral, s.3) və s. şeirləri yer alıb. "Bayquş" şeirində o, ölkəni xarici imperialistlərə satanları bayquş adlandıraraq belə yazırdı:

"Kimin siyasəti dolub başına,
Satırsan İranı yadlara, bayquş!
Sən olsan peyğəmbər, heç kim inanmaz,
Götürsən əlinə Quranı, bayquş!" (Cavan, 1948, 27 mart, s.3).

"Kommunist" qəzetinin 12 may 1946-cı il tarixli sayında Aşıq Hüseyn Cavanın sovet ordusuna ithaf edilən "Getmə" qoşması yer alır. Məlumdur ki, 1945-ci ildə Cənubi Azərbaycanda şah rejimi əleyhinə azadlıq hərəkatını dəstəkləyən sovet ordu birləşmələrinin komandanlığı bir müddət sonra əsgərlərinə İrandan geri çəkilmək haqqında göstəriş verir. Aşıq bu hadisədən təsirlənərək duyğularını belə dilə gətirmişdir:

"Hüseynəm, mən sənsiz necə dözərəm,
Gecə-gündüz fərağında gəzərəm.
Mənə əl qaldırsa düşmən, əzərəm,
Sən mənə öyrətdin bu halı, getmə" (Əliyev, 2020, s.108; Fərhadov, 2024, s.171-172).

Aşıq Hüseyn Cavanın şeirlərində xalqın ADF-yə olan inamı, şah rejiminə qarşı mübarizəsi, qələbə əzmi tərənnüm olunub. Bu şeirlər gənc nəslin milli şüurunun, vətən sevgisinin artması baxımından böyük təsirə malikdir.

Üzeyir Hacıbəyli (1885-1948)

"Azərbaycan" qəzetində Şimali Azərbaycan ziyalılarına geniş yer verilib. Qəzetdə xüsusilə Ü.Hacıbəylinin yaradıcılığı geniş işıqlandırılmışdır. Burada göstərilirdi ki, Azərbaycan xalqının böyük bəstəkarı, SSRİ xalq artisti, iki dəfə Stalin mükafatı laureatı, Ali Sovetin deputatı akademik Üzeyir Hacıbəyli ağır xəstəlikdən sonra vəfat etmişdir. Azərbaycan xalqı onun simasında özünün sadiq oğlunu və dahi sənətkarını itirmişdir.

Qəzetdə Ü.Hacıbəylinin cavan vaxtlarından xalq mahnılarına və musiqiyə böyük həvəs göstərdiyi, Qori şəhərinə gedərək müəllimlik təhsili alan bəstəkarın musiqiyə olan marağını daha da inkişaf etdirdiyi vurğulanırdı. O, Qori Müəllimlər Seminariyasından məzun olduqdan sonra bir müddət müəllimlik etmiş, Peterburqda musiqi təhsili almışdır. Ü.Hacıbəyli sovet hakimiyyətinə qədər yaratdığı əsərlərdə xalqının qabaqcıl bir demokratı kimi meydana çıxmışdır.

"Azərbaycan" qəzetində göstərilirdi ki, Ü.Hacıbəyli öz əsərləri və məqalələri ilə çar hakimiyyətini, mütləqiyyətin ən ağır şəraitində xalqın ayağına buxov kimi sarılmış çürük, köhnə ənənələri, məişət və şüurlardakı mənfi cəhətləri tənqid edir, xalqı mübarizəyə dəvət edirdi. O, elmi, mədəniyyəti, azadlığı tərənnüm edərək xalqı tərəqqi yoluna çağırırdı. Azərbaycanda birinci dəfə olaraq o, inqilabi demokratik ideyaları ilə dolı olan operanın və musiqili komediyanın əsasını qoymuşdur.

Onun "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşid Banu", "Koroğlu" kimi operaları, "Məşədi İbad", "Arşın mal alan" kimi musiqili komediya əsərləri Şərq aləmində və səhnəsində indi də sevinclə oynanmaqdadır. Ü.Hacıbəylinin əsərləri, onun musiqisi xalqın həyatı ilə sıx əlaqədardır. Onun əsərləri köhnə adət-ənənələri bir ayna kimi özündə əks etdirir, əsərlərində gülüşün arxasında təsvir etdiyi xalqın iztirablı həyatı əks olunur. Ü.Hacıbəyli öz həyatını doğma Azərbaycanın incəsənətinə həsr etmişdir. "Azərbaycan" qəzeti göstərirdi ki, o, rus xalqının mədəniyyət xəzinəsinin zəngin musiqisini öyrənmiş və öz yaradıcılığında ondan layiqincə istifadə edə bilmişdir.

"Azərbaycan" qəzeti yazırdı ki, sovet hökuməti və Kommunist Partiyası Ü.Hacıbəylinin yaradıcılıq fəaliyyəti üçün geniş imkanlar yaratmışdır. Onun əsərləri dünyanın bir çox dillərinə, o cümlədən "Arşın mal alan" musiqi komediya əsəri 37 dilə tərcümə olunmuşdur. 1937-ci ildə yazdığı "Koroğlu" operası Ü.Hacıbəylinin şah əsəri sayılır. Bu operada bəstəkar Azərbaycan xalqının öz azadlıq və istiqlaliyyəti uğrunda feodallara və xarici işğalçılara, Osmanlı sultanlarına qarşı qəhrəman mübarizəsini əks etdirmişdir. Bu əsər Moskvada oynanmış və rus dilinə tərcümə edilmişdir.

Qəzetdə vurğulanırdı ki, Ü.Hacıbəylinin milli musiqimiz qarşısındakı xidmətləri böyükdür. O, Azərbaycan konservatoriyasını təsis etmiş və Azərbaycan bəstəkarlarının yetişməsində böyük rol oynamışdır. Onun tərəfindən Azərbaycanın dahi şairi Nizami Gəncəvinin "Sənsiz", "Sevgili canan" kimi şeirlərinin Azərbaycan musiqisinə tətbiq edilməsi xalqımızın dilinin əzbəri olan və ən sevdiyi, eşitməkdən doymadığı parçalardır. Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" adlı əsəri dünya musiqişünaslıq elmi xəzinəsinə qiymətli hədiyyədir. Bu əsər xalq musiqisini öyrənmək və Şimali Azərbaycanın formaca milli, məzmunca sosialist yeni sovet musiqi mədəniyyətini yaratmaq işində parlaq səhifələr açmışdır.

"Azərbaycan" qəzeti yazırdı ki, xalqının fəxri olan bu böyük bəstəkar alim vəfat etsə də, onun əsərləri, o cümlədən mahnıları ilə milyonlarla insanların beyinlərində, ürəklərində hər an yaşayır. Onun insana ruh verən musiqisi həmişə yaşayacaqdır. Ü.Hacıbəylinin əsərlərinin bir çox dillərə tərcümə olunması və xarici ölkələrdə nümayiş edilməsi milli mədəniyyətimizin dünya miqyasında tanınmasını təmin etmişdir.

ADF hökuməti dövrində Ü.Hacıbəylinin musiqi əsərləri Cənubi Azərbaycanda - Təbrizdə, Urmiyada, Ərdəbildə, Xoyda, Marağada, Əhərdə, Mərənddə və sair şəhərlərdə, habelə Tehranda böyük sevinclə səhnələrdə dəfələrlə tamaşaya qoyulmuş və geniş kütlə tərəfindən alqışlanmışdır. Şərqin böyük bəstəkarı Ü.Hacıbəylinin anadan olmasının 60 illiyi və yaradıcılıq fəaliyyətinin 40 illiyi münasibətilə 1945-ci ildə Təbrizdə ziyalılar və incəsənət işçiləri böyük tədbir keçirmiş, xalqımız adından bəstəkara təbrik teleqramı və hədiyyələr göndərilmişdi. Şairlərimiz ona şeirlər həsr etmişdi. Ü.Hacıbəylinin vaxtsız ölümü Sovet Azərbaycanının zəhmətkeşlərini və ziyalılarını kədərləndirdiyi kimi Cənubi Azərbaycan əhalisi də öz doğma oğlu və iftixarı olan bu böyük bəstəkarın ölümünü matəm günü sayırdı. "Azərbaycan" qəzeti yazırdı ki, Ü.Hacıbəylinin incəsənət aləmindəki xidməti, özündən sonra yadigar olaraq qoyduğu əsərləri və xatirəsi bir qiymətli gövhər kimi Azərbaycan xalqının milli mədəniyyətində, xalqımızın ürəyində əbədi yaşayacaqdır (Vilayi, 1948, 27 noyabr, s.4). Qəzetdə mühacir şair Əli Tudənin Ü.Hacıbəyliyə həsr etdiyi "Sənin nəğmən" adlı şeiri təqdim edilmişdir. Ə.Tudə bu şeirində belə deyirdi:

"Qoca Nizaminin şeiri, qəzəli,
Sənin avazınla dil açdı, dindi...
Gözündə yaş donmuş Təbriz gözəli
Sənin təranənlə güldi, sevindi...
***

İndi tapdansa da məskənim, həqqim,
Hər elim, hər obam böyük ordudur...
Döyüş təlimini mənim də xəlqim
Sənin "Koroğlu"ndan öyrənir, budur" (Tudə, 1948, 27 noyabr, s.4).

"Azərbaycan" qəzetində Ü.Hacıbəylinin yaradıcılığının tədqiqi və təbliği Cənubi Azərbaycan əhalisinin milli şüurunun, milli duyğularının güclənməsinə xidmət edirdi və bu istiqamətdə iş ADF rəhbərliyinin və qəzetin redaksiyasının əsas prioriteti olmuşdur.



Səməd Vurğun (1906-1956)

"Azərbaycan" qəzetində Üzeyir Hacıbəyli ilə yanaşı Səməd Vurğun haqqında da cənublu oxuculara məlumat verilir, çıxışları təqdim olunur. Lakin qəzetdə onun fotoşəkli təqdim olunmamışdır. II Dünya müharibəsi dövründə S. Vurğun "Azərbaycan - İran Mədəni Əlaqələr Cəmiyyətinin" sədri seçilmişdi (Həsənli, 1998, s.125). O, İranla həm mədəni, həm də siyasi əlaqələrin inkişafına xidmət etmişdir. "Azərbaycan" qəzetində S. Vurğunun cənublu soydaşlarımızın hüquqlarının müdafiəsi sahəsindəki çıxışlarına yer verilmişdir. Qəzet 1948-ci ildə Polşanın Vrotslav şəhərində keçirilən "Mədəniyyət xadimlərinin ümumdünya konqresi"ndə çıxış edən S.Vurğundan sitat gətirərək yazırdı ki, Azərbaycan xalqının yarıdan çoxu Azərbaycanın o tayında yaşayır. İndi İran Azərbaycanının bütün küçə meydanlarında dar ağacları qurulduğı, bütün ölkənin zindanlara çevrildigi hamıya məlumdur. İran irticasına xidmət edənlər, Azərbaycanın azadlıq sevən oğullarını məhkəməsiz və istintaqsız bu dar ağaclarından asırlar. Azərbaycan millətinin xaricdə yaşayan beş milyonluq hissəsinin ana dili zorla əllərindən alınmışdır. Bütün İranda Azərbaycan dilində dərs keçən bir məktəb belə yoxdur. Uşaqların hamısını zorla fars dilində oxutdururlar. Azərbaycan dilində yazılmış kitablara od vurub yandırırlar. Lakin bu mürtəcelər bir həqiqəti başa düşmürlər ki, heç bir millətin dilini, bütün Yaxın Şərqdə məşhur olan şair Füzulinin əsərinə

ilham verən xalqın dilini məhv etmək olmaz. Milli azadlıq və istiqlal olmayan yerdə elm və mədəniyyət ola bilməz. S.Vurğun öz etiraz səsini ucaldaraq deyirdi ki, İran mürtəceləri kaş ki, öz ulu babalarının tarixindən utanaydılar! Xaricdəki 5 milyonluq qardaş və bacılarımızın əleyhinə XX əsrə yaraşmayan inkvizisiya tədbirlərinə mən, Azərbaycan mədəniyyətinin nümayəndəsi və Azərbaycan xalqının şairi olmaq etibarilə öz etiraz səsimi ucaldıram (Dünya mədəniyyət.., 1948, 25 sentyabr, s.1, 4).

Cənubi Azərbaycan şairləri və mütəfəkkirəri S.Vurğun yaradıcılığına yüksək qiymət verirdilər. Mühacir şair Balaş Azəroğlu Səməd Vurğuna olan xalq məhəbbətini "Bakı səfəri" poemasında tərənnüm etmişdir. S.C.Pişəvəri də 1943-cü ildə Bakıda olarkən S.Vurğunla görüşmüş, Tehrana qayıtdıqdan sonra baş redaktoru olduğu "Ajir" qəzetində şair haqqında məqalə yazaraq, onun şeirlərini "Heca vəznində yazılmış ən gözəl Azərbaycan şeiri" adlandırmışdır (Əliqızı, 2007, s.20).

S.Vurğunun 1941-ci ildə Təbrizdə nəşr edilmiş "Təbriz gözəlinə" adlı şeirlər kitabı və şairin "Azərbaycan", "Yandırılan kitablar" adlı şeirləri onu cənubda məşhur etmiş və soydaşlarımıza sevdirmişdi. B.Azəroğlu yazırdı ki, S.Vurğunun "Yandırılan kitablar" şeirini oxuyarkən gözümün qabağına 1946-cı ilin qış günlərində Təbrizin Bələdiyyə meydanında şah məmurları tərəfindən yandırılan kitablar, alovları göyə yüksələn kitab tonqalları canlanmışdı. Şair Ə.Tudə isə 1947-ci ildə S.Vurğunla görüşərkən onu "ağ saçlı Savalan dağı"na oxşatmışdı (Əliqızı, 2007, s.20-22).

"Azərbaycan" qəzetində Nizaminin "Leyli və Məcnun" əsərinin Səməd Vurğun tərəfindən ana dilimizə tərcümə edilməsi böyük milli-mədəni hadisə kimi təqdim edilir və göstərilirdi ki, Azərbaycan xalqının böyük iftixarı olan Nizami Gəncəvinin əsərləri bu gün də öz məna genişliyi və incəliyi ilə xalqımızın dilində yaşayır və dilimizin ədəbi zinətlərini daha da zənginləşdirir. Çoxəsrlik fasiləyə baxmayaraq bu gün Nizaminin "Leyli və Məcnun" əsəri ana dilimizdə elə tərcümə

olunub ki, sanki Nizami özü öz ana dilində bu əsəri yazmışdır (Məhəmmədzadə, 1948, 14 avqust, s.4). Nizaminin "Leyli və Məcnun" əsərini türkcə yazmaq istəməsi, lakin şirvanşahın tələbilə onu fars dilində yazması "Azərbaycan" qəzetində xüsusi vurğulanmışdır və bunu şərh edən "Azərbaycan" qəzeti göstərirdi ki, bu dəlil azərbaycanlıların səlcuqlardan və ya monqol işğalından sonra türkləşdiyini iddia edən fars şovinistlərinə ən böyük cavabdır ("Azərbaycan" qəzeti.., 2022, s.187, 305, 562).

"Azərbaycan" qəzetində Səməd Vurğunun yaradıcılığının tədqiqi və təbliği Cənubi Azərbaycan əhalisinin demokratik düşüncəsinin, milli şüurunun güclənməsinə və Pəhləvi şovinizmi ilə mübarizəyə xidmət edirdi və bu istiqamətdə iş ADF-in və qəzetin redaksiyasının əsas ictimai-siyasi, mədəni istiqaməti olmuşdur.

HƏRBİ XADİMLƏR VƏ FƏDAİLƏR

Səttarxan (1866-1914)

Bağırxan (1862-1916)

Müzəffərəddin şah Qacardan sonra 1906-ci ildə taxta çıxan oğlu Məhəmmədəli şah atasının qəbul etdiyi konstitusiyanı və parlamentarizm sistemini ləğv edib diktatura rejimini qurdu. Onun əleyhinə birinci üsyan bayrağını qaldıran azərbaycanlılar və Təbriz fədailərinin başçısı qəhrəman Səttarxan oldu. Səttarxan hərəkatında iştirak edən azərbaycanlılar ölkədə siyasi rejimin dəyişilməsini tələb edirdilər. İranda birinci dəfə idi ki, ölkənin bir əyaləti kütləvi silahlı üsyana başlayıb, öz siyasi hüquq və tələblərini irəli sürürdü. Cənubi Azərbaycanda başlamış bu hərəkat İranın başqa ərazilərinə də təsir etdi. Bütün İran Məhəmmədəli şaha baş əysə də, Təbriz təslim olmadı. Bu qəhrəman şəhərin əhalisi dörd tərəfdən mühasirəyə alındı. Şəhər 9 ay müddətində sudan, azuqədən, silahdan və kömək gələn yollardan məhrum edildi. Düşmən qüvvələri təbrizliləri mühasirəyə alıb məğlub etmək istədilər. Lakin Səttarxan kimi sərkərdəsi olan bu şəhər mübarizədə möhkəm olub, düşmənə çox az bir qüvvə ilə qalib gəldi. İrana azadlıq günəşi, məşrutə

işığı Cənubi Azərbaycandan doğdu. Şiraz, Xorasan, İsfahan və Tehran zəhmətkeşləri Azərbaycan əhalisinə minnətdar olduqlarını bildirdilər. Təbrizlilərin bu tarixi xidməti İranın siyasi tarix səhifəsinə yazıldı. Sərdari-milli (milli komandan-Ə.F.) Səttarxanın və Salari-milli (milli sərkərdə-Ə.F.) Bağırxanın şəkilləri Cənubi Azərbaycanda və bütün İranda evlərin, məktəblərin, idarələrin bəzəyi olmuşdu. Ə.Kəsrəvi kimi tarixçilər İran tarixindən bəhs edərkən, Cənubi Azərbaycanın İrana böyük xidmətlər etdiyini qeyd etmək məcburiyyətində qalmışdılar (Həbibi, 1948, 2 iyun, s.1, 4). Azərbaycanın qeyrətli sərkərdəsi Səttarxanın rəşadəti və mücahidlərin fədakarlığı nəticəsində Məhəmmədəli şahın qoşunları məşrutəçilərə məğlub olmuşdu (Həbibi, 1948, 14 aprel, s.3).

Şah hökuməti açıq mübarizə meydanında azərbaycanlıların qabağında aciz qaldığından həmişə xəyanət yolu ilə azadlıq hərəkatını boğmuşdur. İran məşrutə inqilabının rəhbəri, Azərbaycanın mübariz oğlu Səttarxanı 1291 (1912)-ci ildə qonaq adıyla Tehrana çağırtdırıb Atabəy bağında xəyanətlə yaralayıb öldürdülər. Şah hökuməti bu vasitə ilə Cənubi Azərbaycanda inqilabi hərəkatı boğmaq və beləliklə bu hərəkatın İrana təsir etməsinin qabağını almaq istəyirdi. Lakin bu səhv fikir idi. Qanında və iliyində azadlıq ruhu olan azərbaycanlıları xəyanət və cinayətlərlə qorxutmaq mümkün deyildi (Həbibi, 1948, 19 iyun, s.3).

"Azərbaycan" qəzeti 1905-ci il rus inqilabının Şərq xalqlarını ruhlandıraraq İran məşrutə inqilabına və Səttarxan hərəkatına yaradıcı təsir göstərdiyini, Cənubi Azərbaycanda məşrutə günəşinin doğduğunu (Böyük oktyabr.., 1948, 6 noyabr, s.1) və dövrün bolşevik lideri V.İ.Leninin Səttarxanı "İranın Puqaçovu" adlandırdığını qeyd edirdi (Leninizm.., 1949, 22 yanvar, s.1). Lakin bu qəhrəmanın məzarı şah hökuməti tərəfindən ayaqlar altına atıldı. "Azərbaycan" qəzeti yazırdı ki, xalqın qəddar düşməni olan hakim təbəqə Azərbaycan xalqının iftixarı olan bu milli qəhrəmanların adını tarix

səhnəsindən silmək məqsədini güdür. Bu gün Tehran yaxınlığındakı Şah-Əbdüləzim məzarlığına gedən hər bir şəxs təkcə azərbaycanlıların yox, bütün İran xalqlarının hörmət etdiyi qəhrəman Səttarxanın qəbrinin adi bir şəxsin qəbri kimi ayaq altında əzildiyini görür. Şah hökuməti bu cür qəhrəmanlara heykəl qoymaq və məzarları üstündə məqbərə ucaltmaq əvəzinə onların xatirəsini yox etməyə çalışır. Qəzet göstərirdi ki, yaxın gələcəkdə zalım Rza şahın və onun oğlu Məhəmmədrza şahın heykəllərini xalqımız məhv edəcək və öz qəhrəman oğullarının heykəl və məqbərələrini bərpa edəcəkdir (Rza xanın.., 1948, 13 noyabr, s.4). Tarix bu fikirləri təsdiq etdi.

ADF hökuməti dövründə Təbrizdə "Səttarxan" ordeni təsis edilmiş, Səttarxanın adına xiyaban salınmış, lakin "21 Azər" hərəkatının süqutundan sonra onun adı dəyişdirilib "Pəhləvi xiyabanı" olmuşdu. "Azərbaycan" qəzeti bu haqda yazırdı ki, Təbrizdə azərbaycanlıları qurbanlıq qoyun kimi kəsən Rza xanın adına xiyaban olmamalıdır. Bunlar ruhumuzu incidir ("Azərbaycan".., 2022, s.111).

"Azərbaycan" qəzetində Səttarxanın silahdaşı, təbrizli məşrutəçi Bağırxana da yer verilib və göstərilirdi ki, onların fədakarlığı ilə Cənubi Azərbaycanda başlayan inqilabi hərəkat İranın bütün şəhərlərinə sürətlə yayıldı. Bu inqilab şah rejiminə və xarici imperialistlərə ağır zərbələr endirib, İran xalqları üçün məşrutəli (konstitusiyalı-Ə.F.) hökumət və qanuni-əsasi (konstitusiya-Ə.F.) əldə etdi (Böyük oktyabr.., 1948, 6 noyabr, s.1). Qəzetdə inqilabi hərəkatı məhv etmək üçün Səttarxandan sonra Bağırxanın da Urmiya bölgəsindəki Sulduz mahalında öldürüldüyü göstərilirdi (Həbibi, 1948, 19 iyun, s.3).

"Azərbaycan" qəzetində Səttarxan hərəkatı "21 Azər" hərəkatının ideya mənbəyi kimi yad edilir, gənclərə nümunə göstərilir və ona həsr olunan şeirlərdə belə deyilirdi:

"Heç yadımdan çıxmaz rəşid Səttarxan,
Yığdı öz başına Azər ellərin,

Qan içən şahlara eylədi üsyan,
Kəsdi yurdumuzdan düşmən əllərin" (Zakir, 1949, 19 fevral, s.3).

"Azərbaycan" qəzeti şah rejiminə qarşı yeni mübarizələr üçün yeni Səttarxanlara ehtiyac olduğunu yazır və belə deyirdi:

"Hanı bəs qəhrəman Səttarxan, hanı?
Çağır imdadıva o mərd insanı,
Bəlkə islah (xilas) edə Azərbaycanı,
Bir təkan verə bu zəmanə Təbriz" (Biriya, 1945, 21 noyabr, s.4; Azərbaycan, 1947, 2 dekabr, s1).

"Azərbaycan" qəzetində Səttarxan və Bağırxanların əziz xatirəsinin unudulmadığı, müxtəlif əsərlərdə yaşadıldığı vurğulanır. O cümlədən, Sovet Azərbaycanı yazıçısı M.S.Ordubadinin "Dumanlı Təbriz" romanında bu qəhrəmanların öz bədii surətlərini tapdığı, onların şanlı mübarizəsinin qələmə alındığı qeyd olunmuşdur (Şəmidə, 1948, 3 yanvar, s.1). ADF hökuməti dövründə bu qəhrəman mücahidlərə heykəl qoyulduğunu və şah rejimi tərəfindən bu heykəllərin yıxıldığını göstərən "Azərbaycan" qəzeti belə yazırdı:

"Dedim: hanı Səttarxanın, Bağırxanın heykəli?
Dedi: yenə yüksəldəcək onu xəlqimin əli" (Gülgün, 1948, 29 may, s.3).

Səttarxan və Bağırxanlar məğlub edilsə də, onların inqilabi ideyaları Azərbaycan xalqının şah rejimi əleyhinə mübarizələrinə daim ilham verdi. Onların azadlıq bayrağını Şeyx Məhəmməd Xiyabani yenidən qaldırdı. Təsadüfi deyil ki, "21 Azər" hərəkatı da öz ilhamını məhz Səttarxan və Xiyabani hərəkatlarından almış, onları özünə milli lider saymış və milli qəhrəman və ideoloqlar kimi daim təbliğ etmişdir.

Cəfər Kaviani (1895/1900-1975)

ADF hökumətinin Xalq Qoşunları naziri Cəfər Kaviani Məmmədzadə 1279 (1900) və ya 1895-ci ildə Təbriz yaxınlığındakı Səhlan kəndində anadan olmuş, ibtidai dini təhsil almışdır. C.Kavianinin atası Məhəmmədəli Səhlani inqilabçı olub Səttarxanın rəhbərliyi altında Təbrizdəki məşrutə döyüşlərində şah rejimi əleyhinə mübarizədə fəal iştirak etmişdir. C.Kaviani də azyaşlı olmasına baxmayaraq atası və qardaşı İsrafil ilə birlikdə məşrutə hərəkatına qoşulmuş, məğlubiyyətdən sonra qardaşı İsrafillə birlikdə bir müddət Bakıda yaşamışdı.

C.Kaviani Xiyabani hərəkatı dövründə fədai dəstələrinə komandirlik etmişdir. M.Xiyabaninin ən fəal sərkərdələrindən biri C.Kaviani olmuşdur (Möhsün, 1945, 20 dekabr, s.4). Xiyabani hərəkatı məğlub olduqdan sonra C.Kaviani Təbrizdən uzaqlaşıb gizlənsə də, daha sonra Təbrizə qayıdır. Marksist şair və jandarm zabiti olan Ə.Lahutinin Təbrizdə şah rejimi əleyhinə qiyamı zamanı C.Kaviani ona qoşulur, Təbrizdəki partizan dəstələrinə başçılıq edir. Ə.Lahutinin məğlubiyyətindən sonra C.Kaviani bir müddət Bakıda yaşayır, ali partiya təhsili alır (Назирли).

C.Kaviani Bakıdan İrana qayıtdıqdan sonra 1305 (1926)-cı ildə Təbrizdə "İctimaiyyun-amiyyun" sosial-demokrat firqəsinin fəaliyyətində aktiv iştirak edir. Lakin şah məmurlarının təqibi üzündən öz fəaliyyətini davam etdirə bilməyib həbs

edilir. O, kommunist olmaq ittihamı ilə 7 il Təbriz və Tehran zindanlarında qalır, sonra Zəncana sürgün edilir (Nəzirli, 1991, s.109). Rza şahın hakimiyyətdən qovulmasından sonra o, azad edilir və Tudə partiyasında, sonra isə ADF-də siyasi fəaliyyətlə məşğul olur. C.Kavianinin böyük xidmətlərini nəzərə alaraq onu Milli Məclisə nümayəndə və Xalq Qoşunları naziri seçirlər (Möhsün, 1945, 20 dekabr, s.4). C.Kaviani general rütbəsilə təltif edilir (Qəhrəmanlarımız təqdir olunur, 1946, 5 aprel, s.1).

C.Kavianinin 1 №-li fərmanında deyilirdi ki, Azərbaycanın milli mənafeyini və müqəddəratını müdafiə etmək üçün Azərbaycanda rəsmi xalq qoşunu təşkil olunub. Azərbaycan xalq qoşunu milli bir qoşundur. Hər bir azərbaycanlı sinif və məzhəbindən asılı olmayaraq bu qoşunda xidmət etməyə borcludur. Fərmana görə bu qoşunda xidmət edən hər bir namuslu şəxsin müqəddəs vəzifəsi vətəni yadlardan qorumaqdan ibarət olmalıdır (Nəzirli, 1991, s.110). C.Kaviani uğurlu hərbi-siyasi xidmətlərinə görə ADF rəhbərliyi tərəfindən "Səttarxan" ordeni ilə və "21 Azər" medalı ilə təltif edilmişdi.

ADF-nin məğlubiyyətindən sonra C.Kaviani bir çox ADF-lilər kimi Bakıya mühacirət etməyə məcbur oldu. O, 1975-ci ildə vəfatına qədər Bakıda yaşadı. General C.Kavianinin ölümündən bir ay sonra ADF-nin "Azərbaycan" qəzeti 1975-ci il, 28 fevral tarixli nömrəsində şəkli ilə birgə onun haqqında nekroloq vermişdi. Nekroloqda deyilirdi ki, Cəfər Kaviani gənc yaşlarından ölkənin əsarətdə olmasını və xalqın məşəqqətli həyatını müşahidə etmiş, minlərlə gözüaçıq Azərbaycan oğlu kimi mübarizəyə qoşulmuşdur. O, Azərbaycan Demokrat Firqəsinin qurucularından biri idi. "21 Azər" hərəkatının nailiyyətlərini qoruyub saxlamaq uğrunda geniş mübarizədə Cəfər Kavianinin böyük xidmətləri vardır. Mühacirət illərində də onun bütün fikri vətənin və xalqın həyatı ilə bağlı olmuşdur. O, xalqın qalib gələcəyinə, azad, xoşbəxt İranın yaranacağına dərin inam bəsləyirdi. Bu yolda da

inamla mübarizə aparırdı. ADF hökuməti dövründə Maarif naziri olmuş Məhəmməd Biriya C.Kavianiyə həsr etdiyi şeirdə onu – "Vətən iftixarı, elin əsgəri"; "Ana yurdumuzun iftixarı" adlandırmışdı (Nəzirli, 1991, s.110-111).

C.Kaviani öz hərbi-siyasi fəaliyyətilə vətən və xalq qarşısında böyük xidmətlər göstərmiş, Xalq Qoşunlarının şah rejiminə qarşı mübarizəsinə müvəffəqiyyətlə rəhbərlik etmişdir. Onun vətən və millət qarşısındakı xidmətlərini xalqımız heç vaxt unutmayacaq və daim gənc nəsillərə nümunə olacaqdır.

Mirzə Rəbi Kəbiri (1889-1947)

"21 Azər" hərəkatı dövrünün ən sadiq, ictimai-siyasi, hərbi xadimlərindən biri də general Mirzə Rəbi Kəbiri olmuşdur. M.R.Kəbiri 1268 (1889)-ci ildə Marağada anadan olmuşdur (Azadlıq yolunun..., 1962, s.19; İsmayılov. Mirzə Rəbi...). Uzun müddət məsul dövlət vəzifələrində işləmiş M.R.Kəbiri ürəyində İrandakı irtica üsuluna kin bəsləyirdi. O, özü iri torpaq sahibi olsa da, azadlıq tərəfdarı idi və zəhmətkeş xalqa kömək etməyə çalışırdı (Azadlıq yolunun..., 1962, s.20). M.R.Kəbiri 1323 (1944)-ci ildə Xoyda fərmandar (vali-Ə.F.) olduğu zaman da Tudə Partiyasına kömək etməkdən imtina etməmişdi. O, şah hökumətinin Tudə Partiyasını dağıtmaq əmrinə əməl etməyərək, jandarmların bu işi görməsinə mane olmuşdu. Cənubi Azərbaycanda milli hərəkat başladığı zaman R.Kəbiri ən ön sıralarda oldu. O, şah hökumətinə xidmət etməkdən imtina edib milli hərəkata qoşuldu.

"21 Azər" hərəkatının başlanğıcında M.R.Kəbiri Marağada atlı və piyada fədai dəstələri təşkil edib şah ordusuna və jandarmlara qarşı silahlı mübarizə apardı, onları tərk-silah etdi. O, az vaxt içərisində Marağa, Miyandoab və ətraf əraziləri mürtəce şahpərəst qüvvələrdən təmizləyib sülh və asayişi qorudu (Astiyak, 1948, 14 fevral, s.3). ADF hökuməti zamanında M.R.Kəbiri öncə Marağa valisi (Əlizadə, 2017, s.186), sonra

Poçt, teleqraf, telefon və yol naziri oldu. Həqiqi dövlət və millət xadimi olan R.Kəbiri az bir vaxt içərisində yolları təmir etdirdi, teleqraf və telefon rabitələrini nizama saldı. O, Marağa şəhərini abadlaşdırıb, milli maarifi canlandırdı, kəndlərdə məktəb və hamamlar açdırdı. Ali vəzifələrdə çalışmasına baxmayaraq o, əhali ilə mehriban rəftar edir, səmimiyyət və hörmətlə davranırdı.

Şah hökuməti 1946-cı ilin dekabrında hücum etdiyi zaman Cənubi Azərbaycanın qərb vilayətlərinin sərhədlərinin qorunması M.R.Kəbiriyə tapşırıldı. Bu bölgələrdəki ADF-nin silahlı qüvvələr onun komandanlığı altında idi. Bölgənin dağlıq və ağır şəraitinə baxmayaraq, fədailər şah qüvvələrinin qarşısında mətanətlə dayanmışdılar. ADF hökuməti R.Kəbirinin şücaətinə görə ona general rütbəsini vermişdi (Astiyak, 1948, 14 fevral, s.3).

Şah hökuməti bu cəsur və qabiliyyətli sərkərdəni ADF-dən uzaqlaşdırmaq və öz tərəfinə çəkmək üçün ona Azərbaycan valiliyini təklif etmiş, lakin M.R.Kəbiri – mən Azərbaycan xalqının milli hüququnu qorumaq üçün bu hərəkata qoşulmuşam, şahın bu vəzifəsini qəbul etmərəm, deyərək imtina etmişdi (İsmayılov. Mirzə Rəbi...).

Şah hökumətinin Cənubi Azərbaycanı zəbt etməsindən sonra M.R.Kəbiri Marağada həbs edilərək şəhid edildi. "Azərbaycan" qəzeti yazırdı ki, o, son nəfəsində cəsarətlə öz cəlladlarına belə demişdi: "Mürtəcelər İranın azadlığı yolunda mübarizə edən minlərlə namuslu oğulları dar ağacından asıb güllələmişdir. Lakin hər zaman bu mübarizəni davam etdirən yeni-yeni igidlər meydana gələcək. Bilin ki, mən öz xalqımın səadəti uğrunda çalışmışam və mənim mübarizəmi başqaları davam etdirəcək. Əvvəl-axır azadlıq qalib gələcək və Azərbaycan xalqı bu qanlı əməllərinizin intiqamını alacaqdır" (Vilayi, 1947, 13 dekabr, s.1). O deyirdi ki, bir gün gələcək, Azərbaycan və bütün İran azad və xoşbəxt olacaq (Astiyak, 1948, 14 fevral, s.3).

"Azərbaycan" qəzeti yazırdı ki, Marağanın Xoca Əmir qəsəbəsində şəhid yoldaşımız general Kəbirinin vasitəsilə tikilmiş hamam və məktəb heç vaxt Azərbaycan xalqının, xüsusilə Marağa əhalisinin yaddaşından silinməyəcəkdir. ADF hökuməti əsasını qoyduğu məktəblər və başqa müəssisələr ilə millətə unudulmaz xidmətlər etdi (Pişnəmazi, 1948, 10 noyabr, s.3). Şair M.Gülgün M.R.Kəbiri haqqında belə yazırdı:

"And içirəm, dar önündə mərd dayanan "Kəbiri"yə

Xəlqin səsi ucalacaq yenə bir gün – həqqim, deyə" (Gülgün, 1947, 16 dekabr, s.3).

Bu azadlıq mücahidi öz həyatını xalqının səadəti uğrunda qurban verdi. Azərbaycan xalqı M.R.Kəbirini heç vaxt unutmayacaq, onun arzularının reallaşması üçün çalışacaqlar. M.R.Kəbirinin adı özündən sonra da daim yaşayacaqdır.

Əbülqasim Əzimi
(1903-1947)

General Əbülqasim Əzimi 1282 (1903)-ci ildə Məşhəddə anadan olmuşdur. Lakin o, əslən azərbaycanlı olub babası Naxçıvandan Məşhədə getmişdir. Ona görə də Ə.Əzimi Azərbaycan dilində ana dili kimi danışırdı. O, ibtidai və orta təhsilini Məşhədin Firdövsi məktəbində aldıqdan sonra 1302 (1923)-cü ildə Tehranın hərbi zabitlik məktəbinin piyada sinfinə daxil olub 1306 (1927)-ci ildə leytenant rütbəsi ilə oradan məzun olmuşdu. Onun şah ordusunda xidmətə başladığı dövr savadsız komandirlərin zorakılığı və özbaşınalığı dövrünə təsadüf edir. Ə.Əziminin qarşılaşdığı bu iyrənc mənzərələr ona pis təsir edirdi.

Komandirlərin vasitəsilə əsgərlərin pul və ərzağının oğurlanması, zabitlərin şəxsi işlərini görməyə əsgərlərin məcbur edilməsi Ə.Əzimidə böyük nifrət hissi oyatmışdı. Ə.Əzimi 1923-cü ildə Tudə Partiyasına daxil olub bir çox cavan zabitin bu partiyaya üzv olmasına nail oldu. Şah ordusunda naibi-sərhəng (polkovnik-leytenant-Ə.F.) olan Ə.Əzimi 1927-ci ildə bütün imtiyazlarından imtina edib Cənubi Azərbaycana gəlmiş və ADF-nin icazəsi ilə "21 Azər" hərəkatına və Xalq Qoşunlarına qoşulmuşdu (Muradi, 1948, 14 iyul, s.1).

Dərin hərbi biliyə malik olan Ə.Əzimi möhkəm iradəli, uzaqgörən və qorxmaz bir komandir idi. O, məharətli bir hərbçi olmaqla yanaşı ictimai elmlər sahəsində də çox savadlı idi.

"21 Azər" hərəkatına ən çox müqavimət göstərən Miyandoabdakı (İranın Qərbi Azərbaycan bölgəsi-Ə.F.) İran silahlı qüvvələri idi. Burada bir batalyon hərbçi var idi. Ölümdən qorxmayan Ə.Əzimi bir nəfər fədai ilə düşmənin səngərinə getmiş və özünü tanıdaraq "21 Azər" hərəkatının mahiyyətini onlara izah etmişdi. Ə.Əziminin məntiqli sözləri qarşısında aciz qalan şah ordusunun əsgərləri ona tabe olmuşdular və Miyandoab qalasını könüllü şəkildə təslim etmişdilər.

Cənubi Azərbaycan əhalisinin iradəsini təmsil edən ADF hökuməti Ə.Əzimini "21 Azər" medalı ilə şərəfləndirmiş və onu general rütbəsilə təltif etmişdi. Ə.Əzimi təvazökar, mehriban və sadə həyat sürən bir insan idi. O, bir il ADF hökumətinin Xalq Qoşunlarında xidmət etdi. Ə.Əzimi öhdəsinə götürdüyü bütün vəzifələri ləyaqətlə, şərəflə yerinə yetirdi. Ona ilham verən yeganə qüvvə xalqın azadlığı uğrunda mübarizə idi.

1325 (1946)-cı ildə şah ordusu Cənubi Azərbaycana hücum etdikdə Ə.Əzimi Saqqız bölgəsindəki cəbhənin komandiri idi. ADF hökuməti qardaş qanı tökülməsin deyə şah ordusuna müqavimət etməmək əmrini verdi və Ə.Əzimi də bu əmrə tabe oldu. Lakin şah hökuməti Ə.Əzimini həbs etdi və Təbrizdə güllələdilər. Ə.Əzimi öz həyatının son anına qədər müqəddəs məramına sadiq qaldı və şah hökumətinə boyun əymədi. O, Azərbaycan Xalq Qoşunlarının generalı kimi ölümdən qorxmayaraq Qərb imperializminə xidmət edən şah hökumətinin məmurlarına belə demişdir: "Mənim ölümümlə sizin əsası sarsılmış ağalığınız möhkəmlənməyəcəkdir". "Azərbaycan" qəzeti bu münasibətlə yazırdı ki, Ə.Əzimi ölməyibdir, çünki onun məramı yaşamaqdadır (Muradi, 1948, 14 iyul, s.4). Ə.Əziminin – "Xatircəm olun, hər bir azadxah azərbaycanlı sabah bir general Əzimi olacaqdır" (Nəzirli, 1999, s.263) sözü gənc nəsillər üçün bir yol göstəricidir.

Azərbaycan xalqı onun azadlığı uğrunda şəhid olmuş Əzimilərin xatirəsini daim yaşadacaqdır, bu onun müqəddəs borcudur. Onun şərəfli həyat yolu gənclər üçün daim nümunə

Qulamrza Cavidan
(1911-1947)

olacaq və onların yaddaşından heç vaxt silinməyəcəkdir.

1290 (1911)-ci ildə Sərab şəhərində kəndli ailəsində anadan olan polkovnik Qulamrza Cavidan Azərbaycanın fədakar və mübariz oğullarından biridir. Savadlı və ziyalı bir şəxs olan Q.Cavidan 1941-ci ildə Rza şah hökuməti yıxıldıqdan sonra Tudə Partiyasının və Azərbaycanın Ziddi-faşist Cəmiyyətinin fəal bir üzvü olur (Xədyur, 1948, 31 mart, s.4). O, xalqın azadlığı uğrunda gecə-gündüz çalışmış, həbs edilməkdən qorxmayaraq feodalların və jandarmların qanunsuz əməllərinə, faşizmə və irticaya qarşı fəal mübarizə aparmışdır.

Bu mübarizliyinə görə Q.Cavidan bir müddət Təbrizdə həbs həyatı yaşasa da, əqidəsindən geri dönmür və xalqın etirazları qarşısında hökumət onu azad etməyə məcbur olur. 1945-ci ildə ADF yaradıldıqdan sonra Q.Cavidan onun ən fəal üzvlərindən biri olur. Sərabda fədai dəstəsini təşkil edərək milli hərəkatın qələbəsində mühüm rol oynayır. Firqənin sadiq üzvlərindən biri olan Q.Cavidan fədai dəstəsinin başçısı kimi ADF-nin və xalqın etimadını qazanmış və xidmətlərinə görə Milli Məclisin üzvü seçilmişdi (Əlizadə, 2017, s.186). O, sərhəng (polkovnik-Ə.F.) rütbəsilə təltif edilmiş, Marağanın polis rəisi, daha sonra Marağa valisi təyin edilmişdi.

Q.Cavidan Marağa şəhərində və onun kəndlərində abadlığın yaradılması və maarifçiliyin inkişafı üçün fəal xidmət göstərirdi və öz fəaliyyəti, çıxışları ilə zəhmətkeş xalqın rəğbətini qazanmışdı. Şah ordusunun Cənubi Azərbaycana hücumu zamanı Q. Cavidan da digər fədailər kimi tutulub Təbrizdə şəhid edilir. O, son nəfəsinə qədər düşmənə boyun əymir və Cənubi Azərbaycanın Milli Himnini oxuyur və belə deyir: "Siz bu gün mənim səsimi boğursunuz. Lakin məzlum xalqları öz haqlarını almağa çağıran azadlıq səsi dünyanın hər yerində yüksəlməkdədir. Siz isə ildırım kimi guruldayan bu səsi boğmaqda acizsiniz!" (Azadlıq yolunun.., 1962, sXXV). "Azərbaycan" qəzeti yazırdı ki, Q.Cavidan belə demişdir: "Mən Azərbaycan xalqının azadlığı uğrunda öz müqəddəs borcumu yerinə yetirirəm. Mən ölsəm də, azadlıq ideyası ölməyəcəkdir. Yaşasın Azərbaycan milləti! Yaşasın ADF!" (Xədyur, 1948, 31 mart, s.4). Böyük Azərbaycan şairi S.Vurğun t"Kommunist" qəzetinin 23 aprel 1949-cu il nömrəsində Q.Cavidana həsr etdiyi "Qəhrəmanlara eşq olsun!" adlı məqaləsində yazırdı ki, "Sənin bu məslək eşqində, bəşəriyyətin xoşbəxt istiqbalına inanan qəlbində duyduğumuz inqilabi romantikaya eşq olsun!

Yad edəcək hörmət ilə səni gələn nəsillər,
Heykəl kimi ucalırsan qəlbimizdə bu gün sən!" (Nəzirli, 1999, s.264).

S.Vurğunun dediyi bu sözlər Azərbaycan xalqının ürək arzularıdır. Azadlıq uğrunda şəhid olmuş Cavidanlar bizi tərk etsə də, onların amalı yaşayır. Çünki Azərbaycan xalqının mübariz oğulları bu şəhidlərin yolunu davam etdirir və millətimiz onun azadlığı yolunda şəhid olan Cavidanları heç vaxt unutmayacaqdır.

Qulu Sübhi Nuri (1912-1947)

Azərbaycan xalqının qəhrəman və fədakar oğullarından biri olan polkovnik Qulu Sübhi Nuri Həsən oğlu 1291 (1912)-ci ildə Təbrizdə, zəhmətkeş ailəsində anadan olmuşdur. O, ağır iqtisadi şərait içində orta təhsil almış, Miyandoabdakı fabrikdə fəhlə işləyərək ailəsini dolandırmışdır. 1320 (1941)-ci ildə Rza şah hakimiyyətdən qovulduqdan sonra o, fabrikin işçilərini təşkilatlandıraraq demokratiya uğrunda siyasi mübarizəyə başlayır. Həmin il Azərbaycan Cəmiyyəti tərəfindən nəşr edilən "Azərbaycan" qəzeti Q.S.Nurinin diqqətini cəlb edir. O, cəmiyyətə üzv olaraq onun Miyandoab üzrə nümayəndəsi və qəzetin müxbiri olur. 1321 (1942)-ci ildə Q.S.Nuri Tudə Partiyasının Azərbaycan təşkilatına üzv olur. O, Miyandoabda Tudə partiyasının yerli şöbəsinin təşkilində mühüm rol oynayaraq şöbənin məsul katibi, Marağa və Təbriz şöbələrinin üzvü seçilir. Q.S.Nuri 15 şəhrivər (6 sentyabr) 1324 (1945)-ci il tarixində Tudə Partiyasının Azərbaycan təşkilatının fövqəladə konfransında iştirak edib ADF-yə birləşmə qətnaməsini imzalayan şəxslərdən biri olmuşdur. O, Tudənin, sonra da ADF-nin məsul nümayəndəsi kimi yerli bəy və feodallarla, hökumət məmurları ilə daim mübarizə aparmış, işçilərin və kəndlilərin hüquqlarını müdafiə etmişdir.

Q.S.Nuri Miyandoabda fədai dəstələrinin təşkilində və mürtəce şahpərəst qüvvələrin tərki-silah edilməsində mühüm rol oynamışdır. O, bu xidmətlərinə görə ADF hökuməti tərəfindən sərhəng (polkovnik) hərbi rütbəsilə təltif edilmişdir.

Q.S.Nuri möhkəm əzm, intizam, dönməz iradə və gözəl əxlaq sahibi olub yoldaşlarının, fəhlə və kəndlilərin dərin hörmətini qazanmışdır. "Azərbaycan" qəzeti yazırdı ki, o, öz doğma xalqının azadlığı uğrunda şah rejimi tərəfindən Marağada dar ağacından asılarkən belə demişdir: "Mən və mənim yoldaşlarımı öldürməklə azadlıq ölmür, bəlkə cilalanır və qüvvətlənir. Mən xalq və azadlıq uğrunda ölürəm. İnanıram ki, mənim xalqım arzularımı həyata keçirib intiqamımı alacaqlar" (Badegan, 1948, 11 dekabr, s.3). ADF Mərkəzi Komitəsinin üzvü olan Q.S.Nuriyə öldürülmədən əvvəl ADF-ni lənətləyərək tövbə edəcəyi təqdirdə bağışlanacağını desələr də Q.S.Nuri etiraz etmiş və belə demişdir: "Şərəflə ölmək mənə xoşdur!" (Əlizadə, 2017, s.308). "Bu qara rejim yaşamağa qadir deyildir!" deyən Q.S.Nuri ölümü qəhrəmancasına qarşılamışdı (Azadlıq yolunun.., 1962, s.XXVI).

Bütün varlığını Azərbaycan xalqının azadlığı uğrunda mübarizəyə sərf edən, son ana qədər məramına sadiq qalan Q.S. Nurini millətimiz unutmayacaqdır. O, əbədi olaraq xalqımızın ürəyində yaşayacaqdır. Q.S.Nurilər və şəhid yoldaşları rəhmsiz şah rejimi tərəfindən öldürülsələr də Azərbaycan xalqının mübarizə tarixində əbədi yaşayacaqlar. Q.S.Nurinin və onun mübariz yoldaşlarının həyat və mübarizə yolunu daim öyrənib təbliğ etməli və bu yolda mübarizəmizi gücləndirməliyik.

Mahmud Qazi Əsədullahi (1912-1947)

Mahmud Qazi Əsədullahi Azərbaycanın qəhrəman oğullarındandır. O, kəndli ailəsində anadan olmuşdur. M.Qazi Tehranın hərbi zabitlik məktəbində təhsil almış və orada 6 il müəllim olmuşdur. Zabitlər onu yaxşı tanıyırdı, cavan zabitlər arasında onun böyük nüfuzu və hörməti var idi. 1945-ci ilin sentyabr ayında sərhəng (polkovnik-Ə.F.) M.Qazini heç bir qanuni səbəb olmadan şahın razılığı və baş hərbi qərargah rəisi general Həsən Ərfənin əmri ilə Tehranda həbs etdilər.

Məşrutə inqilabı zamanı İranın qəhrəman oğullarının həbs yeri olan "Şah bağı" zindanı yenidən açıldı. M.Qazini və digər demokratları orada saxlayırdılar. O, bütün təhlükələrə və çətinliklərə baxmayaraq zindandan qaça bildi və az bir müddətdən sonra Cənubi Azərbaycana gəldi.

M.Qazi kəndli olduğu üçün zalım mülkədarları yaxşı tanıyırdı. O, son illərdə Cənubi Azərbaycandakı milli inqilab haqqında aldığı məlumatlara görə bu inqilabın həqiqi demokratik mahiyyətini yaxşı dərk edirdi. M.Qazi Azərbaycan xalqının arzuları uğrunda mübarizə aparan ADF-yə qoşuldu.

M.Qazi 10 illik hərbi xidməti nəticəsində təcrübəli və ləyaqətli, ölümdən qorxmayan bir hürriyyətçi idi. O, 1945-ci ilin dekabr ayında şəhid olduğu günə qədər ADF-nin əmri ilə azadlıq düşmənlərinə qarşı döyüşdü.

Amerikalıların təhriki, Məhəmmədrza şahın fərmanı, amerikalı hərbi müşavir general Şvartskopfun jandarmlarının əliylə Azərbaycan xalqına qarşı açılan birinci güllə M.Qazinin sinəsinə dəydi. Azərbaycan Xalq Qoşunlarının birinci şəhid zabiti olduğu üçün M.Qazinin adı həmişə iftixarla yad ediləcəkdir. M.Qazi Azərbaycan torpağını qanıyla boyayan gün milli hərbi ənənənin birinci əsasını qoydu. M.Qazi öz canını fəda etməklə milli zabitin yerinin cəbhənin ən təhlükəli yeri olduğunu göstərdi (Xatəmi, 1948, 1 may, s.1, 3). O, Miyanədə şəhid olarkən də öz haqlı mübarizəsindən geri dönməmiş və belə demişdi: "Azərbaycan xalqının tələbləri qanuni, haqlı və ədalətlidir!" (Azadlıq yolunun..., 1962, s.35).

ADF rəhbərliyi onun şəhid olduğu gün yazdığı başsağlığında M.Qazinin xidmətlərini ehtiramla yad etdi. "Azərbaycan" qəzeti yazırdı ki, azadlıq mübarizlərinin qəbri general Şvartskopfların çəkməsi altında əzilsə də elə bir gün gələcəkdir ki, bu qəbirlər xalqın ziyarətgahına çevriləcəkdir (Xatəmi, 1948, 1 may, s.1, 3). Azərbaycan xalqı da M.Qazinin dəfnində göstərdi ki, öz qəhrəman oğullarının qədrini bilir. Mahmud Qazi Əsədullahinin şəhid olması münasibətilə bir çox Azərbaycan şəhərlərində, o cümlədən Təbrizdə matəm günü keçirilmiş və böyük etiraz mitinqi təşkil edilmişdi. Mitinqdə çıxış edənlər demişdilər ki, „Mahmud Qazi Əsədullahinin xatirəsi unudulmazdır.O, ölməmişdir, həmişəlik yaşamaq məqamına çatmışdır!" (İsmayılov. Mahmud Qazi...). M.Qazinin və digər hürriyyətçi zabitlərin adı heç vaxt unudulmayacaq və daim Azərbaycan xalqının xatirəsində yaşayacaqlar.

Yusif Murtəzəvi (1916-1947)

Polkovnik-leytenant Yusif Murtəzəvi 1295 (1916)-ci ildə Ənzəlidə azərbaycanlı ailəsində anadan olmuş və təhsilini də orada almışdır. Hərbçiliyə olan həvəsi nəticəsində Tehranda ali hərbi məktəbə daxil olub 1316 (1937)-ci ildə oranı leytenant rütbəsilə bitirmişdir. Şah ordusunda baş verən özbaşınalıqlar Y.Murtəzəvini ordu komandanlığına qarşı müxalifətə sövq etdi. Y.Murtəzəvi həmişə çalışırdı ki, əsgərlər incidilməsin, ərzaq payları vaxtında verilsin. Buna görə də onun tabeliyində olan əsgərlər onu çox sevirdi.

1320 (1941)-ci il şəhrivər hadisəsindən (1941-ci ilin sentyabr ayında Rza şahın istefası-Ə.F.) sonra Tudə Partiyasının fəaliyyəti nəticəsində hərbçilər arasında da inqilabi fikirlər yayıldı. Tudəyə rəğbət göstərən hərbçilərdən biri də Y.Murtəzəvi idi. O, özünü tamamilə bu işə həsr edib Tudənin ordu içindəki gizli təşkilatına daxil oldu və demokratik mübarizəyə qoşuldu.

Y.Murtəzəvi 1324-cü ilin aban ayında (1945-ci ilin sentyabr ayı-Ə.F.) Cənubi Azərbaycana gəldi və fədailərə qoşuldu. O, Xalq Qoşunlarının təşkilində ciddi fəaliyyət göstərdi. Şah ordusuna qəhrəmancasına müqavimət göstərən zabitlərdən biri də naibi-sərhəng (polkovnik-leytenant) Y.Murtəzəvi idi. Tehranda şah hökuməti ilə aparılan siyasi danışıqlarda o da iştirak etmişdi. Y.Murtəzəvi Azərbaycanın azadlığını və xalqımızın xoşbəxtliyini hədsiz sevən şəxslərdən biri idi.

Şah ordusu Cənubi Azərbaycanı zəbt edəndən sonra Y. Murtəzəvi Təbrizdə ölümə məhkum edildi. "Azərbaycan" qəzeti yazırdı ki, o, qətl edilərkən Milli Himni oxudu və belə dedi: "Zəhmətkeş xalq üçün mübarizə edənin tövbəyə ehtiyacı yoxdur. Mən azadlıq yolundakı ölümü sevinclə qarşılayıram. Millətin qanını soranlar tövbə etməlidirlər. Demokratiya İranda qalib gələcəkdir. Mən buna inanıram. Yaşasın azadlıq!" (Qaziyani, 1948, 15 may, s.3); "Yaşasın Azərbaycanın azadlığı!" (Əlizadə, 2017, s.132).

Azərbaycan gəncləri Y.Murtəzəvinin son sözlərini heç vaxt unutmayacaq. Onun göstərdiyi mərdlik gənclərimiz üçün mübarizə məktəbidir. Azərbaycan milləti öz şəhid övladlarının xatirəsini daim xatırlayacaq və xalqımızın xoş gələcəyi üçün son nəfəsinə qədər mübarizə edən və düşmən qabağında diz çökməyən Murtəzəviləri yaddan çıxartmayacaq!

Cəfər Sultani Azad
(1917-1947)

Əslən qarabağlı olan polkovnik-leytenant Cəfər Sultani Azad 1296 (1917)-ci ildə Tehranda anadan olmuşdur (Azadlıq yolunun..., 1962, s.74; Azərbaycan Milli Hökumətinin zabitləri. Cəfər..). O, ibtidai və hərbi orta məktəbi Tehranda oxumuş, süvari leytenantı kimi ali hərbi məktəbdən məzun olmuşdur. C.S.Azad 1316 (1937)-ci ildə baş leytenant, 1320 (1941)-ci ildə sultan (kapitan-Ə.F.), 1324 (1945)-ci ildə mayor olmuşdur. Fəlsəfi, ictimai-siyasi, iqtisadi elmlərdə savdlı olan C.S.Azad həm də yüksək əxlaqlı bir şəxs idi.

O, şah ordusunda xidmət etdiyi dövr ərzində cinayətkar komandirlərlə mübarizə aparmışdı. C.S.Azadın məqsədi İran xalqlarının azadlığı uğrunda mübarizə aparmaq idi. O, 1943-cü ildə Tehranda Tudə Partiyasına gizli üzv olmuş, zabitləri şah rejimi əleyhinə, İranın azadlığı uğrunda mübarizəyə səsləmişdi. Xorasanda zabitlərin qiyamı başlayanda qorxuya düşən şah hökuməti Baş qərargah rəisi general Həsən Ərfənin vasitəsilə hürriyyətçi zabitləri həbs etməyə başladı. 1945-ci ildə C.S.Azadı da həbs etdilər və Cənubi Azərbaycanda ADF hökuməti qurulana qədər o, Tehran həbsxanasında qaldı.

Cənubi Azərbaycanda ADF-nin inqilabi hərəkatı şah hökumətini qorxuya saldığı üçün C.S.Azadı başqa məhbus zabitlərlə birlikdə Tehrandan Kirmana göndərmişdilər.

Lakin Kirman həbsxanası da C.S.Azadı öz mübarizə yolundan döndərə bilmədi. O, məhbusları aclıq elan etməklə mübarizəyə çağırırdı və hökumət onu və yoldaşlarını həbsdən azad edib Kirmanda sürgündə saxlamaqla kifayətlənməyə məcbur oldu. O, sürgündəki məhbus mayor Əhməd Cövdətlə birlikdə xalqı Tudə Partiyasına qoşulmağa çağırdı. Nəticədə şah hökuməti məhbus zabitləri İranın daha pis ab-havası olan cənub bölgələrinə sürgün etməyə qərar verdi. Lakin C.S.Azad şah hökumətinin bu qərarını İran mətbuatında ifşa edərək Tehrana getdi. O, şah hökumətinin aldadıcı vədlərini, təkliflərini rədd edərək Cənubi Azərbaycana gəldi və Xalq Qoşunlarına qoşuldu. 1325-ci il ordibehişt ayının 24-də (14 may 1946) axşam Azərbaycan Demokrat Firqəsinin radiosu başda mayor Cəfər Sultani Azadın adı olmaqla 18 nəfər zabitin adını çəkib demişdi: "Mürtəce şah ordusundan üz döndərmiş 19 hürriyyətçi zabit Xalq Qoşunlarında xidmət etmək üçün müraciət ediblər". C.S.Azad ADF tərəfindən naibi-sərhəng (polkovnik-leytenant-Ə.F.) hərbi rütbəsini alarkən belə demişdi: "Mən xain şah ordusunda aldığım rütbədən imtina edib Azərbaycan xalqının əlindən aldığım şərəfli rütbəni qəbul edirəm". O, Miyandoab qarnizonunun komandiri vəzifəsinə təyin olunmuşdu. Onun kabinetində başı üstündə bu şüar yazılmışdı: "Ordu ölkənin ruhudur!".

Şah ordusunun Təbrizi zəbt etməsindən sonra C.S.Azad da həbs edildi. "Azərbaycan" qəzeti yazırdı ki, o, şəhid edilərkən belə demişdir: "Mən iftixar edirəm ki, məni İranın azadlığı uğrunda öldürürlər. Lakin bilərəm ki, mənim qanımla bərabər minlərlə nahaq tökülən qanlar yerdə qalmayacaqdır!" (Mübariz şəhid.., 1947, 23 dekabr, s.3). Özünü vətən və millət yolunda qurban verən C.S.Azadın və əqidə yoldaşlarının mübarizə yolu xalqımızın yadından silinməyəcəkdir!

Məhəmməd Agəhi
(1909-1946)

Polkovnik-leytenant Məhəmməd Agəhi 1909-cu ildə Təbrizdə anadan olmuş, atasız böyümüşdür. O, Təbrizdə orta təhsil almış, İran ordusunda xidmət edərkən hərbi pilot olmaq istəmişdir. M.Agəhi Tehranda Hərbi Təyyarəçilik Məktəbinə daxil olmuş, mürtəce komandirlərin təzyiqlərinə baxmayaraq oranı müvəffəqiyyətlə bitirmişdir. Az bir vaxtda bacarıq və şücaəti ilə məharətli təyyarəçi kimi İran ordusunda ad-san qazanmışdır. 1936-cı ildən 1945-ci ilə qədər İran ordusunun hava qüvvələrində nümunəvi zabit kimi xidmət etmişdir.

M.Agəhi şah rejiminin xalqa zidd siyasətindən narazı olduğu üçün Tudə Partiyasına üzv olub, onunla gizli şəkildə əməkdaşlıq edirdi. O, İran mətbuatında faşizmi və onun İrandakı tərəfdarlarını ifşa edən "Faşizm nə deməkdir?" başlıqlı silsilə məqalələrlə Tudənin "Mərdom" qəzetində kəskin çıxışlar edirdi. 1945-ci ildə şah ordusu sıralarında xidmət edən hürriyyətçi zabitlərə qarşı təqiblərin artması ilə əlaqədar şah ordusunu tərk edib gizli fəaliyyətə keçmişdi. O, qəddar şah rejiminə qarşı qəti mübarizə aparmaq üçün Təbrizə qayıdıb ADF-nin sıralarına daxil olmuş, Sərab və Qaradağ mahallarında, Təbrizdə fədai dəstələrinin təşkil olunmasında, istilaçılardan təmizlənməsində hərbi dəstənin rəhbəri və hərbi pilot kimi yaxından iştirak etmişdir. Bu xidmətləri müqabilində ADF hökuməti onu "21 Azər" medalı ilə təltif etmiş və

naibi-sərhəng (polkovnik-leytenant-Ə.F.) rütbəsi vermişdir.

1946-cı ilin sentyabr ayında Miyanə cəbhəsində şah ordusuna qarşı vuruşarkən M.Agəhi çoxsaylı düşmən qüvvələri tərəfindən əsir alındı və şirniklərdirici təklifləri rədd etdiyinə görə şəhid edildi. Gözlərinin bağlanmasına icazə verməyən M.Agəhi son nəfəsində - "Yaşasın azadlıq! Yaşasın vətən! Yaşasın Azərbaycan xalqının azadlığı" deyərək ölümü şərəf və ləyaqətlə qarşılamışdır (Azadlıq yolunun..., 1962, s.67-69; Nəzirli, 2009, s.232-233). "Azərbaycan" qəzetində xalqımızın bu mərd oğlunun fotoşəkli və haqqında məlumat verilmişdir (Xoşginabi, 1947, 13 dekabr, s.3). Azərbaycan xalqı M.Agəhi kimi mübariz fədailəri ilə fəxr edir və onları əsla unutmayacaqdır.

Əhməd Cövdət (1908-1946)

1287 (1908)-ci ildə Təbrizdə anadan olmuş mayor Əhməd Cövdət 1316 (1937)-ci ildə Tehranda hərbi zabitlik məktəbinin topçu sinfindən leytenant rütbəsilə məzun olmuşdur. Ə.Cövdət İranın müxtəlif əyalətlərindəki hərbi hissələrdə xidmət edərkən cinayətkar komandirlərin əleyhinə daim mübarizə aparırdı. Ə.Cövdət topçuluqda və ümumiyyətlə hərbi işdə məharətli zabit olmaqla yanaşı ictimai, fəlsəfi, hüquqi sahələrdə də savadlı idi. Ə.Cövdət 1323 (1944)-cü ildə Tudə Partiyasına daxil olmuşdu. 1945-ci ildə Xorasanda hürriyyətçi zabitlərin qiyamı baş verdi. Azadlıq hərəkatının orduya təsirindən qorxan hökumət Baş qərargah rəisi general Həsən Ərfənin vasitəsilə hürriyyətçi zabitləri, o cümlədən kapitan Ə.Cövdəti Tehranda həbs etdirdi.

Ə.Cövdət həbsdə olanda məhbusları aclıq elan etməyə çağırır, onların vəziyyəti haqqında mətbuata gizli xəbər göndərirdi. Şah hökuməti hürriyyətçi zabitləri İranın cənub rayonlarına sürgün edib orada məhv etmək istəyirdi. Kirmanda sürgündə olan Ə.Cövdət orada İman partiyasını yaratdı. O, Kirmanda işçiləri ziyarət edib onları öz hüquqları uğrunda mübarizəyə çağırırdı. Bundan təşvişə düşən hökumət sürgündəki Ə.Cövdəti və digər hürriyyətçi məhbus zabitləri Tehrana qaytardı. ADF-nin rəhbərlik etdiyi Xalq Qoşunlarında xidmət etmək istəyən Ə.Cövdət şah hökumətinin ona vəd etdiyi vəzifəni və mükafatları, pulu rədd edib Cənubi Azərbaycana

gəldi (Müciri, 1948, 2 iyun, s.3). Ə.Cövdəti yaxından tanıyanlar onun şücaətli, səmimi, mübariz bir vətənpərvər olduğunu yaxşı bilirdilər. O, komandir təyin ediləndə belə demişdi: "Mən firqənin sadə bir sərbazıyam (əsgəriyəm). Tək bir arzum var, o da azadlıq yolunda mübarizə etməkdir" (Azadlıq yolunun.., 1962, s.91).

Ə.Cövdət öz fədai dəstəsi ilə birlikdə aylarla dağlarda şah ordusuna qarşı mübarizə apardı, onları dəfələrlə məğlub etdi. Onun hərbi fəaliyyəti Xalq Qoşunlarının Marağadakı əməliyyatlarının şahəsəri sayıla bilər. Amerikalı hərbi müşavirlərin idarə etdiyi şah ordusunun Cənubi Azərbaycana hücumu zamanı Ə.Cövdət öz hərbi istedadı, şücaəti və qələbə əzmi ilə özündən dəfələrlə güclü olan düşmənə qarşı inadla müqavimət göstərib onların qarşısını kəsə bildi. O, Azərbaycanın ən yaxşı oğullarından biri idi.

Xalqın qanı hədər yerə tökülməsin deyə ADF hökumətinin əmri ilə Ə.Cövdət müqaviməti dayandırsa da, şah hökuməti onu mühakiməsiz Təbrizdə şəhid etdi. Ə.Cövdət ölümə gedərkən başını düşmənə əymədi, öz xalqının düşməni olan şah hökumətini ifşa etdi. "Azərbaycan" qəzeti yazırdı ki, Ə.Cövdət haqsız yerə öldürülsə də, Azərbaycan xalqı onun qatillərinin xalq məhkəməsi qarşısında cavab verməsinə mütləq nail olacaqdır (Müciri, 1948, 2 iyun, s.3). Xalqımızın azadlığı yolunda şəhid olmuş Cövdətlərin adı heç vaxt xatirələrdən silinməyəcəkdir.

Qulamhəsən Nasiri (1906-1946)

1285 (1906)-cı ildə Miyanə mahalında anadan olmuş mayor Qulamhəsən Nasiri Miyanədə və Təbrizdə təhsil almışdır. O, Tehranda Ali Hərbi Məktəbdə təhsilə başlayaraq 1316 (1937)-ci ildə həmin məktəbin piyada kursunu qurtarmışdır. 1941-ci ildə Rza şah hakimiyyətdən qovulana qədər o, İranın cənub bölgələrində, xüsusilə Bəndəri-Abbasda hərbi xidmət etmişdir. Q.Nasiri 1324 (1945)-ci ildə Miyanə və Xalxalda hərbi komendant idi. O, hökumətin zəhmətkeşlərə qarşı zülm və təhdidini görüb xalqı mübarizəyə çağırırdı. Q.Nasiri öz hərbi vəzifəsini icra edəndə də zalım şah rejiminin yox, məzlum xalq kütlələrinin mənafeyini nəzərə alırdı.

Xorasanda hürriyyətçi zabitlərin qiyamı baş verdiyi zaman hökumət qorxuya düşərək Q.Nasirini də vəzifədən azad edib həbs etdirdi və onu digər hürriyyətçi zabitlərlə birlikdə Kirmana sürgün etdilər. Q.Nasiri öz mübarizəsini Kirman zindanında davam etdirdi. Cənubi Azərbaycanda milli hərəkat qələbə çaldıqdan sonra xalqın təzyiqləri qarşısında hökumət Kirmandakı əsir və məhbus zabitləri azad etməyə məcbur oldu. Kirman hakimi Q.Nasirinin əmioğlusu idi. O, Q.Nasiriyə vədlər verib onu inqilabi ideyalardan imtina etdirməyə çalışsa da buna nail olmadı. Q.Nasiri Kirmandan çıxıb Xalq Qoşunlarında xidmət etmək üçün Cənubi Azərbaycana gəldi. O, şah hökumətinin zabit libasını çıxardıb Xalq Qoşunlarının şərəfli libasını geyindi və ADF-yə daxil olub hərbi xidmətə

başladı. Q.Nasiri Marağa və Miyandoab qarnizonlarında əsgərlərin hərbi təlimi ilə məşğul oldu. ADF hökuməti onun xalq qarşısındakı xidmətlərini dəyərləndirərək Q.Nasirini mayor rütbəsilə təltif etdi. Hərbi işlərdə böyük məharətə, şücaətə malik olan Q.Nasiri həm də qabiliyyətli bir komandir və mahir bir yazıçı idi. Onun "Azərbaycan elləri" adlı kitabı çap olunmuşdu. Bu əsər Q.Nasirinin Azərbaycana olan sevgisinin nümunəsi idi.

Şah ordusu Cənubi Azərbaycana hücum etdikdə o, Marağa qarnizonu ilə, keçmiş məhbus yoldaşı mayor Ə.Cövdətlə birlikdə düşmənə qarşı aslan kimi döyüşmüşdü. O, Ə.Cövdətlə birlikdə Təbrizdə şəhid edildi. Qulamhəsən Nasiri kimi fədailərin mərdliklə şəhid olmaları "21 Azər" hərəkatının haqq və ədalətli bir iş olduğuna sübutdur (Azadlıq yolunun..., 1962, s.99-100). "Azərbaycan" qəzeti yazırdı ki, şah hökuməti buna sevinə bilər, lakin bu, müvəqqətidir. Onları haqız yerə öldürənlər bir gün məhkəmə qarşısında cavab verəcəklər. Təkcə Azərbaycan yox, bütün İran xalqları bu şəhidlərə minnətdardır. Çünki onlar İran xalqlarının azadlığı uğrunda şəhid oldular (Müciri, 1948, 23 iyun, s.3). Azərbaycan xalqı öz azadlığı uğrunda ən yaxşı oğullarını şəhid vermişdir və onlarla iftixar edir. Şəhid Nasirilərin unudulmaz xatirəsi millətimizin xatirəsindən əsla silinməyəcəkdir.

Məhəmmədəli Ramtin (1907-1947)

Mayor Məhəmmədəli Ramtin 1286 (1907)-ci ildə Sərabda kəndli ailəsində anadan olmuşdur. M.Ramtin gənc yaşlarından etibarən şah hökumətinin xalqa zidd siyasətini görür və irticaya qarşı mübarizə edən təşkilatların fəaliyyətində iştirak edirdi. Rza şah dövründə azadlıq istəyənlərin və xalqın problemlərini dilə gətirənlərin sonu həbs və ölüm idi. Buna baxmayaraq M.Ramtin fəhlə və kəndliləri azadlıq təşkilatları ətrafında birləşməyə dəvət edirdi. 1320 (1941)-ci ildə Rza şah hakimiyyətdən qovulduqdan sonra M.Ramtin bəy və xanlara, feodallara qarşı olan kəndli üsyanlarında daha fəal iştirak etdi. O, feodalların təqibindən qaçıb dəmiryolu idarəsində mexanik işlədiyi dövrdə də öz inqilabi fəaliyyətini davam etdirdi. M.Ramtin burada da təqiblərə məruz qaldı və öldürülməmək üçün qaçdı.

Tudə Partiyasının fəaliyyətində yaxından iştirak edən M.Ramtin Azərbaycan Həmkarlar İttifaqının Miyanə Komitəsinin üzvü seçilmişdi. Miyanə Dəmiryolları İdarəsində çalışan M.Ramtin Seyid Ziya Təbətəbainin (dövrün Baş nazirlərindən-Ə.F.) Xeyriyyə təşkilatı adı altında fəaliyyət göstərən xalqa zidd siyasəti ilə mübarizə aparırdı. O, dəfələrlə kəndliləri polislərin təzyiq və təqiblərindən, həbsdən azad etməyə müvəffəq olmuşdu.

Tudə Partiyasının Miyanə Komitəsinin ADF-yə birləşməsində və onun fəaliyyətində M.Ramtin xüsusi fəallıq göstərmişdi. Milli hərəkatın başladığı dövrdə o, Miyanədəki şah ordusuna mənsub silahlı qüvvələrin tərki-silah edilməsində mühüm rol oynadı. Bu xidmətlərinə görə M.Ramtin ADF hökuməti tərəfindən mayor hərbi rütbəsilə təltif edilmiş, Əfşar, Miyandoab və Saqqız fədailərinin komandanlığı ona tapşırılmışdı (Qaziyani, 1948, 14 avqust, s.4). M.Ramtin öz fədai dəstəsinin ruh yüksəkliyinə, hərbi-siyasi hazırlığına xüsusi diqqət yetirirdi. Onun xidmətlərini yüksək qiymətləndirən ADF hökuməti M.Ramtini "21 Azər" medalı ilə təltif etmişdi (Azadlıq yolunun..., 1962, s.136).

Şah ordusu Cənubi Azərbaycana hücum etdiyi zaman Marağada olan M.Ramtin tutulub şəhid edildi. "Azərbaycan" qəzeti yazırdı ki, şəhid yoldaşımız M.Ramtin sadiq firqəçi və cəsur fədai idi. O, zəhmətkeş xalqın nicatını ancaq mübarizədə görürdü (Qaziyani, 1948, 14 avqust, s.4). Son nəfəsinə qədər mürtəce şah hökumətinə boyun əyməyən M.Ramtinin əziz xatirəsini xalqımız heç vaxt unutmayacaqdır.

Qulamrza Dəbirniya (1919-1946)

Qulamrza Dəbirniya 1298 (1919)-cu ildə Tehranda anadan olmuş, orada Şərəf mədrəsəsində Dr. Tağı Əraninin tələbəsi olmuşdur. Daha sonra Tehrandakı Ali Hərbi Məktəbə daxil olan Q.Dəbirniya 1322 (1943)-cü ildə süvari ixtisası üzrə leytenan rütbəsilə məzun olmuşdur. Hərbi baxımdan məharətli olan Q.Dəbirniya ictimai-siyasi sahədə də məlumatlı idi.

1941-ci ildə almanpərəst Rza şah sovet və ingilis qoşunları tərəfindən hakimiyyətdən qovulduqdan sonra İran xalqları azad nəfəs aldı. İranın faşizm ilə zəhərlənmiş mühitinə azadlıq havası gəldi. Q.Dəbirniya Dr. Əraninin kitablarını, Tudə Partiyasının nəşrlərini oxuyub öz mübarizə yolunu seçərək azadlıq hərəkatına qoşuldu. Q.Dəbirniya belə deyirdi: "Biz zabitlər, İran xalqının qarşısında onun istiqlalını müdafiə etmək kimi böyük vəzifə daşıyırıq. Biz iki müxtəlif cərəyana məruz qalmışıq: biri İran cəmiyyətinə olan təzyiq, digəri isə ədalətsiz hərbi qanunlar və hərbi nazamnamə".

Q.Dəbirniya Baş qərargah rəisi H.Ərfənin dövründə həbs edilib zindana atıldı. Sonra isə Kirman həbsxanasına göndərildi. Q.Dəbirniya Tehranda hərbi zabitlik məktəbini qurtarıb leytenant olanda and içmişdi ki, İran xalqının azadlıq və istiqlalını müdafiə edəcək və bu niyyətlə də zabit olmuşdu. Kirman həbsxanasının həyətində onun mərd xasiyyəti insanları cəlb edirdi. Onun zindandakı bir illik həbs həyatı çox çətinliklə keçdi. Xain şah hökumətinin gözlədiyinin əksinə

olaraq məhbus zabitlər orada daha da mətinləşərək polad kimi bərkidilər (Ə.H. 1948, 7 avqust, s.3).

"İctimai həyatla əlaqəsi olmayanın fərdi həyatının mənası yoxdur" deyən Q.Dəbirniyaya görə - mübariz inqilabçı öz fərdi mənafeyini ictimai mənafeyə, xalq azadlığına qurban verməlidir (Azadlıq yolunun.., 1962, s.110).

1325-ci ilin ordibehişt (1946, aprel-may) ayında Q.Dəbirniya 18 nəfər başqa zabitlə birlikdə Cənubi Azərbaycana gedib Xalq Qoşunlarının Urmiya briqadasında xidmətə başladı.

Xalq Qoşunlarında xidmət etdiyi dövrlər Q.Dəbirniyanın həyatının ən iftixarlı və qiymətli dövrüdür. O, Azərbaycan dilini ilk dövrlərdə yaxşı bilməsə də, əsgərlərin qəlbində özünə qarşı səmimiyyət və məhəbbət hissini yarada bilmişdi. O, Azərbaycanın istedadlı oğullarının hərbi baxımdan yetişməsi üçün gecə-gündüz çalışırdı, öz istirahət vaxtını da əsgərlərinə həsr edirdi. "Azərbaycan" qəzeti yazırdı ki, ADF hökuməti onu bu xidmətləri qarşılığında sultan (kapitan-Ə.F.) hərbi dərəcəsi ilə təltif etmişdi (Ə.H. 1948, 7 avqust, s.3). Şah ordusu Cənubi Azərbaycanı zəbt etdikdən sonra Q.Dəbirniyanı Təbrizdə qətl etdilər. O, şəhid olsa da Azərbaycan xalqı Q.Dəbirniyanın xidmətlərini unutmayacaq, onun və şəhid yoldaşlarının xatirəsini əbədi yaşadacaqdır.

Əjdər Baldar (1902-1946)

Kapitan Əjdər Baldar 1281 (1902)-ci ildə Sərabda anadan olmuşdur. 1941-ci ilə qədər Tehranda işləyən Ə.Baldar burada demokratiya uğrunda mübarizəni təbliğ edirdi. 1941-ci ildə sovet və ingilis orduları İrana daxil olub Rza şahı qovduqdan sonra Ə.Baldar Tehrandan Səraba qayıtdı. O, yeni yaradılan "Zəhmətkeşlər təşkilatı"na üzv olub digər hürriyyətçilər ilə çiyin-çiyinə mübarizəyə başladı. Bu təşkilat şah ordusunun polkovniki Canpoladın hərbi dəstəsi tərəfindən dağıdılan zaman Ə.Baldar da başqa firqəçilər kimi həbs edilib işgəncələrə məruz qaldı. Lakin onu öz yolundan döndərə bilmədilər. Bu hadisədən sonra Ə.Baldar Təbrizə gedib orada Tudə Partiyasına üzv olub mübarizəsinə davam etdi. O, həmişə mübarizədə möhkəm və mətin olmağı öz yoldaşlarına tövsiyə edirdi.

ADF yaradıldıqda o da başqa yoldaşları kimi firqəyə daxil olub onun tapşırıqlarını layiqincə icra etməyə başladı. Milli hərəkat zamanı Ə.Baldar öz xalqının azadlığı üçün silah götürdü. Fədai dəstələrinə başçılıq edib böyük rəşadət və fədakarlıqlar göstərdi. Firqə tərəfindən təşəkkürnamələr alan Ə.Baldar ADF hökuməti qurulduqdan sonra sultan (kapitan-Ə.F.) hərbi rütbəsi ilə təltif edildi və Cənubi Azərbaycanın Nəzmiyyə (polis-Ə.F.) İdarəsinə maddi-texniki təminat üzrə müdir müavini təyin edildi. Şah ordusu Təbrizi zəbt edərkən

onu tutub mühakiməsiz ölümə məhkum etdilər. Lakin ölüm cəzası onu qorxutmadı. "Azərbaycan" qəzeti yazırdı ki, Ə.Baldar ömrünün son anında da "Yaşasın Azərbaycan Demokrat Firqəsi!" deyərək ölümə şərəflə getdi (Əbluc, 1948, 31 yanvar, s.3). Azərbaycan xalqı Ə.Baldar kimi şərəfli zabitlərini unutmayacaqdır.

Həsən Zəhiri (1921-1946)

Kapitan Həsən Zəhiri 1300 (1921)-ci ildə Xoy şəhərində anadan olmuş, ibtidai təhsilini öz doğma şəhərində, orta təhsilini Təbrizin Firdövsi məktəbində almışdır. Tehranda bir il Ali Mühəndislik Məktəbində oxumuş, sonra 1320 (1941)-ci ildə Tehranda Ali Hərbi Məktəbə qəbul olub, iki il sonra topçu leytenantı hərbi dərəcəsi ilə məzun olmuşdur. Təhsil həyatı boyu daim birinci olan H.Zəhiri tələbələri və müəllimləri öz savadı ilə heyran etmişdi. O, tələbəlik illərində İran xalqlarının dözülməz vəziyyətini, xüsusilə şah hökumətinin Azərbaycan xalqını iqtisadi-siyasi təzyiqlərə məruz qoymasını görmüşdü. O, hərbi xidmətdə olarkən cinayətkar komandirlərin təqibindən qorxmayaraq təhqir olunan, soyğunçuluğa məruz qalan əsgərlərin hüquqlarını müdafiə edirdi. Bu səbəbdən onu dəfələrlə Təbrizdə, Urmiyada və s. fərqli bölgələrdə xidmət etməyə məcbur etmişdilər. H.Zəhiri qorxmaz və mübariz idi. O, şah ordusu komandirlərinin ancaq öz şəxsi mürtəce məqsədlərini güddüklərini dərindən anladığına görə onlara nifrət edirdi.

Cənubi Azərbaycanda demokratik milli hərəkat başlayıb ADF hökuməti qurulduğunda H.Zəhiri də həvəslə ona tabe oldu. O, şah ordusundan üz döndərib Təbrizə getdi, Xalq Qoşunlarında top alayında xidmətə başladı, bacarıqlı topçular

yetişdirdi. Bu səbəbdən dəfələrlə Xalq Qoşunlarının komandanlığı tərəfindən təltif edildi. O, Azərbaycanın ən istedadlı, bilikli, iradəli gənc hərbçilərindən biri idi. ADF-nin fəal üzvü olan H.Zəhiri təkcə hərbi savadını artırmaqla kifayətlənmir, siyasi sahədə də biliyini artırmağa çalışır, öz əsgərlərini bu ruhda yetişdirirdi (Fəhmi, 1948, 10 yanvar, s.3).

ADF hökuməti tərəfindən sultan (kapitan) hərbi rütbəsilə təltif edilən (Azadlıq yolunun.., 1962, s.139) H.Zəhiri şah ordusunun Cənubi Azərbaycana hücumu zamanı onu böyük şücaətlə qorudu, qəhrəmancasına mübarizə apardığına görə Təbrizdə məhkəməsiz güllələndi. "Azərbaycan" qəzeti yazırdı ki, şəhid yoldaşımız irtica cəlladlarının qarşısında əyilməyib son nəfəsinə qədər Azərbaycanın Milli Sürudunu (Milli Himn-Ə.F.) oxuyub "Yaşasın azadlıq!" deyə can verdi (Fəhmi, 1948, 10 yanvar, s.3; Azadlıq yolunun.., 1962, s.140). O, öz pak qanını azadlıq yolunda axıtdı. Azərbaycan xalqı Zəhiri kimi oğullarını heç vaxt unutmayacaq. Onun kimi şəhid olan minlərlə ADF-linin arzularını həyata keçirmək üçün daim mübariz olacaq.

İsrafil Qadiri (1916-1946)

Baş leytenant İsrafil Qadiri 1295 (1916)-cı ildə Xoşginab kəndində əkinçi ailəsində anadan olmuşdur. Adı hər bir hürriyyətçi şəxsin qəlbində yaşayan İsrafil Qadiri İran xalqlarının qanını soran Qərb imperializminin xidmətçisi olan Rza şahın dövründə belə deyirdi: "Xalqımızın əsarət zəncirini qırıb və onun azad olacağına inanıb çalışmalıyıq" (Hacızadə, 1948, 11 sentyabr, s.3).

Bu mübariz inqilabçı Rza şahın qovulmasından sonra yaranan imkanlar nəticəsində imperializmlə mübarizə üçün Tudə Partiyasına daxil oldu (Rəhimli. 21 Azərə gedən yol – 6-cı yazı). Daha sonra 1320 (1941)-ci ildə Təbrizdə yaradılan Azərbaycan Zəhmətkeşlər Təşkilatının (Şurayi-müttəhidə) qurucu üzvlərindən biri oldu. Xalqın səadətini öz mənafeyindən üstün tutan İ.Qadiri zəhmətkeşlərin bu təşkilat ətrafında birləşməsi üçün böyük səy göstərirdi və bu xidmətləri müqabilində təşkilatın şöbə müdiri seçilmişdi.

Jandarmların məsum insanları döyüb öldürməsinə səssiz qalmayan İ.Qadiri xalqı mübarizəyə çağırır və belə deyirdi: "Biz gərək bu mürtəce hökumətə və onun vəhşi jandarmlarına sübut edək ki, zəhmətkeşlərin onların qurbanı olmasına imkan verməyəcəyik. Bu quldur dəstələri bilsinlər ki, heç bir zəhmətkeşin qanı yerdə qalmayacaqdır, yoldaşlarımız onun

intiqamını alacaqdır. Biz imkan verməmərik ki, zəhmətkeşlər nahaq yerə öldürülsün".

Hökumət məmurları xalqın etirazından qorxaraq İ.Qadiridən xahiş edirdilər ki, kütləvi etirazlara, nümayişlərə son qoysunlar. Hökumət bu etirazların qarşısında məcbur qalıb istəməsə də günahkar jandarmları cəzalandırırdı. Nəhayət 1321 (1942)-ci ildə İ.Qadirini susdura bilmədiyini görən Təbriz valisi və jandarm rəisi onu həbs edib Tehran həbsxanasına göndərdi. İ.Qadiri həbsdə olarkən T.Əraninin və bir çox hürriyyətpərvərin qatili olan cəllad Muxtarı görüb onun üzünə tüpürmüş və belə demişdi: "Çox keçməz ki vətənimizdə azadlıq bayrağını qaldırıb intiqamımızı alacağıq".

İ.Qadiri həbsdən buraxıldıqdan sonra da Tehranda ev həbsində saxlanılırdı. Lakin o, imkan tapıb doğma yurdu olan Cənubi Azərbaycana qaça bildi və öz müqəddəs məramı uğrunda çalışmağa başladı. Zindanda gördüyü işgəncələrdən sonra daha da mətinləşən İ.Qadiri 21 Azər hərəkatı uğrunda fədai dəstələrinin tərkibində şah rejiminə qarşı qəhrəmancasına mübarizə apardı və firqənin göstərişlərini yerinə yetirdi (Hacızadə, 1948, 11 sentyabr, s.3).

ADF hökuməti qurulduqdan sonra İ.Qadiri göstərdiyi şücaətlərə görə Milli Hökumət tərəfindən "21 Azər" medalı ilə təltif edilmişdi (Azadlıq yolunun..., 1962, s.120). Leytenant hərbu rütbəsi verilən İ.Qadiri Xalq Qoşunlarında hərbi fəaliyyətilə yanaşı ideoloji məsələlərdən də məsul idi. O, şah ordusunun Cənubi Azərbaycanı zəbti zamanı rejim tərəfdarları tərəfindən Təbrizdə faciəvi şəkildə qətl edildi. "Azərbaycan" qəzeti yazırdı ki, İ.Qadiri və digər əziz yoldaşlarımız şəhid edilsə də adları unudulmayacaq (Hacızadə, 1948, 11 sentyabr, s.3). Azərbaycan xalqı bu şəhid oğlunu unutmayacaq və onun arzu etdiyi şəkildə azadlıq uğrunda çalışacaq və bu yolda mübarizəsini daim davam etdirəcək.

Yəhya Şeyxi (1921-1946)

Leytenant Yəhya Həbib oğlu Şeyxi 1300 (1921)-ci ildə Ərdəbildə ziyalı ailəsində anadan olmuşdur. O, hələ uşaq ikən atasının ölümüylə həyat şəraitinin ağırlaşmasına baxmayaraq dərslərinə ciddi fikir verirdi. Y.Şeyxi Ərdəbildə ibtidai təhsil aldıqdan sonra Tehrana gedir. Hakim təbəqənin yoxsulların təhsilinə yardım etməməsi Y.Şeyxinin arzu etdiyi şəkildə dünyəvi təhsil almasına mane oldu. O, hərbi məktəbə daxil olaraq 1322 (1943)-cü ildə kiçik leytenant rütbəsilə məzun oldu və Ərdəbildə xidmət etməyə başladı. Y.Şeyxi öz əsgərləri ilə vicdansız və ləyaqətsiz zabitlər kimi yox, bir müəllim kimi məhəbbət və səmimiyyətlə rəftar edir, əsgərlər də onun komandirliyi altında xidmət etməyə can atırdılar (Giranmayə, 1948, 18 avqust, s.3).

Y.Şeyxi 1324 (1945)-ci ildə şah ordusunda leytenant hərbi rütbəsilə təltif olunmuşdu (Azadlıq yolunun.., 1962, s.145). Lakin o, şah hökumətinin mürtəce mahiyyətini yaxşı dərk etdiyinə görə ona nifrət edirdi. Çünki şah ordusu bir qrup müstəbidin rəhbərliyi altında olub zalım şahın mənafeyini müdafiə edir, İran xalqlarının, o cümlədən, Azərbaycan xalqının hüquq və azadlıqlarını tapdalayıb əsarət altında saxlayırdı. Y.Şeyxi bu orduda xidmət etmək yox, onun məhv olmasını arzu edirdi. O, xalqın hüquqlarının tapdalandığını görüb vicdan əzabı çəkir, xalqa xidmət edəcək bir orduda

xidmət etməyi arzu edirdi. Ona görə də Cənubi Azərbaycanda milli hərəkat başladıqda şah ordusundan qaçıb Azərbaycan Xalq Qoşunlarına qoşuldu.

Y.Şeyxi Cənubi Azərbaycan əhalisinin demokratik azadlığı uğrunda ən çətin şəraitlərdə fədailər ilə birlikdə dağlarda xidmət etdi. Bu xidmətlərinin qarşılığında ADF tərəfindən "21 Azər" medalı ilə təltif edildi. Savalan dağında İran jandarm təşkilatının himayə etdiyi qaçaqmalçıları məğlub edən Y.Şeyxi ADF tərəfindən Xalxal fədai taborunun komandiri təyin edilmişdi. O, şah ordusunun Cənubi Azərbaycana hücumu zamanı Xalxalda xaincəsinə qətl edildi.

"Azərbaycan" qəzeti yazırdı ki, şah ordusunun Azərbaycanda törətdiyi faciələr zamanı təkcə Y.Şeyxi yox, minlərlə Azərbaycan gənci xalqın azadlığı uğrunda qəhrəmancasına şəhid oldu. Qəzet göstərirdi ki, xalqın səadətini təmin edən bir hakimiyyəti qurana qədər ADF-nin mübarizəsi davam edəcək. Qoy mürtəcelər bilsin ki, minlərlə Azərbaycan gəncini həbs və ya şəhid etmək demokratik mübarizəni dayandırmayacaqdır (Giranmayə, 1948, 18 avqust, s.3). Müstəbid şah ordusu tərəfindən qətl edilmiş Y.Şeyxi kimi fədakar Azərbaycan oğulları mübarizə tariximizdə ən görkəmli yeri tuturlar və heç zaman unudulmayacaqlar. Çünki bu mübarizə Azərbaycan xalqının milli və həyati arzularından ilham alır.

Rəhim İmrani
(1923-1946)

Leytenant Rəhim İmrani (Sarı Rəhim) 1302 (1923)-cü ildə Təbrizdə kasıb bir çörəkçi ailəsində anadan olmuşdu. Ailə vəziyyətinin ağır olmasıyla əlaqədar kiçik yaşlarından fərş karxanəsində (xalça fabriki-Ə.F.) işləyirdi. Eyni zamanda savad əldə etmək üçün o, gecələr xüsusi hazırlaşaraq ibtidai təhsil alır və imtahan verib orta məktəbə daxil olur.

R.İmrani xalça fabrikində işləyərkən fəhlələrin ağır vəziyyətini görür və onları istismar edənlərə nifrət etməyə başlayır. Rza şahın qovulmasından sonra Tudə Partiyası yaradılarkən R.İmrani onun ilk üzvlərindən biri olur və fəhlələr arasında aktiv təbliğata başlayır. O, fəhlələrin ağır vəziyyətinin səbəblərini işçilərə izah edib onları istismarşılara qarşı mübarizəyə səsləyirdi.

Cənubi Azərbaycanda Fəhlə ittifaqı təşkilatı yaradılarkən R.İmrani ora üzv seçilir. Tudə Partiyasının düzgün siyasəti və fəhlələrin qətiyyəti sayəsində Şurayi-müttəhidənin Azərbaycan əyaləti təşkilatı yaradılır və bu təşkilat şah rejiminə qarşı mübarizə aparan Azadlıq Cəbhəsinin möhkəm və sarsılmaz bir səngəri olur. Bu işdə R.İmrani böyük rol oynamışdı. Zülmün ən şiddətli vaxtlarında şah hökumətinə qarşı mübarizədə o, xalqın ön sıralarında idi. O, təkcə şah rejiminə qarşı deyil, onun dayağı olan ingilis-amerikan imperializminə qarşı da ciddi mübarizə aparırdı (Əbluc, 1948, 22 dekabr, s.3).

12 şəhrivər 1324-cü ildə (3 sentyabr 1945) yaradılan ADF-nin çağırışına səs verən R.İmrani firqənin ən fədakar və mübariz üzvlərindən biri oldu. Milli hərəkat qələbə çaldıqdan sonra Milli Məclis onu "21 Azər" medalı ilə təltif etdi (Azadlıq yolunun.., 1962, s.149). R.İmrani Milli Hökumətin yaratdığı Ali Hərbi Məktəbdə təhsil alıb süvari leytenantı kimi oradan məzun oldu. Miyandoab və Marağa qarnizonlarında xidmət etdi. Bir müddət sonra o, Təbrizə çağırılaraq Baş hərbi qərargahda xidmət etməyə başladı.

Şah hökumətinin ikiüzlü siyasəti nəticəsində şah ordusu Cənubi Azərbaycana hücum etdiyi zaman R.İmrani könüllü surətdə cəbhəyə getdi və Miyanədə tabor komandiri M.Agəhinin mühafizi kimi xidmət etməyə başladı. Şah ordusu Təbrizi zəbt etdiyi zaman o, əlində silah qəhrəmancasına vuruşdu. Lakin daha sonra tutulub edam edildi. "Azərbaycan" qəzeti yazırdı ki, o, dar ağacında – "Mən iftixar edirəm ki, xalqımın azadlığı uğrunda ölürəm! Yaşasın Azərbaycan xalqı! Yaşasın firqəmiz!", deyərək şərəflə öldü (Əbluc, 1948, 22 dekabr, s.3). R.İmraninin - Azərbaycanın bu zəhmətkeş və mübariz övladının həyatı, vətən uğrunda etdiyi fədakarlıqlar bizim üçün bir nümunədir. O, xalqının azadlığı uğrunda ölümə getdi. Azərbaycan xalqı R.İmrani kimi şərəfli övladlarını heç vaxt unutmayacaq və onların xatirəsini daim yaşadacaqdır!

Şahmar Səmədi (1892-1946)

Kərbəlayi Şahmar Səməd oğlu Səmədi 1271 (1892)-ci ildə Ərdəbilin Ağabağır kəndində anadan olmuşdur. O, şah rejiminə həmişə nifrət etmiş, Şeyx Məhəmməd Xiyabaninin qiyamı zamanı bu hərəkatda fəal iştirak etmişdi (Əlizadə, 2017, s.123). Qacar sülaləsini yıxıb hakimiyyətə gələn Rza şahın dövründə də Ş.Səmədi öz inqilabi mübarizəsindən geri çəkilmədi.

Rza şahın qovulmasından sonra 1320 (1941)-ci ildə Kərbəlayi Şahmar Səmədi bəzi yaxın yoldaşları ilə birlikdə Ərdəbilin Nir kəndində Tudə Partiyasının yerli təşkilatının formalaşması üçün gizli surətdə çalışır və onun sədri seçilir. O, öz səmimiyyəti ilə yerli zəhmətkeşləri öz ətrafında toplaya bildi. Ş.Səmədi polis və jandarmların, bəy və xanların quldur dəstələrinin hədə-qorxularından, təhdidlərindən qorxmayaraq onların zülmünü ifşa edir, öz əqidəsinə sadiq qalır və mübarizədən çəkinmirdi.

Ş.Səmədi 1323 (1944)-cü ildə Təbrizdə olarkən tutulub şallaqlanır və Ərdəbil həbsxanasına göndərilir (Natəvani, 1948, 6 oktyabr, s.3). Lakin o, geri çəkilmir və digər yoldaşları ilə birlikdə irtica əleyhinə mübarizəyə davam edir, şah polisinin və məmurların təzyiqlərinə baxmayaraq, öz məram və əqidəsindən dönmür. Ş.Səmədi ADF qurulduqdan sonra onun səmimi və mübariz əsgəri olur. O, daha artıq cəsarətlə mübarizəsini

davam etdirir və "21 Azər" medalı ilə təltif edilir (Azadlıq yolunun.., 1962, s.163; Əlizadə, 2017, s.123).

"Azərbaycan" qəzeti yazırdı ki, şah ordusunun Cənubi Azərbaycana hücumu zamanı Ş.Səmədi 1325 (1946)-cı ildə Ərdəbilin Nir kəndində öz fədai dəstəsi ilə mübarizəyə başlayır. O, 1325 (1946)-cı ilin 21 azər (13 dekabr) tarixində şah ordusunun hücumu zamanı tutulur və faciəvi şəkildə Meşkinşəhrdə qətl edilir (Natəvani, 1948, 6 oktyabr, s.3). Xalqın azadlığı uğrunda özünü fəda etmiş qocaman mübariz Ş.Səmədi ilə və onun kimi fədakar digər fədailərlə Azərbaycan xalqı fəxr edir. Çünki bu fədailər Cənubi Azərbaycanda demokratik milli hərəkatın inkişafında mühüm rol oynayıblar. Azərbaycan xalqının azadlığı uğrunda canını fəda etmiş Ş.Səmədinin xatirəsini millətimiz heç bir zaman unutmayacaqdır.

KARİKATURALAR

"Azərbaycan" qəzetində Azərbaycan və İran xalqlarını istismar edən, onları əsarətdə saxlayan Rza şahın oğlu Məhəmmədrza şah Pəhləvini, ADF hökuməti dövründə İranın Baş nazirləri olmuş İbrahim Həkimi və Əhməd Qəvamı, İran parlamentinin azərbaycanlı deputatı və BMT səfiri olub ADF hökuməti ilə mübarizə aparan təbrizli Seyid Həsən Tağızadəni, mürtəce şah hökumətinin xalqa zidd siyasətini, şah ailəsinin və hökumətin xeyriyyəçilik adı altında soyğunçu siyasətlərini və şaha dəstək olan beynəlxalq imperializmi tənqid və ifşa edən karikaturalar təqdim olunmuşdur.

"Azərbaycan" qəzetində verilən bir karikaturada Xorasanda baş vermiş zəlzələdən sonra Məhəmmədrza şahın bacısı Əşrəf Pəhləvinin rəhbərlik etdiyi "Şirü-xurşid" cəmiyyətinin xalqa qayğı ilə yox, xeyriyyəçilik adı altında soyğunçuluqla məşğul olduğu göstərilmişdir. Əşrəf Pəhləviyə tövsiyə olunurdu ki, Tehranın zənginlər məhəlləsindən kənara çıxıb bölgələrdə bədbəxt İran xalqının faciəvi, yoxsul həyatı ilə tanış olsun (17 Dey.., 1948, 14 yanvar, s.4). 1948-ci ilin oktyabr ayında baş vermiş bu zəlzələdən bəhs edən "Azərbaycan" qəzeti "zəlzələ xain dövləti bir daha ifşa etdi" deyir (Fəhmi, 1948, 23 oktyabr, s.1, 3) və "xeyriyyəçiləri" belə ifşa edirdi:

"Yerli "Şirü-xurşid" girişir işə,

Sədəqə yığılır millət adından" (Xorasandakı.., 1948, 3 noyabr, s.4).

O dövrdə İran şahı olan və Cənubi Azərbaycandakı demokratik hərəkatı Qərb imperializminin yardımı ilə qan içində boğan və atası Rza şahın diktatura yolu ilə gedən Məhəmmədrza şah "Azərbaycan" qəzetinin əsas hədəfi idi. "Azərbaycan" qəzetində göstərilirdi ki, "21 Azər" hərəkatını ordu gücünə qanla məğlub edən Məhəmmədrza şahın Təbrizi ziyarət etməsilə Təbrizin şərəfi ləkələndi, Təbrizin müqəddəs torpağına "xain" şahın ayağı dəydi. Təbrizin gülşəninə bayquş qondu (Müciri, 1948, 10 iyul, s.3).

Qeyd edək ki, 1946-cı ildə ADF hökumətinin süqundan əvvəl Moskvada Xarici işlər naziri Molotovla və Stalinlə görüşən Əşrəf Pəhləvi və İranın Baş naziri Ə.Qəvam onlara sovetlərlə münasibətləri yaxşılaşdırıb, keçmiş səhvləri düzəltməyi söz vermiş, sovetlərlə neft müqaviləsi bağlayıb onlara Şimali İran neftindən pay verməyi, həmçinin Cənubi Azərbaycan əhalisinə İran daxilində milli-mədəni hüquqlarının veriləcəyini vəd etmişdilər. Lakin onlar bunun üçün İran qanunlarına görə sovet ordusunun İranı tərk etməsinin vacib olduğunu bildirmişdilər. Stalin də bunun qarşılığında İranın ərazi bütövlüyünü tanıdığını bildirmişdi. 1946-cı ilin 4 aprel tarixində SSRİ və İran arasında bağlanan müqavilə ilə bu məsələ rəsmi şəkildə təsdiq edildi. Stalin ADF hökumətini müdafiə etməkdən imtina edib sovet ordusunu İrandan geri çəkdi və şah ordusu 1946-cı ilin dekabrında Cənubi Azərbaycanın azad, demokratik hərəkatını boğub yenidən ələ keçirdi (Fərhadov, 2024, s.62).

"Azərbaycan" qəzetində S.H.Tağızadə "keçmişdə özünü məşrutə tərəfdarı adlandıran yaltaq" kimi tənqid edilir və göstərilir ki, Rza şah onun kimi şaha "bəli, qurban" deyənlərin sayəsində ölkədə azadlığı yox etdi (Azərbaycan milləti.., 1948, 4 avqust, s.1). "Azərbaycan" qəzeti S.H.Tağızadənin Azərbaycanın problemləri ilə maraqlanmadığını qeyd edir və yazırdı ki, bir neçə qoca mürtəcedən başqa Azərbaycanın müasir nəsli S.H.Tağızadəni görməyib və onu azərbaycanlı kimi tanımır. S.H.Tağızadə Cənubi Azərbaycanın indiki nəsli, indiki ehtiyacı və tələbatı, indiki amal və arzusından bixəbərdir (Rəhmani, 1948, 11 sentyabr, s.1). Qəzetdə S.H.Tağızadə məşrutə ideallarına xəyanət edən mürtəce deputat və Britaniyanın Baş naziri "Çörçilin oğlu", yəni ingilispərəst "xain" kimi təqdim edilmişdir (Saidin.., 1949, 26 yanvar, s.3). O, İranın BMT-dəki səfiri kimi ADF hökumətinə qarşı şah hökumətinin sözçüsü kimi ciddi mübarizə aparırdı. İranın Böyük Britaniyadakı və BMT-dəki səfiri S.H. Tağızadə sovet ordusunun

İrandan çıxmamasını ölkəsinin daxili işinə qarışmaq adlandırmış və ordunu çıxartmağı öz hökuməti adından tələb etmişdi (Гасанлы, 2006, с.238). Onun BMT Baş katibinə təqdim etdiyi "SSRİ-nin İranın daxili işlərinə qarışması barədə" məktubunda sovet hökumətinin və ordusunun İrandakı əməlləri pislənir və BMT-dən yardım istənirdi.

Karikaturalardan birində dollara təzim edən Pəhləvi şahı Məhəmmədrza şah əks olunub və altında da şeir yazılıb: "Şah atam ölkəni vəqtində satıbdır funda; Satmasam dollara mən naxələf ollam onda" (Azərbaycan, 1948, 7 aprel, s.4). Bir digər karikaturada dollar və amerikalı əks olunaraq belə yazılıb: "Satqın mətbuatın ilham mənbəyi" (Azərbaycan, 1948, 11 dekabr, s.4). "İran məclisində səs vermək üsulu" (Azərbaycan, 1948, 13 mart, s.4) başlıqlı bir karikaturada parlamentdə mürgüləyən və başları üstə "müvafiq, müvafiq, müvafiq" yazılan millətvəkilləri əks olunmuşdur. "Məclis fraksiyalarının rəhbərləri" (Azərbaycan, 1949, 12 yanvar, s.4) başlıqlı bir karikaturada isə amerikalılar və ingilislər parlamentdəki fraksiya rəhbərlərini, deputatları zəncirlə hərəkət etdirirlər. Həqiəqən, "Azərbaycan" qəzeti göstərirdi ki, parlamentə deputatların seçilməsi ancaq pul və zor gücünə, saxta səslərin səbəbinə mümkün olmuşdur; mürtəcelər ancaq öz kəndlərini və mülklərini mühafizə etmək üçün şah hökuməti ilə əməkdaşlıq edirlər. Xalqın azad seçki yolu ilə seçməsi əvəzinə şah rejiminin təyin etdiyi parlament xalqa ancaq bədbəxtlik gətirib və deputatlar ancaq şaha və öz şəxsi mənfəətlərinə xidmət edirlər (Məclis.., 1948, 30 oktyabr, s.1), ancaq tutuquşu kimi hökumətdən gələn əmrləri icra edirlər (Qazi R. Məclisi-şuranın.., 1948, 22 sentyabr, s.4).

"Azərbaycan" qəzetində verilən bir digər karikaturada amerikalının ayağı altında başında börk (papaq) olan Əfğanıstan və Türkiyə məmurları əks olunub və İranın Baş naziri İ.Həkiminin bu sözləri qeyd olunub: "Görəsən bu börklərdən bizim də başımıza qoyacaqlar?" (Azərbaycan, 1948, 24 mart, s.4).

“Maarif, iş, azadlıq və çörək” tələbi ilə mitinq edən xalqın təqdim edildiyi şəkildə isə bu beyt yazılıbdır: “Oldu amerikalıların “mərhəməti” xəlqə kələk; Yağdırır başlarına qumbara, bomb, nizə, tüfəng” (Azərbaycan, 1948, 21 avqust, s.4).

Pəhləvi hakimiyyətinin mətbuat azadlığını məhv etdiyini göstərən “Azərbaycan” qəzetində bu mövzuda karikaturalar yer alıb. Altında “İranda mətbuat azadlığı” (Azərbaycan, 1948, 15 sentyabr, s.4) yazılmış bir karikaturada əlləri arxadan qandallanmış və ağzı kilidlənmiş bir jurnalist, onun arxasında isə əlində açar və silah olan hərbçi şəkli əks olunub (Fərhadov, 2024, s.182-183). Bu karikaturaların məqsədi şah rejiminin mürtəce siyasətini ifşa etmək, oxuma-yazma bilməyənləri ictimai-siyasi baxımdan maarifləndirmək, həm də oxuculara İranın real həyatını satirik yolla başa salmaq idi.

Dünya ağalığı! Şübhəliləri təmizləyək!
Atom bombası notunu Stalinə gecikdirməyək!
Biz ali nijadıq (ali irqik-Ə.F.)! Ziddi-kommunizm!
Qırmızıları tapın! Şurəvi əleyhinə!
Yeni müharibə! Şəxsi mənfəət!
1948-ci ildə Amerikanın azadlıq mücəssiməsi “bəzəyi”.
(Xarici mətbuatdan).
(Azərbaycan, 1948, 29 dekabr, s.4).

Maskasız Amerika
(Azərbaycan, 1948, 25 avqust, s.3).

İranda göyərən diktatorluq ağacını kim suvarır?
(Azərbaycan, 1948, 22 dekabr, s.4).

İranda irtica qüvvələrinin qudurması səbəbsiz deyildir.
(Azərbaycan, 1948, 25 dekabr, s.4).

Tehranın xiyabanları Amerika əfsər (zabit-Ə.F.)
və sərbazlarıyla (əsgər-Ə.F.) doludur.
("əl-Misri" ruznaməsi).
(Azərbaycan, 1949, 12 fevral, s.4).

آسیانی تولکالارین هیئت حاکمه‌لری «سجده» حالیندا

Asiya ölkələrinin heyəti-hakimələri
(hökumətləri-Ə.F.) "səcdə" halında.
(Azərbaycan, 1949, 22 yanvar, s.4).

اولدی آمریکالارین «مرحمتی» خلقه گلك
یاغدیریر باشلارینا خمپاره، بومب، نیزه، تفنگ

Oldu Amerikanın "mərhəməti" xalqa kələk
Yağdırır başlarına qumbara, bomb, nizə, tüfəng.
(Azərbaycan, 1948, 21 avqust, s.4).

Amerika hökuməti İrana borc verir.
Amerika: sən o balaca imtiyazı mənə ver,
əvəzində sənə bu böyük və gözəl qoltuq ağacını verim.
(Azərbaycan, 1948, 7 fevral, s.4).

Vəsiyyətdir atamdan, şahi-İran, div şəmayildən:
"Müti ol irticaya, qorxma hərgiz kütlədən, eldən.
Dayan imperializmə, hakim ol, dollara təzim et!
Şahənşahi-cavanbəxt ol, darıxma fitnədən, seldən".
(Azərbaycan, 1948, 24 aprel, s.4).

Şah atam ölkəni vaxtında satıbdır funta,
Satmasam dollara mən, naxələf ollam onda.
(Azərbaycan, 1948, 7 aprel, s.4).

Bəs ki, "top eşqi" ilə Londona getdim gəldim
Görürsən Şərqdə "meydanə" düşüb oynayıram.
Qorxuram kütlə "şutuyla" əbədi "auta" gedəm,
Hey diyirlənən oluram, Londonatək şutlanıram.
(Azərbaycan, 1948, 6 oktyabr, s.4)



Bəs ki, "top eşqi" ilə Londona getdim gəldim
Görürsən Şərqdə "meydanə" düşüb oynayıram.
Qorxuram kütlə "şutuyla" əbədi "auta" gedəm,
Hey diyirlənən oluram, Londonatək şutlanıram.
(Azərbaycan, 1948, 6 oktyabr, s.4)



İranın siyasət səhnəsinin boksyorları: Ə.Qəvam və S.H.Tağızadə.
(Azərbaycan, 1949, 19 yanvar, s.4).

Məclis fraksiyalarının rəhbərləri: Demokrat-e İran, İttihadi-Milli Firqəsi və başçıları. (Azərbaycan, 1949, 12 yanvar, s.4).

Amerika və ingilis İranda şətrənc (şahmat-Ə.F.) oynamaqdadırlar. (Azərbaycan, 1948, 24 iyul, s.4).

Bizə silah verən, ağalıq edən
Amerika bankiri, yaxud dollardır.
Bəs nə üçün ayrılaq iki ünvana?
Biz iki nökərə bir ağa vardır.
(Azərbaycan, 1948, 2 iyun, s.4).

Həkimi: - Görəsən, bu börklərdən bizim də başımıza qoyacaqlar?
(Azərbaycan, 1948, 24 mart, s.4).

İstiqlali-İran.
Buyur, buyur, ağa, olsun Həkimi qurbanın,
Buyur tənavül (nuş-Ə.F.) eylə hər yerindən İranın,
Gözəl məsəldir: "utanmaz varın verən", ağacan
Buyur bu nökərivə, varsa başqa fərmanın.
(Azərbaycan, 1948, 11 fevral, s.4).

İran Məclisində səs vermə üsulu: müvafiq, müvafiq, müvafiq.
(Azərbaycan, 1948, 13 mart, s.4).

Xarici siyasət.
İranda kabinet dəyişsə də, siyasət...
Həmin torpağam ki, varam.
(Azərbaycan, 1948, 27 mart, s.4).

Kabinet oyuncağı.
(Azərbaycan, 1948, 17 noyabr, s.3).

Said kabinetinin neft oyunu.
(Azərbaycan, 1949, 8 yanvar, s.4).

Demokratlara verilən "əfvi-ümumi.
İrtica: rahat yatın, sizi əfv edirlər.
(Azərbaycan, 1948, 9 oktyabr, s.3).

İranda mətbuat, dil və əqidə azadlığı.
(Azərbaycan, 1949, 26 yanvar, s.4).

İranda mətbuat azadlığı.
(Azərbaycan, 1948, 15 sentyabr, s.4).

Satqın mətbuatın ilham mənbəyi.
(Azərbaycan, 1948, 11 dekabr, s.4).

Dövlət deyir: Tehran daneşgahı siyasətdən kənar qalmalıdır.
İran cavanlarının fikir və əqidələrini yoxlamaq üçün...
(Azərbaycan, 1948, 13 noyabr, s.4).

Xorasandakı zəlzələ və dövlətin qayğısı:
Çörəkdir, köməkdir, dəvadır.
Dərman yollanır radiodan, dalğadan hər an.
Yerli Şiri-xurşid girişir işə
Sədəqə yığılır millət adından.
(Azərbaycan, 1948, 3 noyabr, s.4).

Millətin qeydini çəkməkdən yorulduq, bir az da
təfrih edib (fərəhlənib-Ə.F.) dincələk.
(Azərbaycan, 1949, 5 fevral, s.4).

NƏTİCƏ

XX əsrin 40-cı illərində Cənubi Azərbaycanda baş verən inqilabi dəyişikliklər və yeniliklər xalqımızın həyatında böyük rol oynadı. Bu dövrdə ADF xadimlərinin Cənubi Azərbaycanın tərəqqisi, milli-mədəni inkişafı, milli istiqlalı üçün böyük rolu olmuşdur. Dövrün ziyalıları və inqilabçıları Cənubi Azərbaycanın şanlı tarixində özlərinəməxsus bir iz qoymuş, vətənpərvərliyin, millətsevərliyin, xalqa bağlılığın bariz nümunəsini vermişlər. Kitab-albomda ilk dəfə olaraq Milli Azərbaycan Tarixi Muzeyində mühafizə olunan "Azərbaycan" qəzetinin 1947-1949-cu il sayları əsasında qəzetin materialları, fotoşəkillər və karikaturalarından nümunələr verməklə mövzu araşdırılımışdır. Kitab-albomda Pəhləvilərin və onlara dəstək olan Qərb imperializminin xalqa zidd siyasəti, demokratiyaya zidd fəaliyyəti, Pəhləvi rejiminin Cənubi Azərbaycana vurduğu zərbələr, xalqa edilən təzyiqlər, milli-mədəni inkişafa olan əngəllər ADF-nin "Azərbaycan" qəzetindən (1947-1949) verilən nümunələr əsasında göstərilmişdir.

Kitab-albomda məşrutə fədailəri Səttarxan, Bağırxan, ictimai-siyasi xadimlər – Şeyx Məhəmməd Xiyabani, Tağı Ərani, ADF-li fəallar Firidun İbrahimi, Mir Əyyub Şəkiba, Dadaş Tağızadə və digərləri haqqında, ADF-li hərbi xadimlər - general Mirzə Rəbi Kərimi, general Əbülqasim Əzimi və başqalarının, Məmməd Səid Ordubadi, Üzeyir Hacıbəyli və Səməd Vurğun yaradıcılığının Cənubi Azərbaycanda təbliği, mühacir şair Bayraməli Abbaszadənin yaradıcılığı, Cənubi Azərbaycanla əlaqədar olaraq marksizm-leninizm xadimləri haqqında məlumatlar və fotoşəkilləri təqdim edilmişdir. Kitab-albomda ortaya qoyulan materiallar "Azərbaycan" qəzetinin (1947-1949) materialları əsasında dövrün ictimai-siyasi tarixini mümkün qədər işıqlandırmağı qarşısına məqsəd qoymuşdur.

"Azərbaycan" qəzetinin tədqiqi və öyrənilməsi milli-mənəvi irsimizə dərindən yiyələnmək baxımdan olduqca vacibdir. Bu qəzetin və yazarlarının əsərlərinin kitabxanalarda gözdən uzaq, könüldən iraq tərk edilməsinə imkan verilməməlidir. Keçmişini bilməyən, əcdadlarından bixəbər bir millət özünə də inamsız olub, gələcəyə gedən yolu qaranlıq olar, zaman içində yox olmağa məhkum qalar. Bu səbəbdən Azərbaycan tarixşünaslığının ən önəmli məsələlərindən biri də "Azərbaycan" qəzetinin materialları əsasında "21 Azər" hərəkatının tədqiqidr.

"Azərbaycan" qəzetinin araşdırılması nəinki "21 Azər" hərəkatının, o cümlədən, Qacarlar və Pəhləvilər dövrünün tarix və mədəniyyətini, monarxiyaya qarşı xalq azadlıq hərəkatını, məşrutə inqilabını, Xiyabani hərəkatını öyrənmək baxımından da əhəmiyyətlidir. Həmçinin Cənubi Azərbaycanda milli mədəniyyətə və inqilaba, milli hərəkata öz töhfəsini vermiş milli ədib, şair və yazarlarımızın, mütəfəkkirlərimizin öyrənilməsi, dövrün ictimai-siyasi, mədəni proseslərinin tədqiqi baxımından önəmlidir və öz tədqiqatçılarını gözləyir. Şah rejiminə qarşı mübarizə aparan S.C.Pişəvəri və onun rəhbərlik etdiyi "21 Azər" hərəkatı daxili və xarici amillər səbəbilə məğlub olsa da, onun mütərəqqi, inqilabi ideyaları unudulmadı və "Azərbaycan" qəzetinin səhifələrində və s. əsərlərdə yaşadıldı.

"Azərbaycan" qəzeti "21 Azər" hərəkatının Cənubi Azərbaycanda milli özünüdərkin artmasına və daha sonra ortaya çıxan milli hərəkətlərə təsir etdiyini ortaya qoydu və göstərdi ki, bu hərəkat, İran və Azərbaycan tarixində mühüm bir mərhələ olaraq yadda qaldı və sonrakı dövrlərdə də milli hüquqlar uğrunda mübarizənin simvolu oldu. Beləliklə, qəzetin materialları belə deməyə əsas verir ki, "21 Azər" hərəkatı qısa müddətli olsa da, Azərbaycan xalqının milli və sosial hüquqlar uğrunda mübarizəsində mühüm bir əhəmiyyət kəsb edib.

"Azərbaycan" qəzetinin tədqiqi və araşdırılması təkcə Qacar və Pəhləvilər dövründəki Cənubi Azərbaycanı deyil, həm də onun Şimali Azərbaycanla əlaqəsini, qarşılıqlı tarixi-mədəni əlaqələrini və münasibətlərini öyrənmək, Cənubi Azərbaycan əhalisinin və ADF hökumətinin demokratik xalq hərəkatındakı rolunu, "21 Azər" hərəkatını, milli azadlıq və mübarizə yolunu tədqiq, təhlil və təbliğ etmək baxımından əhəmiyyətlidir. Bu sahədə tədqiqatların, araşdırmaların aparılması, Azərbaycan Respublikasının sərhədlərindən kənarda, öz doğma yurdlarında yaşayan azərbaycanlıların, o cümlədən, Cənubi Azərbaycanın ictimai-siyasi, iqtisadi, mədəni tarixinin öyrənilməsi vacibdir. Səttarxan, M.Xiyabani, S.C.Pişəvəri, F.İbrahimi, M.Biriya, S.Badegan kimi görkəmli şəxsiyyətlərin keçdiyi şərəfli mübarizə yolunun, ADF-nin "Azərbaycan" qəzetinin və yazarlarının tədqiqi və təbliği Azərbaycan alimlərinin qarşısında duran əsas məsələlərdən biri olmalıdır.

Cənubi Azərbaycanda ictimai-siyasi, milli maarifçiliyin inkişafı baxımından "Azərbaycan" qəzetinin tədqiqi böyük faydalar yarada bilər. Gələcək nəsillərin milli düşüncədə, sağlam yetişməsində, İranda ictimai-siyasi, sosial-iqtisadi mühitin normallaşmasında, xalqlar arasında sülhün, qardaşlığın, tolerantlığın qorunmasında "Azərbaycan" qəzetinin əhəmiyyətli rol oynayacağı şübhəsizdir. "Azərbaycan" qəzetinin tədqiqi və öyrənilməsi milli-mənəvi irsimizə dərindən yiyələnmək baxımdan olduqca vacibdir.

ƏDƏBİYYAT SİYAHISI

17 Dey İran qadınlarının "Azadlıq bayramının" həqiqi mənası // Azərbaycan, 1948, 14 yanvar, s.4.
"21 Azər – 70". Fotoalbom. Tərtibçi: S.Bayramzadə. Bakı: Araz nəşriyyatı, 2015, 188 s.
"21 Azər"in 3-cü ildönümü münasibətilə təşkil olunmuş yığıncaqda Rəhim Qazinin məruzəsi // Azərbaycan, 1948, 18 dekabr, s.3.
ADF-nin ikinci sədri Sadıq Badiqan. URL: https://azerbaycan-ruznamesi.org/2021/01/13/adf-nin-ikinci-s%C9%99dri-sadiq-badiqan/
Ağayi Aşıq Hüseyn Cavan // Azərbaycan, 19 noyabr 1945, s.3.
Ağayi Məhəmməd Biriya // Azərbaycan, 1945, 29 noyabr, s.1.
Astiyak. Qocaman hürriyyətçi general Kəbiri // Azərbaycan, 1948, 14 fevral, s.3.
Azadlıq yolunun mübarizləri. 3 cilddə, I cild. Red. C.Müciri. "Azərbaycan" ruznaməsi nəşriyyatı, 1962, 208 s.
Azadlıq yolunun mübarizləri. 3 cilddə, II cild. Baş red. və tərt. ed. C.Müciri. "Azərbaycan" ruznaməsi nəşriyyatı, 1969, 200 s.
Azadlıq yolunun mübarizləri. 3 cilddə, III cild. Baş red. və tərt. ed. C.Müciri. "Azərbaycan" ruznaməsi nəşriyyatı, 1988, 96 s.
Azərbadeganı tanıyın // Azərbaycan, 1948, 10 mart, s.3.
Azərbaycan Demokrat Cavanlar Təşkilatının 3-cü ildönümü münasibətilə yoldaş doktor Cahanşahlının məruzəsi // Azərbaycan, 1948, 24 noyabr, s.1, 3-4.
Azərbaycan dövri mətbuatı : 1875-1990. Biblioqrafiya. Tərtibçi S. Rüstəmova-Tohidi. Bakı: Azərnəşr, 1993, 258 s.
Azərbaycan milləti və məşrutiyyət tarixi // Azərbaycan, 1948, 4 avqust, s.1.
Azərbaycan Milli Hökumətinin zabitləri. Polkovnik Cəfər Sultani Azad (1917-1947). URL: https://azerbaycan-ruznamesi.org/2021/04/07/az%c9%99rbaycan-milli-hokum%c9%99tinin-zabitl%c9%99ri/

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti Azərbaycan Sovet Təhlükəsizlik Orqanları, 2 s. URL: https://www.dtx.gov.az/uploads/history-pdf/231-1-history-data.pdf
Azərbaycan, 1945, 20 dekabr, s.1.
Azərbaycan, 1947, 2 dekabr, s.1.
Azərbaycan, 1948, 11 dekabr, s.4.
Azərbaycan, 1948, 11 fevral, s.4.
Azərbaycan, 1948, 13 mart, s.4.
Azərbaycan, 1948, 13 noyabr, s.4.
Azərbaycan, 1948, 15 sentyabr, s.4.
Azərbaycan, 1948, 17 noyabr, s.3.
Azərbaycan, 1948, 2 iyun, s.4.
Azərbaycan, 1948, 21 avqust, s.4.
Azərbaycan, 1948, 22 dekabr, s.4.
Azərbaycan, 1948, 24 aprel, s.4.
Azərbaycan, 1948, 24 iyul, s.4.
Azərbaycan, 1948, 24 mart, s.4.
Azərbaycan, 1948, 24 noyabr, s.1.
Azərbaycan, 1948, 25 avqust, s.3.
Azərbaycan, 1948, 25 dekabr, s.4.
Azərbaycan, 1948, 27 mart, s.4.
Azərbaycan, 1948, 29 dekabr, s.4.
Azərbaycan, 1948, 3 noyabr, s.4.
Azərbaycan, 1948, 6 oktyabr, s.4.
Azərbaycan, 1948, 7 aprel, s.4.
Azərbaycan, 1948, 7 fevral, s.4.
Azərbaycan, 1948, 9 oktyabr, s.3.
Azərbaycan, 1949, 12 fevral, s.4.
Azərbaycan, 1949, 12 yanvar, s.4.
Azərbaycan, 1949, 19 yanvar, s.4.
Azərbaycan, 1949, 22 yanvar, s.4.
Azərbaycan, 1949, 26 yanvar, s.4.
Azərbaycan, 1949, 5 fevral, s.4.
Azərbaycan, 1949, 8 yanvar, s.4.

“Azərbaycan” qəzeti. Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin orqanı(1945-1946-cı illər, Təbriz). I hissə, Azərbaycan dilinə transliterasiya və tərcüməsi. Məsul redaktor: S.Bayramzadə. Bakı: Elm, 2022, 928 s.
Azərbaycanın böyük xalq və maarif xadimi Rüşdiyyə // Azərbaycan, 1324 (1945), 2 mehr (24 sentyabr), s.1.
Azəroğlu. Doktor Ərani // Azərbaycan, 1948, 7 fevral, s.1, 3.
Badegan S. Azərbaycan Demokrat Firqəsinin vəfadar üzvü Qulu Sübhi Nuri // Azərbaycan, 1948, 11 dekabr, s.3
Balayev X. Cənubi Azərbaycanda demokratik hərəkatın (1941-1946-cı illər) məğlubiyyəti: siyasi və geosiyasi səbəblər, s.312-331. URL: https:// jhss-khazar.org/wpcontent/uploads/2010/06/24-1.pdf
Balayev X. Cənublu şair və yazıçıların Azərbaycan ədəbi mühitinə inteqrasiyası // Xəzər Xəbər. Bakı, 2011, № 297, s.56-60.
Bayraməli Abbaszadə Hammal. Yazın başdaşıma // “Azərbaycan”, 1948, 3 aprel, s.3.
Beregian, 1988, p.47.
Biriya M. Qəhrəman mücahidlərə xitab // Azərbaycan, 1945, 21 noyabr, s.4.
Biriya M. Sevirəm mən də // Azərbaycan, 1325 (1946), 16 azər (7 dekabr), s.8.
Biriya. Ədalətin eşqinə! // Vətən yolunda, 1945, 22 iyun, s.2.
Biriya M. Mən ağlaram, gülər o // Kommunist, 1945, 23 oktyabr, s.2.
Böyük Oktyabr sosialist inqilabının 31-ci ildönümü bayramı // Azərbaycan, 1948, 6 noyabr, s.1, 4.
Cahanşahlı. Qəhrəman və fədakar alim Doktor Ərani // Azərbaycan, 1948, 7 fevral, s.1, 3.
Cavan A.H. Bayquş // Azərbaycan, 1948, 27 mart, s.3.
Cavan A.H. Firqəmiz // Azərbaycan, 1948, 29 dekabr, s.3.
Cavan A.H. Günəşə doğru // Azərbaycan, 1949, 5 fevral, s.3.
Cavan A.H. Təbrizim // Azərbaycan, 1948, 29 may, s.3.
Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə. III cild.

Red. M.İbrahimov. Bakı: Elm, 1988, 552 s.
Cənubi Azərbaycan // Azərbaycan Sovet Ensiklopediyası. X cild. Bakı: ASE Baş Redaksiyası, 1987, s.418.
Ciddi. Dövləti-şahənşahi, yaxud fəsad mənbəyi // Azərbaycan, 1949, 29 yanvar, s.1.
Çeşmazər M. Azərbaycan Demokrat Firqəsinin (ADF) yaranması və fəaliyyəti (Cənubi Azərbaycan 1945-1946), 121 s. // http://www.achiq.info/m.hukumet/adfchL.pdf
Çeşmazər M. Məşəqqətli ömür, 9 s. URL: https://www.achiq.info/m.hukumet/biriya%20dL.pdf
Çingizoğlu Ə., Avşar A. Avşarlar. Bakı: Şuşa nəşr., 2008, 368 s.
Dünya mədəniyyət xadimlərinin yığıncağında Azərbaycan millətinin böyük şairi Səməd Vurğunun çıxışı // Azərbaycan, 1948, 25 sentyabr, s.1, 4.
Dünya zəhmətkeşlərinin həqiqi atası və Şərq xalqlarının səmimi və xeyirxah dostu // Azərbaycan, 1948, 24 yanvar, s.1.
Ə.H. Azadlıq uğrunda şəhid olmuş süvari leytenantı Sultan Qulamrza Dəbirniya // Azərbaycan, 1948, 7 avqust, s.3.
Əbluc Ə. Qorxmaz mübariz Rəhim İmrani // Azərbaycan, 1948, 22 dekabr, s.3.
Əbluc Ə. Şəhid yoldaşımız Əjdər Baldar // Azərbaycan, 1948, 31 yanvar, s.3.
Əliqızı A. Cənubi Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: Azərnəşr, 2007, 268 s.
Əliyev Q. Cənubi Azərbaycan mövzusu "Kommunist" qəzetində (1945-1959) // Risalə. Elmi araşdırmalar jurnalı. Bakı, 2020, № 2 (19), s.101-117.
Əlizadə H. (Barış Mərəndli). "21 Azər" soyqırımı (1946-1947-ci illərdə Cənubi Azərbaycanda kütləvi qırğınlar)". Bakı: Elm və təhsil, 2017, 376 s.
Fəhmi C. Azadlıq uğrunda şəhid olmuş Sultan Həsən Zəhiri // Azərbaycan, 1948, 10 yanvar, s.3.
Fəhmi C. Xorasan zəlzələsi xain dövləti bir daha ifşa etdi // Azərbaycan, 1948, 23 oktyabr, s.1, 3.

Fərhadov Ə. "Azərbaycan" qəzetində (1947-1949) publisistika, mədəniyyət və ictimai-siyasi, iqtisadi məsələlər. Bakı: Azpoliqraf LTD, 2024, 320 s.
Fərhadov Ə. "Azərbaycan" qəzetində (1947-1949) milli publisistika və maarifçiliyə baxış // Bengi Dünya Yörük-Türkmen Araştırmalaı Dergisi, 2023, № 2, s.131-149.
Fərhadov Ə. XX əsrin I yarısında Cənubi Azərbaycanda ictimai fikir tarixindən: Tağı Ərani nümunəsi //Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası), 2023, № 1, s.73-84.
Firqəmizin Mərkəzi Komitəsi sədri yoldaş Badeganın məruzəsi // Azərbaycan, 1948, 15 dekabr, s.1, 3-4.
Firqəmizin Mərkəzi Komitəsi sədri yoldaş Badeganın məruzəsi // Azərbaycan, 1948, 15 dekabr, s.4.
Giranmayə M. Şəhid yoldaşımız Şeyxi // Azərbaycan, 1948, 18 avqust, s.3.
Gülgün M. Anama // Azərbaycan, 1947, 16 dekabr, s.3.
Gülgün M. Cəbhədəki qardaşlarıma // Azərbaycan, 1325 (1946), 16 azər (7 dekabr), s.7.
Gülgün M. Dedim – dedi // Azərbaycan, 1948, 29 may, s.3.
Gülgün M. Mənimdir! // Azərbaycan, 1948, 25 avqust, s.3.
Gülgün M. O gün yaxınlaşır // Azərbaycan, 1948, 23 iyun, s.3.
Gülgün M. Yenə güləcəkdir üzünə həyat // Azərbaycan, 1949, 12 yanvar, s.3.
Hacızadə S. Şəhid yoldaşımız İsrafil Qadiri // Azərbaycan, 1948, 11 sentyabr, s.3.
Həbibi Q.M. Azərbaycan İranda azadlıq hərəkatının məşəldarıdır (ikinci məqalə) // Azərbaycan, 1948, 2 iyun, s.1, 4.
Həbibi Q.M. Azərbaycan İranda azadlıq hərəkatının məşəldarıdır (üçüncü məqalə) // Azərbaycan, 1948, 19 iyun, s.3.
Həbibi Q.M. Azərbaycan İranda azadlıq hərəkatının məşəldarıdır // Azərbaycan, 1948, 31 iyul, s.1, 4.
Həbibi Q.M. Böyük tənqidçi Belinskinin 100 illik xatirəsi // Azərbaycan, 1948, 9 iyun, s.4.
Həbibi Q.M. Məşrutə dövrünün fədai şairləri-1252-1297

// Azərbaycan, 1948, 14 aprel, s.3.
Həbibi Q.M. Mirzə Əli Möcüz imperialistlər əleyhinə // Azərbaycan, 1947, 9 dekabr, s.3.
Həbibi Q.M. Azərbaycan İranda azadlıq hərəkatının məşəldarıdır // Azərbaycan, 1948, 26 may, s.4.
Həsənli C.P. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939- 1945). Bakı: "Diplomat" nəşriyyatı, 1998, 324 s.
Xalqımızın alim və şəhamətli oğlı Doktor Tağı Əraninin xatirəsi // Azərbaycan, 1949, 9 fevral, s.1, 4.
Xatəmi. Şəhid Sərhəng Mahmud Qazinin xatirəsi // Azərbaycan, 1948, 1 may, s.1, 3.
Xədyur M. Xalqımızın mübariz oğlu Cavidan // Azərbaycan, 1948, 31 mart, s.4.
Xəndan C. İran Azərbaycanının müasir şairlərindən Məhəmməd Biriya // Kommunist, 1947, 24 dekabr, s.3.
Xoşginabi F. "21 Azər"in unudulmaz və müqəddəs xatirəsi // Azərbaycan, 1947, 13 dekabr, s.3.
Xoşginabi F. Azərbaycan ruznaməsinin tarixi rolu // Azərbaycan, 1948, 15 sentyabr, s.3.
Xoşginabi F. Şəhid yoldaşımız Firidun İbrahimi // Azərbaycan, 1948 14 yanvar, s.1, 3.
İbrahimi F. Sülh uğrunda (Paris Sülh Konfransı barədə qeydlər. 1946). Tərtib ed: S.Bayramzadə. Bakı: Elm və təhsil, 2018, 312 s.
İsmayılov G. 21 Azər hərəkatından doğulanlar: Doktor Nüsrət Baqiri. URL: https://azerbaycan-ruznamesi.org/2021/06/10/21-az%C9%99r-h%C9%99rakatindan-dogulanlar-doktor-nusr%C9%99t-baqiri/
İsmayılov G. Azadlıq fədaisi Mir Əyyub Şəkiba. 2021, 28 noyabr. URL: http://adfmr.megavisionsites.com/entries/daxili-x%C9%99b%C9%99rl%C9%99r/azadliq-f%C9%99dai-si-mir-%C9%99yyub-%C5%9F%C9%99ki-ba
İsmayılov G. Mahmud Qazi Əsədullahi (1912-1946), 2021, 10 dekabr. URL: http://adfmr.megavisionsites.com/entries/

daxili-x%C9%99b%C9%99rl%C9%99r/blog-post-58
İsmayılov G. Mirzə Rəbi Kəbiri (1889-1947). URL: https://azerbaycan-ruznamesi.org/2021/02/11/21-az%C9%99rd%C9%99n-dogulanlar-milli-ordunun-generallari/
İsmayılov G. 21 Azər hərəkatının sərhəng (polkovnik) fədaisi Əli Şəmidə. 2021, 26 iyul. URL: http:.aze.adfmk.com/entries/daxili-x%C9%99b%C9%99rl%C9%99r/21-az%C9%99rh%C9%99r%C9%99kat%C4%B1n%C4%B1n-s%C9%99rh%C9%99ng-polkovnik-- f%C9%99daisi--%C9%99li--%C5%9F%C9%99mi-d%C9%99
İsmayılov G. Azadlıq yolunun mübarizləri - Mir Rəhim Vilayi. URL: https://az.adfmk.com/2021/06/25/azadliq-yolunun-mubarizl%c9%99ri-mir-r%c9%99him-vilayi/
İsmixani Q. Mübariz şəhid yoldaşımız Mirkazım Ələm // Azərbaycan, 1948, 28 iyul, s.4.
Kafkasiyalı A. İran türk edebiyatı antolojisi. 5 cilddə. Erzurum: Atatürk Üniversitesi yayınları, 2002, 573 s.
Kürd millətinin azadlıq günü // Azərbaycan, 1949, 26 yanvar, s.1, 4.
Kürdüstan // Azərbaycan, 1947, 13 dekabr, s.2.
Qazi R. Məclisi-şuranın nümayəndələri tuti quşı rolunı ifa edirlər // Azərbaycan, 1948, 22 sentyabr, s.4.
Qaziyani. Naibi-sərhəng Yusif Murtəzəvi // Azərbaycan, 1948, 15 may, s.3.
Qaziyani. Sərkərdə Məhəmmədəli Ramtin // Azərbaycan, 1948, 14 avqust, s.4.
Qəhrəmanlarımız təqdir olunur // Azərbaycan, 1946, 5 aprel, s.1.
Qətnamə // Azərbaycan, 1948, 27 noyabr, s.3.
Leninizm yaşayır və qalib gəlir! // Azərbaycan, 1949, 22 yanvar, s.1.
Məclis qolçaq teatrına bənzəyir // Azərbaycan, 1948, 30 oktyabr, s.1.
Məhəmmədzadə H. Ana dili əbədi musiqi, ömrin qönçəli güllərinin solmaz bir dastanıdır. (3-cü məqalə) // Azərbaycan, 1948, 14 avqust, s.1, 4.

Məmmədli P. Cənubi Azərbaycan mətbuatı tarixi. Bakı: Elm, 2009, 230 s.
Məmmədli C. Qocaman müəllim – Mirzə Həsən Rüşdiyyə. URL: http:// www.milliarxiv.gov.az/az/qocaman-muellim-mirze-hesen-rusdiyye
Mərənd kandidlərindən, Azərbaycan, 1945, 30 noyabr, s.1.
Möhsün. Xalq Qoşunları vəziri ağayi Cəfər Kaviani // Azərbaycan, 1945, 20 dekabr, s.4.
Muradi M. Şəhid yoldaşımız general Əzimi // Azərbaycan, 1948, 14 iyul, s.1, 4.
Mübariz şəhid yoldaşımız Sultani Azad // Azərbaycan, 1947, 23 dekabr, s.3.
Müciri. Azərbaycan millətinin Şərq dünyasında təsiri // Azərbaycan, 1948, 21 iyul, s.3.
Müciri. Şəhid yoldaşımız Cövdət // Azərbaycan, 1948, 2 iyun, s.3.
Müciri. Şəhid yoldaşımız mayor Nasiri // Azərbaycan, 1948, 23 iyun, s.3.
Müciri. Təbriz // Azərbaycan, 1948, 10 iyul, s.3.
Natəvani. Azadlıq yolunda şəhid olan Şahmar Səmədi // Azərbaycan, 1948, 6 oktyabr, s.3.
Nəbioğlu. R. Komunizmin mübariz inqilabi məramnaməsi // Azərbaycan, 1948, 3 mart, s.3-4.
Nəzərli Ş. Arxivlərin sirri açılır. Bakı: Elm, 1999, 384 s.
Nəzirli Ş. 1920-ci ildə Qarabağ döyüşləri. Bakı, 2009, 480 s.
Nəzirli Ş. Azərbaycan generalları. Bakı: Gənclik, 1991, 208 s.
Novruz. Şeyx Məhəmməd Xiyabani // Azərbaycan, 1945, 1 noyabr, s.2.
P.Ə. Çinar ağacı sınar, lakin əyilməz! // Azərbaycan, 1948, 24 aprel, s.3.
Pənahi Ə. Mübariz yoldaşımız Əbdülhüseyn Əhmədi // Azərbaycan, 1948, 18 sentyabr, s.4.
Pənahi M. Şaha // Azərbaycan, 1948, 31 iyul, s.4.
Pəriş. Hizbi-Tudeyi-İran nə kimi şəraitdə mübarizə aparır // Azərbaycan, 1948, 25 dekabr, s.1, 3.

Pişəvəri S.C. Xatirələr (1941-1945). Tərtib ed: Y.Kənani. Bakı: Achiq.info, 2005, 395 s., s.53.
Pişəvəri, 2016, s.128, 295-296.
Pişnəmazi. Yaltaq mətbuatın uydurmaları // Azərbaycan, 1948, 10 noyabr, s.3.
Rəhimli-Bije Ə. 21 Azərə gedən yol – 6-cı yazı. 2 sentyabr 2019. URL: https://www.xalqcebhesi.az/news/southazerbaijan/37233.html
Rəhmani. Azərbaycan milləti heç bir riyakarlığa inanmayacaqdır // Azərbaycan, 1948, 11 sentyabr, s.1, 4.
Rəhmani Q. Şəhid yoldaşımız Mir Əyyub Şəkiba // Azərbaycan, 1948, 25 sentyabr, s.4.
Rza xanın heykəlinə və məqbərəsinə xalq nifrət edir // Azərbaycan, 1948, 13 noyabr, s.4.
Sərdariniya S. İrəvan müsəlman sakinli vilayət olmuşdur. Tərc. İ.Quliyev. Bakı: Zərdabi, 2014, 202 s.
Sərkari. Nurullah Yekani. Azərbaycan, 1948, 22 may, s.3.
SMF № 3347 // Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli Mənbələr Fondu № 3347.
Şeyx Məhəmməd Xiyabani. 1920-ci ildə Təbrizdə qiyam dövrəsində söylədiyi nitqlərindən // Azərbaycan, 1947, 9 dekabr, s.1.
Şəmidə Ə. Dumanlı Təbriz – Qorxulu Tehran // Azərbaycan, 1948, 3 yanvar, s.1.
Şəmidə Ə. İranda həqiqi mətbuat azadlığı yoxdur // Azərbaycan, 1948, 28 aprel, s.4.
Şəmidə Ə. Məzhəbi təbliğatdır, ya siyasi fəaliyyət! //Azərbaycan, 1949, 22 yanvar, s.4.
Tahir M. Azərbaycanın məşhur və həqiqəti sevən şairi Şəbüstərli Əli Möcüz // Azərbaycan, 1945, 24 oktyabr, s.2.
Tarixin unudulmaz səhifələri. Azərbaycan Kommunist Bolşeviklər Firqəsinin katibi M.C.Bağırov yoldaşın 19 sentyabr 1948-ci ildə "Pravda"da çıxan məqaləsi // Azərbaycan, 1948, 22 sentyabr, № 85, s.1, 3.

Təbriz kandidlərindən // Azərbaycan, 1945, 2 dekabr, s.1.
Təbrizdə şairlər məclisinin böyük ədəbi gecəsi // Azərbaycan, 1945, 18 noyabr, s.2.
Tərbiyət M. Danişməndani-Azərbaycan. Bakı: Azərnəşr, 1967, 464 s.
Tudə Ə. Sənin nəğmən // Azərbaycan, 1948, 27 noyabr, s.4.
Turan A. Təbrizin qarğınmış şairi. URL: https://edebiyyatqazeti.az/news/diger/3236-tebrizin-qarginmis-sairi-biriya
Vilayəti M. Şahpərəstlik heç bir fəlsəfə və riyazi formul üzərində qurulmamışdır // Azərbaycan, 1948, 17 mart, s.1, 4.
Vilayi M. Azərbaycan Demokrat Firqəsi Məramnaməsinin təhlili // Azərbaycan, 1948, 21 yanvar, s.1, 4.
Vilayi M. Azadlıq uğrunda şəhid olmuş qəhrəmanımızın xatirəsi əbədi yaşayacaqdır! // Azərbaycan, 1947, 13 dekabr, s.1.
Vilayi M. Böyük bəstəkar və dramnəvis // Azərbaycan, 1948, 27 noyabr, s.4.
Vilayi M. Dadaş Tağızadə // Azərbaycan, 1948, 26 may, s.4.
Vilayi M. Şəhid yoldaşımız Doktor Nüsrət Baqiri // Azərbaycan, 1949, 1 yanvar, s.3.
Vilayi M. Azadlıq uğrunda şəhid olmuş qəhrəmanımızın xatirəsi əbədi yaşayacaqdır! // Azərbaycan, 1947, 13 dekabr, s.1.
Vilayi M. Süni ehsasat // Azərbaycan, 1948, 29 dekabr, s.1.
Vilayi M. İran xalqları arasında ziddiyyət salan fitnəkarlar // Azərbaycan, 1948, 10 yanvar, s.1, 4.
Vilayi M. Azərbaycan Demokrat Firqəsi Məramnaməsinin təhlili // Azərbaycan, 1948, 21 yanvar, s.1, 4.
Vilayi M. Böyük bəstəkar və dramnəvis // Azərbaycan, 1948, 27 noyabr, s.4.
Vilayi M. Dağlıq Qarabağ Vilayəti // Azərbaycan, 1948, 4 avqust, s.1, 4.
Vilayi M. Şah İsmayıl Xətai. Dövlət quruluşu və dil // Azərbaycan, 1948, 9 iyun, s.3.
Vilayi M. Şəhid yoldaşımız doktor Nüsrət Baqiri // Azərbaycan, 1949, 1 yanvar, s.3.
Vilayi M. Tehranda // Azərbaycan, 1949, 15 yanvar, s.3.

Vilayi M. Fədailərimiz mübarizə cəbhəsində // Azərbaycan, 1949, 2 fevral, s.3.
Vilayi M. Cənubi Azərbaycanda milli azadlıq uğrunda demokratik mətbuatın mübarizəsi (1945-1946-cı illər), 57 s. URL: https://www.achiq.info/m.hukumet/vilai%20butun%20dL.pdf
Vilayi M. Milli Hökumətin siyasi, iqtisadi və mədəni reformlarının yerinə yetirilməsində demokratik mətbuatın mübarizəsi. URL: https://www.achiq.info/m.hukumet/vilayi%20dL.pdf
Zakir İ. Ey igid fədai şanlı qızılbaş! // Azərbaycan, 1949, 19 fevral, s.3.
Farhadov A. On Social and Political Issues of Iranian Azerbaijan in the Newspaper “Azerbaijan” (1947-1949) // Reconstructing the Past: Journal of Historical Studies, 2023, № 4, p.32-50.
Назирли Ш. Генерал Кавиан, 2015, 05 июля. URL: https://www.kaspiy.az/general-kavian
Гасанлы Дж.П. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны (1941 – 1946 гг.). Москва: Герои Отечества, 2006, 560 с.
https://nedayeshahrvandonline.ir/%D9%86%D8%AE%D8%B3%D8%AA%DB%8C%D9%86-%D8%A2%D8%B3%D9%81%D8%A7%D9%84%D8%AA%E2%80%8C%E2%80%8C%D8%B1%DB%8C%D8%B2%DB%8C-%D8%AF%D8%B1-%D8%AE%DB%8C%D8%A7%D8%A8%D8%A7%D9%86%E2%80%8C%D9%87%D8%A7%DB%8C-%D8%B2/

QEYDLƏR

Dizayner: ***Məmmədova Lalə***